Hər kəs ədalətli olacaq

www.adalet.az

# ƏDALƏT

Qurucusu: Adil Minbaşıyev | İctimai-siyasi, hüquq qəzeti | Qəzet 1990-cı ilin iyulundan çıxır | № 23 (6165) 26 iyun 2026-cı il | Qiyməti 40 qəpik

## "Arzu edirəm ki, bölgədə heç bir müharibə olmasın"



**Azərbaycan Prezidenti İlham Əliyev İran İslam Şurası Məclisinin sədri Məhəmməd Baqir Qalibafın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşdə İranda müharibənin dayandırılmasını Azərbaycanda sevinc hissi ilə qarşılandığını deyib.**

**Adalet.az xəbər verir ki, dövlət başçısı bununla bağlı Azərbaycan tərəfindən dərhal rəsmi bəyanatın verildiyini xatırladıb.**

**"Arzu edirəm ki, bölgədə heç bir müharibə olmasın", - deyən Prezident İlham Əliyev həm Azərbaycanın, həm də İranın vaxtilə müharibələrdən əziyyət çəkdiklərini qeyd edib.**

## "Prezidentlərin Şuşada gəzintisi qarşılıqlı etimadın bariz ifadəsidir"



**Azərbaycan və Türkmənistan prezidentlərinin Şuşada gəzintisi qarşılıqlı etimadın bariz ifadəsidir.**

Adalet.az xəbər verir ki, bu barədə Prezidentin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev "X" hesabında yazıb.

"İki qardaş ölkənin - Azərbaycan və Türkmənistan Prezidentlərinin tarixi Şuşa şəhərində birgə gəzintisi xalqlarımız arasında mövcud olan möhkəm dostluq bağlarının, ortaq mədəni irsin və qarşılıqlı etimadın bariz ifadəsi olmaqla yanaşı, strateji tərəfdaşlığımızın daha da möhkəmləndirilməsinə yönəlmiş ortaq iradəni əks etdirir", - Hikmət Hacıyev qeyd edib.

## Putin: Rusiya Ukrayna ilə danışıqlara hazırdır

**Rusiya İstanbulda əldə olunmuş razılaşmalar əsasında Ukrayna ilə sülh danışıqlarına hazırdır.**

Adalet.az Rusiya mediasına istinadən xəbər verir ki, bu barədə ölkə Prezidenti Vladimir Putin hökumət üzvləri ilə müşavirədə bildirib.

"Dəfələrlə qeyd edildiyi kimi, Rusiya Ukrayna ilə sülh danışıqlarına hazırdır. Moskva buna İstanbulda əldə olunmuş və o zaman Ukrayna nümayəndə heyəti tərəfindən paraflanmış razılaşmalar əsasında hazırdır. Deməli, hər şey onları qane edirdi", - o deyib.

Putin həmçinin bildirib ki, Moskva danışıqları təkcə İstanbul razılaşmaları əsasında aparmağa hazır deyil.

"İstanbulda əldə olunmuş razılaşmalar, Ankoricdə müzakirə edilən mexanizmlər, ən əsası isə yerdəki reallıqlar, həmçinin mənim bir neçə il əvvəl Xarici İşlər Nazirliyində çıxışım zamanı (2024-cü ilin iyununda) səsləndirdiyim prinsiplər əsasında", - o bildirib.

## Tbilisiyə getmək istəyənlərə şad xəbər



**"Yüksək tələbatı nəzərə alaraq, aktiv bilet satışı dövrünün hazırkı 30 gündən 90 günə qədər artırılması mexanizminin yaxın günlərdə tətbiqini planlaşdırırıq".**

Adalet.az xəbər verir ki, bunu "Azərbaycan Dəmir Yolları" QSC-nin (ADY) Sərnişin daşımaları departamentinin rəisi Azər Fərəcov bildirib.

"Mövcud qaydaya əsasən, xarici ölkə vətəndaşlarının Azərbaycanı quru yolla tərk etməsinə məhdudiyyət yoxdur. Lakin Azərbaycana girişə yalnız təyyarə və qatarla icazə verilir ki, bu da Gürcüstandan Azərbaycana qatar reysləri üzrə biletlərə kütləvi tələbatın yaranmasına səbəb olur. Yüksək tələbatı nəzərə alaraq, aktiv bilet satışı dövrünün hazırkı 30 gündən 90 günə qədər artırılması mexanizminin yaxın günlərdə tətbiqini planlaşdırırıq", - o qeyd edib.

Xatırladaq ki, hazırda aktiv bilet satışı 30 günlük dövrü əhatə edir. Yəni hər gün növbəti 30-cu gün üçün yeni biletlər satışa çıxarılır.

## Xüsusi karantin rejiminin müddəti uzadıldı



**Azərbaycan ərazisində xüsusi karantin rejiminin müddəti uzadılıb.**

Adalet.az xəbər verir ki, buunla bağlı Baş nazir Əli Əsədov qərar imzalayıb. Qərara əsasən, koronavirus (COVID-19) infeksiyasının ölkə ərazisində yayılmasının, onun törədə biləcəyi fəsadların qarşısının alınması məqsədilə Azərbaycan ərazisində xüsusi karantin rejiminin müddəti 2026-cı il 1 oktyabr saat 06:00-dək uzadılıb.

## QEYRİ-SƏLİS MƏNTİQİ AĞDAMLILAR KƏŞF EDİB

Baxırsan ki, üç ağdamlı mübahisə edir. Biri deyir mənim dediyim düzdür, ikincisi deyir, yox, mənim dediyim düzdür, üçüncüsü də üzünü onlara tutub deyir:

**- Sən də düz deyirsən, sən də düz deyirsən, amma məsələ heylə döyül.**

## TÜRKİYƏ DÜNYA ÇEMPİONATINDA ÖZÜNÜ «SƏBAİL» KİMİ APARDI



**Düzdür, Türkiyə bayrağının yerə sərilməyinə razı olmayıb əllərdə saxlatdılar, amma çox təəssüf ki, sinələrindəki bayrağa layiq oynamadılar.**

Dünya çempionatına vəsiqə qazana bilməyən İtaliyadan dilləri ni bilmədiyi baş məşqçi gətirəndə belə də olmalı idi.

Montella təkcə Türkiyədən yox, 300 milyonluq türklərdən üzr istəməlidir. Gərək ki, türklərdə belə bir ifadə var: "Qoyun sürüsünün başında aslan duranda qoyun sürüsü də aslana dönür. Aslanların başında qoyun duranda aslanlar da qoyuna dönür".

Rey Kərimoğlunun sözü olmasın, bunu da elə-belə yazdım...

## AY DADİ-BİDAD...



**ABŞ-İran və Rusiya-Ukrayna müharibəsi göstərdi ki, nə ABŞ, nə də Rusiya bizim fikirləşdiyimiz kimi heç də o boyda deyilmişlər.**

## 38 YAŞINDA "KLASS" GÖSTƏRƏN OĞLAN



**Dünya çempionatı göstərdi ki, XXI əsr Messi əsridi. Məktəbliyə oxşayan 38 yaşındakı bu oğlan oyunu ilə yenə hamını heyrətləndirməyi bacardı.**

Bilmirəm Argentina çempion olacaq ya, yox, amma Messi sübüt elədi ki, özü dünya futbolunun çempionudu. Göz dəyməsin.

## GÜNÜN LƏTİFƏSİ

Əliş artıq neçənci dəfədir ki, imtahan verir və pis qiymət alır. Valideynləri həyəcanla sinfin qapısında gözləyirlər ki, Əliş bu dəfə imtahandan neçə qiymət alacaq...

Nəhayət, qapı açılır, Əliş bayıra çıxır. Ana həyəcanla soruşur:

**- Nə oldu oğlum, imtahan verə bildin?**

Ata da dözə bilməyib eyni sualı verir. Əliş onları sakitləşdirmək istəyir:

**- Sakit olun, nə olub sizə, həmişə özünüz deyirsiz ki, hər şeydən vacib sağlamlıqdır.**

# İlham Əliyev Numan Kurtulmuşu qəbul etdi



**Azərbaycan Prezidenti İlham Əliyev iyunun 24-də Türkiyə Böyük Millət Məclisinin (TBMM) sədri Numan Kurtulmuşun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.**

Adalet.az xəbər verir ki, dövlət başçısı TBMM sədrinin İslam Əməkdaşlıq Təşkilatının üzvü olan dövlətlərin Parlament İttifaqı Konfransının 20-ci sessiyasında iştirakının önəminə toxunub. Gələcəkdə Azərbaycanda İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində digər tədbirlərin də keçiriləcəyini deyən Prezident İlham Əliyev İslam ölkələri arasında əlaqələri daha da genişləndirməyin əhəmiyyətini vurğuladı.

Qəbula və İslam Əməkdaşlıq Təşkilatının üzvü olan dövlətlərin Parlament İttifaqı Konfransının 20-ci sessiyasının yüksək səviyyədə təşkilinə görə minnətdarlıq edən Numan Kurtulmuş Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlət başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Prezident Rəcəb Tayyib Ərdoğana çatdırmağı xahiş edbi.

Qonaq Bakıda keçirilən tədbirin İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində tərəfdaşlığın genişləndirilməsi baxımından əhəmiyyətini vurğulayaraq, dövlətimizin başçısının tədbir iştirakçılarına ünvanlandığı müraciətin zəngin məzmunlu olduğu deyib.

Söhbət zamanı Şuşa Bəyannaməsinin əhəmiyyətinə toxunularaq, ölkələr arasında qardaşlıq və müttəfiqlik münasibətlərinin bütün istiqamətlərdə, o cümlədən parlamentlərarası sahədə uğurlu inkişafı qeyd edilib, dünyada Azərbaycan-Türkiyə birliyinin və qardaşlığının nümunəsinin olmadığı bildirildi və bu, birgə sərvətimiz kimi qiymətləndirilib. Ölkələr arasında dostluğun və qardaşlığın Cənubi Qafqaz regionunda sülh və təhlükəsizliyin təmin edilməsində mühüm amil olduğu vurğulanıb. Görüşdə qanunverici orqanlarımız arasında mövcud əməkdaşlıq və onun daha da genişləndirilməsinin perspektivləri müzakirə olunub.

## "Bu cinayətlər islamofobiyanın açıq-aydın təzahürüdür"

**Torpaqlarımızda İslam mədəni irsinə qarşı törədilmiş cinayətlər şübhəsiz ki, islamofobiyanın açıq-aydın təzahürüdür.**

Adalet.az xəbər verir ki, bu fikir Azərbaycan Prezidenti İlham Əliyevin İslam Əməkdaşlıq Təşkilatının üzvü olan dövlətlərin Parlament İttifaqı Konfransının 20-ci Sessiyasının iştirakçılarına müraciətində yer alıb. Dövlətimizin başçısı qeyd edib ki, bu gün dünyada müsəlmanlara qarşı nifrətin aşılanması, İslam mədəni irsinin hədəfə alınması və İslam dəyərlərinin təhqir olunması geniş vüsət alıb. "İslamofobiya yalnız müsəlmanlara qarşı dözümsüzlük halı deyil, qarşılıqlı anlaşmaya və dinc birgəyaşayışa təhdid yaradan təhlükəli tendensiyadır. Məyusedici haldır ki, Qərbdə bəzi siyasi dairələr, Avropa Parlamenti və Avropa Şurası Parlament Assambleyası kimi beynəlxalq təsisatlar anti-İslam əhvali-ruhiyyəsini təlqin edərək, İslamı ekstremizm və terrorizm ilə eyniləşdirməyə, dinimizə qarşı qərəzli təsəvvür yaratmağa və onu təhlükə mənbəyi kimi qələmə verməyə cəhdlər göstərir", - deyə Azərbaycan Prezidenti bildirib.

## "İslam dəyərlərinin qorunmasına Azərbaycanda həmişə böyük önəm verilib"

**Milli-mənəvi dəyərlərimizin tərkib hissəsi olan və dünyada milyardlarla insan üçün mənəvi dayaq və bələdçi rolunu oynayan İslam dəyərlərinin qorunmasına Azərbaycanda həmişə böyük önəm verilib.**

Adalet.az xəbər verir ki, bu fikir Azərbaycan Prezidenti İlham Əliyevin İslam Əməkdaşlıq Təşkilatının üzvü olan dövlətlərin Parlament İttifaqı Konfransının 20-ci Sessiyasının iştirakçılarına müraciətində yer alıb.

"Biz İslamın həmrəylik və qarşılıqlı hörmət prinsiplərinin təbliği istiqamətində müxtəlif təşəbbüslərlə çıxış edir, mütəmadi olaraq İƏT və onun qurumlarının tədbirlərinə ev sahibliyi edirik", - deyə Azərbaycan Prezidentinin müraciətində vurğulanıb.

# Sahibə Qafarova İƏTPİ-nin 20-ci sessiyasında çıxış etdi

**İyunun 24-də Bakıda İslam Əməkdaşlıq Təşkilatının üzvü olan dövlətlərin Parlament İttifaqı (İƏTPİ) Konfransının 20-ci sessiyasının açılış mərasimi olub.**

Adalet.az xəbər verir ki, mərasimdə əvvəlcə Milli Məclisin sədri Sahibə Qafarova Prezident İlham Əliyevin İƏTPİ Konfransının 20-ci sessiyasının iştirakçılarına müraciətini oxuyub.

Sonra açılış mərasimində çıxış edən Sahibə Qafarova diqqətə çatdırıb ki, Azərbaycan parlamenti İƏTPİ-nin sədrliyini öz üzərinə götürərək, İttifaqın prinsiplərinin, məqsədlərinin və ortaq dəyərlərinin inkişaf etdirilməsinə tam sədaqətlə yanaşır.

Spiker qeyd edib ki, Milli Məclisin İƏTPİ-yə sədrliyi Azərbaycanın İslam dünyası ilə həmrəyliyin və sıx əlaqələrin möhkəmləndirilməsinə olan sadiqliyini əks etdirir. Azərbaycan Prezidenti İlham Əliyevin bildirdiyi kimi, müsəlman ölkələri ilə həm ikitərəfli, həm də ortaq təşkilatlarımız çərçivəsində münasibətlərin inkişaf etdirilməsi Azərbaycanın xarici siyasətinin prioritet istiqamətlərindən biridir.

Çıxışda qeyd olunub ki, İslam Əməkdaşlıq Təşkilatı və onun üzv dövlətləri ərazilərimizin işğalı dövründə, eləcə də münaqişədən sonrakı dövrdə Azərbaycanla həmrəyliklərini həmişə ifadə ediblər. Son 30 ildə İƏT və İƏTPİ tərəfindən erməni təcavüzünü qınayan, Azərbaycanın suverenliyini və ərazi bütövlüyünü dəstəkləyən 100-dən artıq qərar və qətnamə qəbul edilib.

Sahibə Qafarova bildirib ki, Azərbaycan İslam mədəniyyətini təşviq edən və İslamın sülh və mərhəmət dini kimi həqiqi mahiyyətini nümayiş etdirən çoxsaylı tədbirlər təşkil edib və təşəbbüslər irəli sürüb.

Azərbaycanın beynəlxalq hüquqa və müvafiq BMT qətnamələrinə uyğun olaraq, Əl-Qüds Əş-Şərifin Fələstin Dövlətinin paytaxtı olmaqla, İsrail-Fələstin münaqişəsinin həlli üçün iki dövlət həllini qəti şəkildə dəstəklədiyini deyən Sahibə Qafarova vurğulayıb ki, bu mövqe ölkəmizin BMT, İslam Əməkdaşlıq Təşkilatı və Qoşulmama Hərəkatı da daxil olmaqla, beynəlxalq təşkilatlardakı



fəaliyyətində də öz əksini tapır.

Qeyd olunub ki, Milli Məclisin 2024-2026-cı illərdə Asiya Parlament Assambleyasına 2 illik sədrliyi, eləcə də Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinə davam edən sədrliyi dövründə Fələstin məsələsi həmişə gündəlikdə qalıb və yekun bəyannamələrdə və qərarlarda lazımi qaydada əks olunub.

Son illər ərzində ölkəmiz Fələstin xalqının humanitar ehtiyaclarını qarşılamaq üçün dəfələrlə humanitar və maliyyə yardımı göstərib və bu dəstəyini davam etdirəcək.

Milli Məclis sədri bildirib ki, zəngin tarixinə və mədəni irsinə, böyük təbii və insan resurslarına baxmayaraq, bu gün İslam dünyası hələ də həllini gözləyən ciddi çətinliklərlə üzləşir. Yoxsulluq, sosial və iqtisadi bərabərsizliklər, silahlı münaqişələr, humanitar böhranlar, terrorizm və ekstremizm davamlı inkişaf səylərinə ağır şəkildə təsir edir və onları məhdudlaşdırır. Bu çətinlikləri aradan qaldırmaq və potensialını tam həyata keçirmək üçün İslam dünyasının sülh, tolerantlıq, həmrəylik və ədalət kimi əbədi İslam dəyərlərinə uyğun olaraq birlik və həmrəyliyə ehtiyac duyduğunu bildirən spikerin sözlərinə görə, getdikcə daha mürəkkəb və qarşılıqlı əlaqəli olan bir dünyada müsəlman ölkələri üçün birgə fəaliyyət göstərmək, bir-birinə dəstək olmaq və ortaq məqsədlər uğrunda çalışmaq heç vaxt bu qədər vacib olmayıb.

Sahibə Qafarova diqqətə çatdırıb ki, son bir neçə gün ərzində nümayəndə heyətləri Parlament İttifaqının orqanları çərçivəsində səmərəli və məhsuldar görüşlər keçiriblər. Bu müzakirələr əməkdaşlığımızı daha da möhkəmləndirmək və ortaq çətinliklərə birgə həllər tapmaq əzmimizin paylaşıldığını nümayiş etdirir. Bu kontekstdə, 20-ci sessiyanın mövzusu - "Parlament əməkdaşlığı vasitəsilə İƏT üzvü olan dövlətlərdə dayanıqlı və inklüziv iqtisadi inkişafın təşviqi" - həm vaxtında, həm də olduqca aktualdır. Spiker bildirib ki, qarşılıqlı əməkdaşlıq vasitəsilə, həmçinin regional əlaqələri möhkəmləndirən, ticarəti asanlaşdıran və İƏT-ə üzv dövlətlər arasında davamlı iqtisadi inteqrasiyaya töhfə verən təhlükəsiz, dayanıqlı nəqliyyat, tranzit və logistika dəhlizlərinin inkişafını da dəstəkləyə bilərik.

**O, çıxışına yekun vuraraq, diqqətə çatdırıb ki, İƏT üzvü olan dövlətlərin Parlament İttifaqı parlamentlərimiz arasında ünsiyyət, əlaqələndirmə və əməkdaşlıq üçün mühüm institusional çərçivə təmin edir.**

# "Fransa XİN-in cavablarını rədd edirik"

**Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadə Fransanın Avropa və Xarici İşlər Nazirliyinin Fransa Milli Assambleyasının üzvlərinin suallarına əsassız cavablarına dair şərh verib.**

Adalet.az xəbər verir ki, bu barədə nazirlikdən məlumat verilib.

Qeyd olunub ki, Fransa Milli Assambleyasının üzvlərinin ünvanladıqları suallara cavab olaraq, "Dağlıq Qarabağdan köçürülmüş" ermənilərə dəstək, "erməni məhbusların taleyi və onların azad edilməsi", "erməni dini və mədəni irsi," "Azərbaycan-Ermənistan sülh prosesində insan hüquqları", habelə "Azərbaycanda insan hüquqları" kimi məsələlərə dair Avropa və Xarici İşlər Nazirliyinin 23 iyun tarixində Parlamentin internet səhifəsində dərc edilmiş əsassız cavablarını qətiyyətlə pisləyir və rədd edirik.

Fransa tərəfinin cavabları onun Azərbaycan-Ermənistan normallaşma prosesi ilə bağlı uzun müddətdir nümayiş etdirdiyi qərəzli yanaşmanın növbəti nümunəsidir.

Cavablarda Ermənistanın təhlükəsizliyi, "Dağlıq Qarabağdan olan ermənilər", "Azərbaycanda saxlanılan erməni əsilli şəxslər" kimi məsələlərə geniş yer ayrılsa da, Ermənistanın Azərbaycan ərazilərinin təxminən 30 il davam etmiş işğalı, bu müddətdə törədilmiş dağıntılar, bir milyondan artıq azərbaycanlının məcburi köçkün və qaçqın vəziyyətinə düşməsi, itkin düşmüş şəxslərin taleyi və Ermənistanın mina təhdidi kimi mə-



sələlərə toxunulmaması təəssüf doğurur. Fransa tərəfinin özünü sülh prosesinin tərəfdarı kimi təqdim etməsinə baxmayaraq, Ermənistanla müdafiə əməkdaşlığını xüsusi vurğulaması və EUMA missiyasının fəaliyyətini təşviq etməsi Fransanın regionda neytrallıqdan tamamilə uzaq olduğunu bir daha göstərir. Fransanın Ermənistanla hərbi əməkdaşlığı genişləndirməsi, onu silahlandırması və regionda birtərəfli siyasi mövqe sərgiləməsi sülhə xidmət etmir. Əksinə, bu cür addımlar revanşist meylləri təşviq edir və normallaşma prosesinə zərbə vurur.

"Erməni əsirləri və saxlanılan şəxslər" barədə səsləndirilən iddialar reallıqlara tamamilə ziddir. Bu məsələnin siyasi manipulyasiya predmetinə çevrilməsi və məhkəmənin qərarının sual altına alınması cəhdləri qəbuledilməzdir. Azərbaycanda saxlanılan erməni əsilli şəxslər milli qanunvericiliyə və beynəlxalq hüquqa uyğun olaraq konkret cinayət əməllərinə görə məsuliyyətə cəlb olunublar. Ermənistanla yanaşı Fransanın da 30 ilə yaxın müddətdə qayğısına qaldığı separatçı liderlər və digər erməni əsilli şəxslər müharibə cinayətləri, etnik təmizləmə, hərbi təcavüz, işgəncə və digər ağır cinayətlərə görə məhkum ediliblər və cəzalarını çəkirlər.

Ermənistanda və keçmiş işğal edilmiş ərazilərdə Azərbaycan mədəni irsinin məhv edilməsi, məscidlərin dağıdılması və vandalizmə məruz qalması faktlarını görməməzliyə vuran Fransa tərəfinin "erməni mədəni və dini irsi" ilə bağlı iddiaları şərh etməsi gülüncdür.

Qeyd edilənlərlə yanaşı, siyasətçilərin çoxsaylı korrupsiya faktları, polis zorakılığı, etirazçıların sərt şəkildə dağıdılması, jurnalistlərə qarşı təzyiqlər, miqrantların hüquqlarının pozulması və dini ayrı-seçkiliklə bağlı çoxsaylı nümunələrlə, eləcə də Fransanın dənizaşırı ərazilərində, o cümlədən Yeni Kaledoniyada baş verən zorakılıqlarla yadda qalan Fransanın Azərbaycana insan hüquqları ilə bağlı dərs verməyə çalışması təəccüb doğurur.

Fransa XİN-in cavabları bir daha göstərir ki, Paris hələ də regionun reallıqlarını qəbul etməkdə çətinlik çəkir və Cənubi Qafqazda sülhün möhkəmlənməsinə töhfə vermək əvəzinə, köhnəlmiş və birtərəfli siyasi yanaşmaları davam etdirir. Bu isə Fransanın həm regiondakı nüfuzuna, həm də etibarlı tərəfdaş imicinə ciddi zərbə vurur.



Könül Nurullayeva,
Milli Məclisin deputatı

# "Azərbaycan-Türkmənistan əməkdaşlığı regional sabitliyə xidmət edir"

**Azərbaycan-Türkmənistan münasibətləri yeni inkişaf mərhələsinə qədəm qoyur. Bu ölkənin Prezidenti Sərdar Berdiməhəmmədovun Azərbaycana dövlət səfəri, imzalanan sənədlər bunu bir daha təsdiqlədi.**

Prezident İlham Əliyevin də bəyan etdiyi kimi, Bakı-Aşqabad əlaqələri yalnız dostluq və qardaşlıq münasibətləri ilə məhdudlaşmır, həm də regional və beynəlxalq əhəmiyyət daşıyan strateji əməkdaşlıq modelinə çevrilir. Türkmənistan həm də işğaldan azad olunmuş ərazilərdə aparılan bərpa-quruculuq proseain bərpasına töhfə verir, belə ki, Qurbanqulu Berdiməhəmmədovun ötən il Füzuliyə səfəri zamanı şəhərdə məscidin tikintisi təşəbbüsü ilə çıxış etməsi və artıq bu layihənin icrasına başlanılması iki xalq arasındakı mənəvi yaxınlığın və qarşılıqlı etimadın nümunəsidir.

İşğaldan azad edilmiş ərazilərdə həyata keçirilən bərpa-quruculuq işlərinə dost ölkələrin dəstək verməsi Azərbaycanın beynəlxalq nüfuzunun göstəricisidir. Türkmənistanın bu prosesə qoşulması isə ortaq tarixə, mədəniyyətə və mənəvi dəyərlərə əsaslanan münasibətlərin real layihələrdə təzahür etdiyini nümayiş etdirir.

Azərbaycan və Türkmənistan xalqlarını bir-birinə yaxınlaşdıran əsas amillərdən biri ortaq türk kökləri və zəngin mədəni irsdir. Son illərdə qarşılıqlı Mədəniyyət Günlərinin keçirilməsi, yaradıcı kollektivlərin səfərləri və humanitar əməkdaşlığın genişləndirilməsi bu istiqamətdə mühüm nəticələr verib.

Bu ilin əvvəlində Aşqabadda və Arkadağ şəhərində keçirilən Azərbaycan Mədəniyyəti Günləri, ötən il isə Türkmənistan mədəniyyət nümayəndələrinin Bakı və Gəncəyə səfərləri iki ölkə arasında humanitar körpülərin daha da möhkəmlənməsinə xidmət edib. Bakı ilə Aşqabadın, Füzuli ilə Arkadağın qardaşlaşmış şəhərlər olması da bu münasibətlərin institusional əsaslarının gücləndirildiyini göstərir.

Türkmənistan həm də Azərbaycanın Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət Şurasına tamhüquqlu üzv kimi qəbul edilməsinə dəstək verib.

Azərbaycan coğrafi baxımdan Cənubi Qafqazda yerləşsə də, tarix, mədəniyyət, dil və iqtisadi əlaqələr baxımından Mərkəzi Asiya dövlətləri ilə sıx bağlıdır. Dövlət başçımızın da qeyd etdiyi kimi, nəqliyyat, logistika və regional inteqrasiya prosesləri artıq böyük Mərkəzi Asiya məkanının formalaşmasına şərait yaradır. Bu baxımdan Azərbaycanın həmin platformada təmsil olunması yeni geosiyasi reallığın mühüm elementidir.

Türkmənistanın bu məsələdə göstərdiyi dəstək Bakı ilə Aşqabad arasında strateji etimadın yüksək səviyyədə olduğunu nümayiş etdirir.

Azərbaycan və Türkmənistanın əməkdaşlığında nəqliyyat-logistika sahəsi xüsusi yer tutur. Xəzər dənizinin sahilində yerləşən bu ölkələr Şərqlə Qərbi birləşdirən beynəlxalq nəqliyyat marşrutlarının əsas iştirakçılarıdır.

Prezident İlham Əliyevin vurğuladığı kimi, müasir dövrdə təhlükəsiz və etibarlı nəqliyyat dəhlizləri qlobal iqtisadiyyatın ən vacib elementlərindən biridir. Azərbaycanın təşəbbüsü ilə inkişaf etdirilən Orta Dəhliz və Transxəzər marşrutları Türkmənistanın logistik imkanları ilə birlikdə Avropa və Asiya arasında yüklərin daşınmasında mühüm rol oynayır.

Ümumiyyətlə, Bakı-Aşqabad arasında strateji tərəfdaşlığın gücləndirilməsi regional sabitliyə, iqtisadi əməkdaşlığa və nəqliyyat əlaqələrinin inkişafına xidmət edir. Bu gün Azərbaycan-Türkmənistan münasibətləri həm də Türk dünyasının həmrəyliyinin, regional əməkdaşlığın və qarşılıqlı hörmətə əsaslanan tərəfdaşlığın uğurlu modeli kimi çıxış edir. Bu modelin möhkəmlənməsi isə təbii olaraq onu zəiflətmək istəyən qüvvələrin deyil, regionun sabitliyi və inkişafı naminə əməkdaşlığı dəstəkləyən ölkələrin maraqlarına cavab verir. Enerji sahəsində əməkdaşlığa gəlincə, Prezident İlham Əliyevin bəyanatında qeyd etdiyi kimi, mövcud potensial tərəflərə enerji sahəsində səylərini daha da birləşdirməyə imkan verir. Bu isə regionun enerji təhlükəsizliyinin gücləndirilməsi və beynəlxalq bazarlarda yeni imkanların yaranması baxımından mühüm əhəmiyyət daşıyır. Azərbaycanın Türkmənistanın beynəlxalq təşəbbüslərini, xüsusilə neytrallıq siyasətini ardıcıl şəkildə dəstəkləməsi iki ölkə arasındakı münasibətlərin mühüm xüsusiyyətlərindən biridir. Prezident İlham Əliyevin vurğuladığı kimi, Türkmənistanın beynəlxalq nüfuzunun artması, sosial-iqtisadi inkişaf sahəsində əldə etdiyi nailiyyətlər Azərbaycanda böyük məmnunluqla qarşılanır.

**Bu yanaşma göstərir ki, Bakı və Aşqabad həm də beynəlxalq platformalarda bir-birini dəstəkləyən etibarlı tərəfdaşlardır.**

Rüstəm Hacıyev



# Avropa Rusiya ilə müharibəyə hazırlaşır

**"Beynəlxalq arenada NATO və Avropa İttifaqının apardığı siyasətə nəzər salsaq, görərik ki, məqsəd Rusiyanı strateji cəhətdən məğlubiyyətə düçar etməkdir"-deyə Rusiya XİN rəhbərinin müavini Aleksandr Qluşko "İzvestiya" qəzetinə müsahibəsində bəyan edib.**

**Qluşko daha sonra əlavə edib ki, Avropa 2030-cu ilə qədər Rusiya ilə real müharibə etməyə hazırlaşır.**

**Almaniya hərbi qüvvələrinin quru qoşunlarının rəhbəri general-leytenant Krustian Froydinq bildirib ki, NATO-ya üzv 32 ölkənin kəşfiyyat məlumatlarına görə, müttəfiqlər 2038- ci ilədək tam olaraq Rusiya ilə müharibəyə hazır olmalıdırlar.**

**Avropa İttifaqı və NATO rəhbərləri intensiv şəkildə hərbi xərclərin artırılması planlarını razılaşdırırlar. Böyük Britaniya dörd ildən sonra Rusiya ilə qarşıdurmaya hazırlıqla bağlı hərbi xərcləri 2.5-3 faiz artırmağı qərara alıb.**

**Əvvəldən də məlum olduğu kimi, Qərb hələlik taran (bəlkə də, qurban) kimi Ukraynanı qabağa verib. Qərbin müxtəlif fondları on illərdi Ukraynanın hərbi gücünün artırılması üçün maliyyə dəstəyi göstərir.**

**Qərbin apardığı oyuna gedən Rusiya, Ukraynanı bir neçə həftəyə məğlub edəcəyinə inanıb, dörd ildən çoxdur ki, özünü çıxılmaz bir vəziyyətə salıb. İndi nə müharibəni bitirə bilmir, nə də geri addım atmağı özünə rəva bilmir. Ukrayna silahlı qüvvələri Avropa və ABŞ-ın fasiləsuz olaraq göstərdiyi həbi dəstəyi ilə, faktiki olaraq, Avropanın ən gücü ordularından birinə çevrilib.**

**Avropa İttifaqının Rusiyaya qarşı tədbiq etdiyi sərt iqtisadi sanksiyalar, Moskvaya hər hansı bir səviyyədə danışıqlar aparmağa da mane olur. ABŞ prezidenti Donald Trampın münaqişənin danışıqlar yolu ilə həlli istiqamətində atdığı addımlarda heç bir nəticə vermir.**

**Bu isə, onu göstərir ki, Avropa və Rusiya arasında gözlənilən böyük müharibə qaçılmaz olacaq...**

# "Kreml Çinin Rusiyaya kifayət qədər dəstək verməməsindən narazıdır"

**"Rusiya Prezidenti Vladimir Putin heç nə olmamış kimi, ölkə ərazisində beynəlxalq forumlar keçirməyə və bu tədbirlərdə əməkdaşlıq barədə nitqlər söyləməyə davam edir. Halbuki, işğalçı müharibə aparan Rusiya ilə əməkdaşlıq imkanları geniş deyil. Növbəti forum iyunun 17-19 tarixində Tatarıstan paytaxtı Kazanda keçirilib. Bu dəfə Rusiyada ASEAN sammiti (Cənub-Şərqi Asiya Ölkələri Assosiasiyası) təşkil olunub. Sammitdə Bruney, Vyetnam, İndoneziya, Kamboca, Laos, Malayziya, Myanma, Sinqapur, Tailand, Filippin, Şərqi Timor kimi ölkələrin rəsmiləri iştirak edib. Sammit keçirilərkən, Ukrayna dronları Moskvda yanacaq mərkəzlərinə zərbələr endirirdi".**

Adalet.az xəbər verir ki, bunu politoloq Elxan Şahinoğlu deyib.

O, bildirib ki, Putin sammitdəki çıxışında müharibə mövzusuna toxunmayıb:

"Rusiya Prezidenti Ukrayna dronlarının zərbələrini və ilhaq olunan Krımın yanacaq böhranı ilə üzləşməsini görməzlikdən gəlir.Vladimir Putin sammitdən əvvəl Kazanda Türkiyənin xarici işlər naziri Hakan Fidanla görüşüb. Hakan Fidan Vladimir Putinlə görüşdən bir gün əvvəl rusiyalı həmkarı Sergey Lavrovla Moskvada müxtəlif mövzuları müzakirə edib. Hakan Fidan Lavrovla yanaşı Rusiya Təhlükəsizlik Şurasının katibi Sergey Şoyqu ilə də danışıqlar aparıb. Sankt-



Peterburqda və Kazanda keçirilən forumlar Ukraynaya qarşı işğalçı müharibə aparan Rusiyanın beynəlxalq aləmdən tam izolyasiya olunmamasına dəlalət etməlidir. Kremlin məqsədi budur. Putin Kazandan əvvəl Sankt-Peterburqda keçirilən iqtisadi forumda iştirak etmişdi. Sankt-Peterburqda forum keçirilərkən Ukrayna dronları bu şəhərin yanacaq mərkəzlərinə zərbələr endirirdi. Putin Kazanda keçirilən forum çərçivəsində Asiya ölkələrinin bir neçə lideri ilə görüşüb. Rusiya Prezidenti Kazan forumunda ASEAN-a daxil olan ölkələrin aparıcı biznes nümayəndələrinin iştirakını da fəxrlə bildirib.Kazandakı sammit Pekinin diqqətini çəkib. Sammitdə Filippin Prezidenti Ferdinand Markos da iştirak edib və o Putinlə ikitərəfli görüş keçirib".

Politoloqun sözlərinə görə, Pekin Filippin Prezidentinin Kazana səfərindən və Putinlə görüşündən narahat olub:

"Çünki, Çinlə Filippin arasında münasibətlər gərgindir. Çin və Filippin arasındakı münasibətlər Cənubi Çin dənizindəki qarşıdurma səbəbindən gərginləşib. Çinlə Filippinin hərbi gəmiləri arasında tez-tez atışmalar olur. Təsadüfi deyil ki, Çin Filippinin müdafiə nazirinə qarşı sanksiya tətbiq edib. Nazir və onun ailə üzvlərinin Çin Respublikasına girişi qadağan olunub.

Münasibətləri gərginləşdirən digər amil Çinin dənizdə Filippin sahillərinə yaxın sularda mobil platformalar yerləşdirməsidir. Filippin hesab edir ki, Çin mobil platformalar vasitəsilə Cənubi Çin dənizində süni adalar yaratmağa çalışır.

Vladimir Putinin Filippin Prezidenti ilə görüşü və onunla müzakirə aparması Moskvanın Pekinə ismarıcı kimi qiymətləndirilə bilər. Moskva Pekinin strateji tərəfdaş sayılsa da, Kreml Çinin Ukrayna müharibəsi fonunda Rusiyaya kifayət qədər dəstək verməməsindən narazıdır.

Digər tərəfdən Çin Rusiyadan neft və qaz alışını şaxələndirir və enerji daşıyıcılarını ucuz qiymətə alır. Bu amil də Kremlin xoşuna gəlmir. Digət tərəfdən Kreml Pekinin Brüssel və Vaşinqtonla artan dialoqunu narahatlıqla izləyir. Belə olan halda Kreml də Pekinin regional rəqibləri ilə dialoqu genişləndirməyə qərar verib".

**Vasif**

# "Trampla bağlı Empşteyn sənədlərinin yenidən gündəmə gətirilməsi istisna deyil"

**"ABŞ və İran prezidentləri arasında imzalanmış memorandumun həyata keçirilməsinə İsrailin Baş naziri B.Netanyahu və yəhudi lobbisinin mane olmağa çalışır. İsrailin yenidən Livanın cənubuna hücumu İranın Hörmüz boğazını bağlamaq qərarına gətirib çıxardı. İran artıq Hörmüz boğazının bağlandığını elan edib".**

Adalet.az xəbər verir ki, bunu politoloq Məhəmməd Əsədullazadə deyib.

"İsrailin Baş naziri işğal edilmiş əraziləri qədim tarixi torpaqlara qayıdış kimi təqdim edib. B.Netanyahu ABŞ və İran arasında əldə olunmuş razılaşmanın onun siyasi və şəxsi gələcəyini sual altına qoya biləcəyindən narahatdır. ABŞ və İran arasında razılaşmanın əldə edilməsi, eləcə də Hizbullahın və HƏMAS-ın mövcudluğunu qoruması B.Netanyahuya qarşı ciddi ittihamların irəli sürülməsinə səbəb ola bilər. İsrailin bütün qonşuları ilə qarşıdurma vəziyyətində olması ölkənin təhlükəsizliyinin təmin olunmasına xidmət etmir. B. Netanyahu öz siyasi taleyini nəzərə alaraq müharibənin davam etməsində maraqlı görünür. ABŞ-nin İsrailə qarşı daha sərt mövqe nümayiş etdirəcəyi mümkündür. D.Trampla bağlı Empşteyn sənədlərinin yenidən gündəmə gətirilməsi istisna deyil. B.Netanyahu və onun komandası hazırda mürəkkəb siyasi vəziyyətlə üz-üzədir", - deyə o, bildirib.

**Vasif ƏLİHÜSEYN**

# ABŞ nümayəndələri Moskvaya gələ bilərlər



**RF prezidentinin köməkçisi Yuri Uşakov jurnalustlərə bildirib ki, Moskvanın Vaşinqtonla əlaqələri davam etdirməklə bağlı düşüncələri var. Hər iki ölkənin prezidentləri əlaqələrin davam etdirilməsini istəyirlər.**

Uşakov, Trampın xüsusi elçisi Stiven Uitkoffun və işadamı Cerald Kuşnerin Moskvaya səfərinin vaxtının hı dəqiqləşdirilmədiyini bidirib. Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskovda belə bir görüşün baş tutacağını, lakin dəqiq tarixin hələ razılaşdırılmadığını bildirib.

**Rüstəm HACIYEV**

# GÖYLƏRDƏN GƏLƏN ÇAY – GÖY ÇAY

## (Göyçay şəhərindən özəl reportaj)




...Böyük Qafqazın ən uca zirvələrindən , elə bil ki , bu zirvələrdən də uzaqlardan - sanki göy üzündən axıb gələn gözəl Göy Çay! Çayların , düzənlərin yaşı bilinməz də. Elə sənin yaşın kimi



: on min,yüz min, milyon il ... Beləcə axıb gəlirsən ən qədim bir nağıl kimi, əfsanə kimi! Dağlardan aşağı meşəliklər, o gözəlliklər ki var , dağlardan aşağı bu barlı-bərəkətli düzənliklər ki var, sənin sevgin, məhəbbətinlə yaşayırlar min illərdir beləcə .Sən ey Göy Çayım! Bu dağlara,bu meşələrə, bu düzlərə nəğmələr oxuyan , mahnılar qoşan , şeirlər yazan, şirin-şirin nağıllar danışan ANA çayım! Şeir demiş, sənin də vüqarına , gözəlliyinə , doğmalığına çoxlu şeirlər yazılıb. Mənə qalsa, mən səni Ana Kürlə qovuşana qədər keçdiyin yerləri canlandıran , bəzəyən sularına şeir kimi sevgi məktubu yazmışam illər öncə . Mənim doğma şəhərim Göyçay da sənin əsərindir. Adından ad almış bu gözəl məkan sənə həmişə aşiq olub , səni başına dolanan doğmaca anası bilib. Səni o böyük şairimiz də gör necə vəsf edib, bilirsənmi? Azərbaycanın



ən böyük şairlərindən birini , elə səni dəlicəsinə sevən Əli Kərimini deyirəm.

*... Bu Göy çaydır, oğlanlarım,*
*göy dalğalı*
*Bax o dağlar başındakı*
*Mavi göydən axıb gəlir.*
*Çox çimmişəm bu çayda mən,*
*sizinlə də gəlin çimim.*
*Tökülüşdük suya bir-bir,*
*Uşaq etdi sular məni.*
*O ki vardı batdım , çıxdım .*
*Övladlarım yaşındaydım,*
*onlar uşaq, mən uşaqdım.*
*...Bilmədilər çimdikləri*
*Bu suya baş vuran kimi*
*"Batıb getdi"ataları ,*
*Biz çimdik bir xasiyyətli*
*Bir yaşlı qardaş kimi .*
*Mən dəymədim heç xətrə də,*
*Bəs deyincə çimdik belə.*
*Onlar bu saf göy sularda,*
*Mənsə uzaq xatirədə .*

...Sənin doğma balan kimi başına dolandığın bu şəhər mənim ilk sevgimdir- mən də onun balasıyam, onun övladıyam, sirli-sehirli , göy sulu Göy çayım. Sənin sahilindən ayrılıb indi də onunla qol-boyunam. İşıqlanan səhər nəğməli quşları ilə günəşə, dünyaya,insanlara,ağaclara, gül-çiçəklərə xoş ovqat bəxş edir. Mənsə bu gözəlliyə, bu təmtəraqa böyük sevinclə qoşulub , şəhərimi başdan-başa gəzib dolaşmaqdayam.

Günaydın, doğma şəhərim, sirli-sehirli şəhərim, gözəl şəhərim! Bu Vətənin, Azərbaycanımın hər qarışı mənə doğma və əzizdir.Ancaq mən səni hələ uşaqlıq illərindən adamlarınla,ağaclarınla, qədimliyin və müasirliyinlə, park və bağlarınla, geniş, səliqəli küçələrinlə... dəlicəsinə sevmişəm.Sən mənim ilk sevgimsən, sevgili Göyçayım!

Gəl bu gül-çiçəkli gözəl günündə yenidən qol-boyun olaq, 40 -45 il bundan əvvəlki kimi, 30-35 il bundan əvvəlki kimi... Bir-birinə paralel,eyni zamanda həmin paralellərlə kəsişən yaraşıqlı küçələrini tək-tənha gəzib -dolaşmaq necə də gözəldir,şirindir. Hardasa izdiham,hardasa sakitlik,hardasa tıxaclar, hardasa əzəmət, ucalıq... Başı göylərə ucalan xan çinarların sənin gözəlliyini lap uzaqlardan nişan verir.Açıq səmada Kiçik Qafqaz dağlarının buralardan görünən bəyaz zirvələri kimi.

Bəs o Sabir bağının dendrariyə bənzəyən yaşıllıqları hanı? Axı şəhərin tam mərkəzində qeyri-adi təbiiliyi , həm də qovaq,küknar, "rus balı" , qoz, sərv ağacları ilə görənləri heyran edən simvollarından biri idi bu qədim parkın! İndi bəs mən nə edim? O vaxtlar gücüm çatmadı



arxalı, pullu namərdlərə. Səni nə yaman sıxışdırıb ucuz ticarətə bürüyüblər şəhərimin gözəl alabəzəyi!

Onsuz da bu izdihamda məni heç kim görmür də. Kimdir saf məhəbbətə, saf duyğulara, dahiyanə nostalijyə məhəl qoyan. Varsa da




indi mənimlə birlikdə deyil. Gedim kəsilmiş bir telli qovağın, ya bəlkə də bu günlərimiz üçün şəhər aurasına ekzotik təsirli qoz ağacının yerində "bitim" ; ağac olum, budaq olum,yarpaq olum, qaranquşun dimdiyindəki su olum bəlkə.Yoxsa kövrəltdim səni,gözəlim , mən ki sənin doğmaca oğlunam,əziz şəhərim.

Eh, yenə assosiasiya dalğaları ... Rəsul Rza, Əli Kərim... Bu da bax eləcə Nazim Hikmət! "Ben bir ceviz ağacıyım, Gülhane parkında..."

Yox, bütün nostalji duyğuları buraxıb da bu günləri yaşamaq gərəkdir.Heydər parkı var , Əli Kərim parkı var, neçə-neçə yeni salınmış bağlar, çiçəkliklər var. Küçələrin,meydanların, müasir tikililərin, əsl şəhər gözəlliyin göz qamaşdırır.Xan çinarların bu inkişafı , bu yüksəlişi seyr edincə daha da qürurlanır, sakinlərinə daha böyük şövqlə sevgi və sərinlik paylayırlar sanki.

Gözəl şəhərim, sənin bugünki inkişafının , gözəlliyinin sorağı artıq çox uzaqlara yayılmaqdadır. Həm də hər bir küçəsi, hər bir guşəsi inanılmaz səliqə və təmizlik nümunəsi kimi Göyçay birincidir deyirlər. Sözün hər iki mənasında .

Rayon rəhbərliyinin çox ciddi nəzarətdə saxladığı işgüzarlıq və hər bir sakinin ,müxtəlif vəzifələrdə çalışan insanların fəaliyyət effektivliyi şəhər yaşamının ən optimal həyat tərzinə çevrilmişdir. Göyçay Rayon İcra Hakimiyyətinin başçısı Orxan Mürsəlov həqiqətən yorulmaq bilməyən çox təmkinli və səmimi rəhbərdir.

Sakinlər onu təkcə bu keyfiyyətlərinə görə sevmirlər. Hamı elə bilir ki , başçı onun yaxın dostu, sirdaşıdır, elə o da doğma Göyçayın övladıdır. Bu sözləri mən , ən qəliz xarakterə malik və eyni zamanda həmişə təftişçiliyə meyilli sakinlərdən də eşitmişəm.

**Şəhərim, bax belə gözəl məqamlara görədir ki, sənin on illərlə uzaqlarda qalan bəzi ağrıların da artıq kompensasiya vəziyyətindədir və unudulmaqdadır.İndi biz səninlə daha işıqlı, daha gözəl səhərlərə,günlərə doğruyuq. Biz səni həmişə yaraşıqlı və vüqarlı görəcəyik!**

**Məzahir ƏHMƏDOĞLU**

# Bu il Azərbaycan nə qədər qızıl ixrac edib?

**"Bu ilin ilk 4 ayında Azərbaycanın ümumi ixracatı 12 milyard 535 milyon dollar olub ki, onun da 4 milyard 698 milyon dolları qeyri neft-qaz məhsullarının payına düşüb. Xarici ticarət dövriyyəsində diqqəti çəkən məqam qeyri neft-qaz ixracatının 4.4 dəfə artmasıdır".**

Adalet.az xəbər verir ki, bunu iqtisadçı deputat Vüqar Bayramov deyib. O bildirib ki, bu ilin 4 aylıq qeyri neft-qaz ixracatı əvvəlki ilin ümumi göstəricisindən 30 faiz çoxdur.

"Bu ilin ilk 4 ayına qeyri-neft-qaz ixracatındakı 4.4 dəfəlik artım işlənməmiş, yaxud yarıişlənmiş və eləcə də toz şəkilində qızıl ixracatı ilə bağlıdır. Belə ki, əvvəlki ilin eyni dövrü ilə müqayisədə sözügedən növ qızıl ixracatı real ifadədə 18, cari qiymətlər ilə isə 37 dəfə artıb. Həmin dövrdə Azərbaycan 3 milyard 599 milyon dollarlıq qızıl ixrac



edib. Faiz deyil, dəfə ilə ifadə olunan digər artım şəkər ilə bağlıdır. İxracatı 4.2 dəfə artan şəkər ölkəyə 37.5 milyon dollar valyuta gətirib. 2.6 dəfə artım qeydə alınan pambıq ipliyinin ixrac dəyəri 16.4 milyon dollar olub.

Kartof ixracatı sözügedən dövrdə 2.1 dəfə artıb. Bu məhsul ölkəyə 4 milyon dollara yaxın valyuta gətirib. Bütövlükdə, qızıldan sonra qeyri neft-qaz sektorunda ölkəyə ən çox valyutanı təzə meyvə məhsulları gətirib: 165.1 milyon dollar. Üçlüyü 92.7 milyon dollar ilə pambıq lifi tamamlayıb.

Qeyri neft-qaz ixracatındakı artımlar iqtisadiyyatın daha da şaxələndirilməsi üçün vacib faktorlardandır.

Son artımlar ilə yanaşı, təbii ehtiyata əsaslanmayan qeyri neft-qaz məhsullarının ixracatının təşviqi prioritet olaraq qalmaqdadır".

## *"Şişirdilmiş başlıqlarla süni ajiotaj yaratmaq qəbuledilməzdir"*




**Bəzi media subyektləri öz səhifələrində və sosial şəbəkələrdə Dövlət İmtahan Mərkəzinin "Abituriyent" jurnalının 12-ci nömrəsində dərc olunmuş 2025/2026-cı tədris ili üzrə tələbə qəbulu və ümumi təhsil müəssisələrinin buraxılış imtahanlarının nəticələrinə dair elmi-statistik məlumatları manipulyasiya olunmuş formada təqdim edib.**

Adalet.az xəbər verir ki, bu barədə Medianın İnkişafı Agentliyi (MEDİA) məlumat yayıb. Qeyd edilib ki, bəzi media resurslarında "Təcili: Azərbaycanda 200 tələbə vəfat etdi", "Şok: Azərbaycanda 200 tələbə vəfat edib" kimi şişirdilmiş başlıqlardan istifadə edilməsi cəmiyyətdə süni ajiotaj yaratmaq cəhdi kimi qəbuledilməzdir. Media subyektlərini məlumat yayarkən "Media haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə, habelə peşəkar jurnalistika prinsiplərinə ciddi şəkildə riayət etməyə çağırırıq. Xüsusilə statistik məlumatların şərhi zamanı onların mənbəyi, metodologiyası və konteksti düzgün izah edilməlidir.

Bir daha xatırladırıq ki, ictimai əhəmiyyət daşıyan mövzuların işıqlandırılması zamanı məsuliyyətli və peşəkar yanaşma media subyektlərinin əsas vəzifələrindən biridir.

## *KDR-də Ebola epidemiyası*

**Konqo Demokratik Respublikasında (KDR) Ebola ilə bağlı vəziyyət ağır olaraq qalır. Təsdiqlənmiş yoluxma hallarının sayı 956-ya, ölüm sayı isə 247-yə çatıb.**

KDR Səhiyyə Nazirliyinin məlumatına görə, hazırkı epidemiyanın əsas mərkəzi olan İturi əyalətində son 24 saat ərzində 23 yeni yoluxma və 2 ölüm qeydə alınıb. Xəstəxanalarda 391 xəstə müalicə alır, 92 nəfər isə sağalaraq evə buraxılıb. Ümumilikdə İturi bölgəsində 874 yoluxma və 201 ölüm faktı təsdiqlənib ki, bu da ölkə üzrə ümumi göstəricinin 91%-ni təşkil edir. Nazirlik həmçinin bildirib ki, təmasların izlənməsi 69,3% səviyyəsindədir. Ümumdünya Səhiyyə Təşkilatı isə bu göstəricinin ən azı 95%-ə çatdırılmasını tövsiyə edir.

**Seyfəddin Altaylı**

# İKİNCİ KARABAĞ ZİYARETİMİZ



**Karabağ Milletvekili, gazeteci, yazar kardeşim Aqil Abbas Bey'e Karabağ'ı ziyaret etmek istediğimi bildirmiştim. O da sağ olsun, benim için müsait olan bir zamanı seçti ve bu ayın 2. günü saat 11 sularında evlerine varıp muhterem eşleri İrade Tuncay kardeşimiz ve eşim Fatma Hanım'la Bakü'den çıkarak Ağcabedi vilayetine yollandık. Aqil Abbas Bey ile takriben on yıl kadar önce de buraya gelmiştik. O zaman yapılan etkinlikte güzel bir akşam geçirmiş ve bölge gençlerinin muhteşem ifalarını dinlemiştik.**

Ağcabedi valisi Rafil Bey bizler için çok güzel konukseverlik örneği göstermişti. Kendileri ile güzel bir akşam geçirip sohbet ettik ve ünlü Azerbaycan şairi İzzeddin Hasanoğlu'nun Finlandiya'dan bulduğumuz ve hazırladığım "Kitab-ı Siretü'n Nebi" adlı eseri kendisine takdim ettim.

1988 yılında Azerbaycan'a geldiğimizde merhum Prof. Dr. Feremez Maksudov bizleri Karabağ'a getirmiş, Ağdam, Esgeran, Şuşa ve Hankendi'ni görmüştük. Ağcabedi'den Şuşa'ya doğru hareket ederken çok garip duygular içinde idim. Ağdam'dan geçecektik, buraya 1988 ve 1992 yıllarında gelmiştim. Son gelişimde halk şehri terk etmişti, yalnızca askerler vardı. Hocalı Soykırımı sebebiyle başkanı olduğum Azerbaycan'ı Tanıtma Derneği vasıtasıyla ilaç ve tıbbi malzeme kampanyası başlatmış ve hatırı sayılır nitelikteki malzemeyi Nahçıvan üzerinden Bakü'ye götürmüştüm. Merhum Elçibey bana bir helikopter tahsis etmiş ve askerler için hazırlattığım ilaç ve tıbbi malzemeleri Ağdam'a götürmüştüm. Bir gece iki gün orada kalmış, bölge komutanı Allahverdi Bey ve Katır Memmed lakaplı Yakup Rızayev, askerler, subaylar ve yaralı askerler ile sahra hastanesinde görüşüp röportaj yaparak dönüşte Türkiye'nin Sesi Radyosu'nda yayımlamıştım.

Yakup Rızayev o dönemde "Qarabağ Şahinleri" adlı bir gönüllüler grubu oluşturmuş ve Ermnilere kan kusturmuşlar ve grubunun kahramanlığı ülke sathında ün yapmıştı. Milliyetçi ve vatanperver gençleri grubuna toplayan Yakup Bey Ağdam şehrinin korunması ile birlikte Ermenilerin yaşadığı Esgeran, Hramort, Nahçıvanik, Pircamal, Aranzemin, Dehrez ve Ferruh köylerinin Ermenilerden temizlenmesinde büyük kahramanlıklar göstermiş 1992 yılı şubat ayının 26 gecesi Rusların desteği ile Ermenilerin gerçekleştirdiği Hocalı Soykırımı esnasında kahraman savaşçıları Askeran bölgesinden kurtulmaya çalışan Hocalıları takip ederek Ermenilerden yüzlercesini cehenneme yollamıştı. Aynı gün yapılan çarpışmada Yakup Rızayev'in oğlu Canpolat da şehit olmuş ve Yakub Bey'e oğlunun şehit olduğunu bildirdiklerinde "Burada şehit olanların hepsi benim oğlumdur" demiş ve kurtulmaya çalışan en sonuncu Hocalıyı kurtarana kadar çarpışmayı durdurmamıştı. 1992 yılı kasım ayının 24. günü toplantı vardır diye kendisini Bakü'ye çağırmış ve hapsetmiştir 1993 yılı temmuz ayının 16. günü Yakup Rızayev hapisanede gizemli bir biçimde vefat etmişti. Oğlu Canpolat daha sonra "Azerbaycan Mill? Kahramanı" ilan edilmiş ve oğlu ile birlikte Ağdam Şehitler Hıyabanı'nda defnedilmişti. Bütün bunlar beynimde fırdolayı dönüyor ve beni sarsıyordu, ancak arabadakilere durumumu bildirmemek için kendimle mücadele ediyordum.

Bu duygular içinde 3. 6. 2026 günü Ağcabedi'den hareket ettik ve Ağdam'a varsak da durmayıp Şuşa'ya yollandık. O güzelim Türk şehri Ağdam çağın vandalları tarafından harabeye döndürülmüştü. Ağdam'ı geride bırakıp güzeller güzeli Şuşa'ya varıp Karabağ Otele indik.

Şuşa Ermenilerden temizlendiği zaman salgın vardı ve Bakü Avrasya Üniversitesi'ndeki öğrencilerime Ankara'dan internet hattı ile ders veriyordum. Bir gün Gence'de yaşayan dostum Nasreddin İsmailov aradı ve telefonu açar açmaz, "Qardaş gözümüz aydın Şuşa'yı aldık" deyince kendimi neredeyse kaybedecektim. Sevinçten hıçkıra hıçkıra ağlamaya başladım ve telefonu eşime vererek konuşmasını istedim. Biraz sakinleştikten sonra yüzümü göklere çevirip "Tanrım nasip et. Şuşa'ya gidecek, Cuma Camisi'nde iki rek?t şükür namazı kılacağım ve bir kurban kesecek, ancak etinden tek lokma bile yemeyeceğim" diyerek dua ettim.

Aqil Bey her zamanki gibi alicenaplık örneği göstererek her şeyi ayarlamıştı. Araba beni çok yormuştu, çünkü Ağcabedi Ağdam arası stailize idi ve 20-25 km sürat yapabiliyordum. Öncelik Karabağ'da Ermeniler tarafından yerle bir edilmiş şehir ve köylerin imarına verildiğinden dolayı anılan yola şimdilik kaydıyla dikkat edilmiyordu, zaten yol pek işlek de değildi. Akşam yemeğinden sonra çıkıp uyuduk. Sabah uyanır uyanmaz eşime Cuma Camisi'nde şükür namazı kılacağımı söyledim ve abdest alarak lobiye indim. Otelin yanında güzel bir cami vardı, ancak iletişim masasındaki genç caminin şimdilik kapalı olduğunu ve "Otelden çıkıp bitişikteki parkın içinden sağa dönerek birkaç yüz metre sonra bir cami var o açıktır, oraya git" dedi. 1988 yılında buraya geldiğimizde Cuma Camisi'ni ziyaret etmiştim, o zaman Sovyet dönemi idi ve cami ambar olarak kullanılıyordu. Parkı geçince 1988 yılındaki anıların gözümün önünde canlandı.

O vakitler Ermeniler gemi azıya almış ve Azerbaycan Türklerine karşı soykırım uygulayacaklarının sinyalini veriyordu. Azerbaycan Halk Cephesi'nin Şuşa bölgesi başkanı Bakü'den gelen birkaç görevliye yana yakıla dert yanıyor ve Ermenilerin Rusların desteğini alarak kendilerini her gün taciz ettiklerini ve şehirdeki Türkleri göçe zorlamak için her türlü oyunu icra ettiklerini söylüyordu. Sonraları bu kardeşimizin şehit edildiğini haber almış ve çok üzülmüştüm. Bu duygularla camiye yaklaştım ve kapısını açıp içeri girdim. Aman Tanrım, 1988 yılında ziyaret ettiğim cami idi. Gözlerim dolu dolu oldu ve başımı kaldırıp Tanrıma şükrettim. Neyi niyet etmişsem karşıma çıkarmıştı. Geçip huşu içinde iki rek?t şükür namazını kıldım ve Ulu Tanrıma gönülden hamdüsenalar ettim, eşim, çocuklarım, milletim ve devletlerimiz için dua ettim. Otele döndüğümde olup biteni eşime anlattım, o da niyetimin kabul olmasına çok sevindi.

Aqil Bey ve İrade Hanım geldiler kahvaltı yapıp Şuşa'yı gezmeğe başladık. Neredeyse her sokağına uğradık, sonra da Cıdır Düzü denilen yere vardık. Şehir Ermenilerin elinde iken Paşinyan burada halay çekmişti.

Azerbaycan ordusunun Mehmetçikleri Cıdır Düzü'nün aşağısındaki dereyi geçerek uçurumdan panterlere yakışır biçimde tırmanarak buraya çıkmış ve Ermenileri gafil avlayarak analarını ağlatmış, Şuşa'yı kurtarmıştı. Devlet Başkanı Sayın İlham Aliyev'in Şuşa'nın alınmasından sonra "Ne oldu Paşinyan Cıdır Düzü'nde yallı gedirdin ve deyirdin Bakı'nı da alacayıq, ne oldu Paşinyan?" şeklindeki ifadeleri adeta herkesin dilinde dövize çevrilmişti. Burayı ziyaret edip İsa Bulağı'na gittik. 1988 yılında hem Cıdır Düzü'ne hem de buraya gelmiştik, ancak o zamanki gördüğüm İsa Bulağı değildi, son derece güzel dizayn edilmiş ve gelin gibi süslenmişti. Gidecek o kadar yer vardı ki, mecburen ayrılmak durumunda kaldık, ancak pınardan buz gibi su alıp içtim ve şişemi doldurup yola koyulduk. Molla Penah Vakıf'ın makberini ziyaret ederek Üzeyir Hacıbeyli, Bülbül ve Natevan'ın büstlerinin olduğu parka gittik.

Ermeniler Şuşa'yı işgal ettikten sonra bu büstleri kurşun yağmuruna tutmuş ve sökerek Gürcistan'da metal niyetine satmışlardı. Merhum Devlet Başkanı Haydar Aliyev durumu haber almış ve onları satın aldırarak Azerbaycan'a getirtmişti. Şuşa alındıktan sonra da son derece güzel dizayn edilmiş parka yerleştirmişlerdi. Hepsinin fotoğraflarını çektim.

Akşam bir yemekhanede yemeğimizi yedik ve otele döndük. Ertesi gün kahvaltıdan sonra Hankendi'ne gittik. 1988 yılında da buraya gelmiştik, ancak o zaman şehir Ermenilerin elinde idi ve tam anlamıyla kudurmuşlardı.

Doğrusunu söylemek gerekirse artık 1988 yılındaki Hankendi yoktu. Azerbaycan yönetimi tam anlamıyla pırlanta gibi bir şehir yaratmıştı. Karabağa Üniversitesi şehrin tam ortasında idi, Aqil Bey biraz rahatsız olduğundan dolayı üniversiteye uğrayamadık, ancak şehrin her tarafını sokak sokak gezdik. Şehrin doğusunda bir Ermeni anıtı kalmıştı, çıkıp fotoğrafını çektim. Tek tük Ermenilerden kalan binalar göze çarpıyordu ve bunlar Ermeni kültürüne has mimari yapıda idi. Çok şükür topraklarımız onların murdar, şoven ve soykırımcı ayaklarından temizlendi.

Aqil Bey daha önce geldiği bir yemekhaneye bizi götürdü. Son derece güzel ve çağdaş anlamda dizayn edilmiş bir yerdi. Azerbaycan Türklerinin "qutab" dediği kete yiyip çay içerek dinlendik ve kalkıp tekrar Şuşa'ya döndük. Akşama Aqil Bey'in dostu ve "Adalet Gazetesi"nin temsilcisi Kerim Kerimli Bey geldiler. Onu da alarak dünkü restorana gittik ve Aqil Bey'in çektiği güzel bir ziyafet sonrası otele döndük.

Ertesi gün kahvaltı yapıp Hankendi yoluyla Askeran'a indik, Askeran Kalesi'nin fotoğrafını çektim ve orayı da gezip arabaya binince "Aqil Bey mutlaka Hocalı kasabasını görmek istiyorum, yolunu bana söyle" deyince baş üstüne dedi ve biraz sonra Hocalı'ya vardık. Kimseye bildirmedim, ancak çok kötü oldum. 1992 yılında Hocalı Soykırımı olduğunda Azerbaycan'ı Tanıtma Derneği başkanı olarak Türkiye genelinde ilaç kampanyası başlatmış topladığım ilaç ve tıbbi malzemeyi Azerbaycan'a getirdiğimde ülkede 45 gün kadar kalmış, merhum yazar kardeşim Mevlüt Süleymanlı'nın arabası ile Hocalı kaçkınlar nerelerde var ise gidip hepsini bulup röportajlar yapmış ve Türkiye'nin Sesi Radyosu'nda yayımlatmıştım. Hocalı caddelerini gezdiğimde o röportajları yaparken karşılaştığım insanların anlattıkları kulaklarımda çınlıyordu. Şehir Ermeniler tarafından diğerleri gibi darmadağın edilmişti. Tanrım tekrar böylesi acılar göstermesin.

Azerbaycan yönetimi her Hocalı vatandaşı için son derece güzel evler, ev değil de sanki villa yapmış ve teslim etmişti. Hocalı yeni yüzü ile inşallah Azerbaycan'ın parlayan bir yıldız kasabası olmaya adaydır. Hocalı'yı arkada bırakıp Ağdam'a doğru yol aldık. Ağdam'a 1988 yılında gelişimizde şehirde oturup dinlenmiş ve çay içerek halkla sohbet etmiştik. İkinci gelişimde ise bambaşka bir Ağdam vardı. O güzelim Ağdam tamamen harabe idi. Tanrım, bir millet nasıl böyle bir duygu ve düşüncede olur, aklım almıyordu. Ağdam Cuma Camisi'ni ziyaret ettik.

Ermeniler işgal zamanında burayı domuz ahırı yapmıştı. Sinagog, kilise, cami Tanrı'ya inanan insanların ibadet ettiği yerdir, oralar Tanrı'nın adının duvarların her zerresine sindiği yerdir, böylesi yerlere hakaret edilir mi? Aslında Ermeniler böyle yapmakla nasıl bir mill? kimliğe sahip olduklarını bütün dünyaya ispat etmişlerdi.

Ağdam'da her şahsın saygıyla andığı bir seyyidin de mezarını ziyaret ettikten sonra çay bahçesinde oturup çay içip dinlendik ve izin verilen yerleri dolaşarak darmadağın edilmiş o güzelim şehrin harabeye dönmüş h?line bakarak içim kan ağlaya ağlaya şehri terk ettik. Aqil Bey bizi Kengerli köyüne götürdü. Orada oturup yemek yedikten sonra Ağcabedi'ye yollandık. Akşam Vali Rafil Bey de geldiler, gece yarısına kadar sohbet ettik ve uyuyup ertesi gün kahvaltıdan sonra Bakü'ye yollandık.

Karabağ tek kelime ile cennetten bir köşedir. Birkaç yıl sonra buraların turistlerden dolup taşacağına inanıyorum. Azerbaycan yönetimi muhteşem işlere imza atıyor. Her bir Türkiyeli Azerbaycan Devleti'nin güçlenmesi için elinden gelen her bir şeyi yapmalıdır. Azerbaycan Türk dünyasının kalbidir, burayı sağlam tutmalıyız. Burası Türk milletine Tanrı tarafından bahşedilmiş muhteşem güzelliğe malik bir mek?ndır. İnsanları candandır, gönüldendir, saygılıdır, sevgilidir. Hep şu dövizi kullanmışımdır: Azerbaycan'ı seven Türkiye'yi de sever, Türkiye'yi seven Türk Dünyasını da sever, Türk Dünyasını seven Tanrı'yı da sever. Tanrı'yı sevenlere gönülden selam olsun.

**Sevgili kardeşim Aqil Abbas Bey ve Muhterem eşleri İrade Tuncay hanıma bize muhteşem bir ziyareti gerçekleştirdiklerinden dolayı minnettarız, sonsuz teşekkürlerimizi sunuyoruz.**



Faiq QİSMƏTOĞLU
faiqqismetoglu@box.az

# Bizi özümüz olmasaq...

**Dünya yarandığı gündən hər şeyin öz adı var; insanın öz adı var, təbiətin öz adı var, yerin öz adı var, göyün öz adı... Bax, bunlar öz yerində olanda dünya öz rəngində, öz çalarında və öz biçimində olur...**

**Nə gözəldi, hər şey öz yerində görünəndə!!! Amma bir balaca nəyinsə yeri dəyişəndə dünyanın rəngi dəyişir və bomboz olur. Güllü-çiçəkli, günəşli dünya qapqaranlıq olur və bir səhraya bənzəyir... Dünya dəyişdiyi kimi insanlar da dəyişir. İnsan adamdan çox robota, işlətdiyi mobil telefona, baxdığı televizora oxşayır.**

**Bilirsiniz bu nə deməkdi??? Bu, boz dünyanın boz adamları deməkdi. Və boz adamların sayı milyardı da keçıb! Üstəlik, onların sayı günbəgün artır. İnsanın yanında yad yox, qohumu ölür, kömək eləməyi cəhənnəm, heç tükləri də tərpənmir. Yas məclisində kədərlənmək, bikef durmaq əvəzinə aşı elə basıb yeyir ki, sanki aclıqdan çıxıb. Ən əziz adamının qırx mərasimini də gözləmir. Oğluna vur-çatlasın bir toy edir ki, gəl görəsən!**

**Elə bil ki, bir həftə bundan əvvəl dünyasını dəyişən bunun atası, bunun anası, bunun qardaşı deyilmiş... Ən ürəkağrıdan hadisə isə bütün qohumların ona qoşulub, arsız-arsız atılıb-düşməsi və toyda şıdırğı oynamasıdı... Amma əvvəllər bizim kənddə bir adam rəhmətə gedəndə, qohum deyildi ha, onun ən azından yeddisini, qırxını gözləyib, sonra toy edərdilər! Toy edəndə də yaş düşmüş evin yanından gəlib keçəndə musiqi səslənməzdi. Ki, onların qartmaq bağladığı yarasının gözünü qoparmasınlar. Bax, onda biz özümüz idik; el adət-ənənəsinə, böyük-kiçiyə hörmət eləyirdik! Amma indi çoxumuz özümüz deyilik. İndi özümüzdən çox başqa millətlərə, nə bilim, robotlara oxsayırıq! Qloballaşma deyilən bir şey var ha, bax o bizi məhv elədi və məhv eləməkdədir! Çünki özümüz deyilik...**

**Böyük Bəxtiyar Vahabzadə yazır ki, "qorxuram insanlar qala, insanlıq ölə..." Bax o vaxt gəlib! Və insanlıq hər gün ölür... İnsanlar özünə bənzəmək istəmir... Və plastik əməliyyatla ölkəmizdə yüz minlərlə insan görünüşünü dəyişdirib. Universitetdə oxuyanda bir müəllimimiz vardı, İkinci Dünya mübaribəsində iştirak eləmişdi, üzü də çopur-çopur idi. Bir alman həkimi ona deyir ki, sənə bir dərman verim, üzünə sürt, sağal, cavan oğlan ol! Müəllim də deyir hamı məni belə tanıyib, qayıdaram, anam tanımaz! Mən özüm olsam, yaxşıdı...**

**Plastik əməliyyat, sifət dəyişdirmək qorxulu deyil! Qorxulu odur ki, insanlar özləri olmur və insanlıqdan çıxırlar. Yəni adam kimi adamlığını itirir... namusunu itirir... kişiliyini itirir... milli düşüncəsini, vətənpərvərliyini itirir... Və nəhayət manqurta, robota oxşayır. Bu tək insanlığın deyil, bəşəri dəyərlərin ölümüdü... Bəlkə özümüzə qayıdaq... Allah bizi necə yaratmışdısa, elə olaq, içimizdə sevgi, mərhəmət, insanlıq yenidən baş qaldırsın. Biz yenidən əvvəlki insan ola bilərikmi??? Buna biz yox, zaman cavab verə biləcək!!!**

## Piyadalar, diqqətli olun!

**Hər bir piyadanın yol hərəkəti qaydalarına əməl etməsi öncə onun təhlükəsizliyini qoruyur! Və hamı da çox yaxşı bilir ki, əksər piyadalar yol hərəkəti qaydalarına düzgün riayət etmirlər .**

Bu isə birmənalı olaraq onların həyatı üçün böyük təhlükələr yaradır. Məhz bunun nəticəsidir ki, Bakıda ölümlə nəticələnən piyadavurma halları son vaxtlar daha da artıb. Həmin hadisələrin baş verməsində həm sürücülərin, həm də piyadların günahları var. Bəs , bunların qarşısını almaq üçün hansı profilaktik tədbirlər həyata keçirilir? Bu məqsədlə Baş Dövlət Yol Polisi İdarəsi mütəmadi olaraq təhlükəsizlik tədbirləri görür. Həmin tədbirlərindən biri də ölkə ərazisində iyunin15- dən 22-dək keçirilən " Piyadalar, diqqətli olun!" təhlükəsizlik həftəsidir.

Bu tədbirlərin keçirilməsi piyadalar arasında maarifləndirmə işlərinin aparılmasına, onların həyatını mövcud təhükədən xilas edilməsinə hesablanıb. Bunu görə də yol polisi bu istiqamətdə səmərəli fəaliyyət göstərməklə bir daha piyadaları yol hərəkəti qaydalarına əməl etməyə səsləyir. Aparılan profilaktik tədbirlər, izahat işləri heç şübhəsiz ki, baş verə biləcək piyadavurma hallarının aradan qaldırılmasında önəmli əhəmiyyət kəsb edir.Ələbəttə.bu tədbirin həyata keçirilməsində kütləvi informasiya vasitələri də yol polisinə kömək etməli, hərəkət iştirakçılarının maariflənməsinə öz köməkliyini göstərməlidir. Çünki hər şeyi yol polisinin öhəsinə buraxmaq özü də , bir məsuliyyətsizlikdir! Piyadavurma hallarının azaldılmasının yeganə bir yol var- sürücü, piyada və digər hərəkət iştirakçıları yol hərəkəti qaydalarına əməl etməlidir.

Əgər onlardan bir( sürücü, yaxud da piyada) yol hərəkəti qaydalarına əməl etmirsə, qəzalar qaçılmaz olur! Deməli, nə etmək lazımdır? Birmənalı olaraq sürücülər piyadalara, piyadalarsa, sürücülərə yol verməlidir. Bir də görürsən ki, piyada keçidində bir sürücü piyadaya yol verir, arxadan gələn sürücü aaraməsafəsi saxlamır və zəncirvari qəza baş verir!

**Emil FAİQOĞLU**

## Hamı müəllimə borcludur...



**Bu dünyada bizim Allaha , valideynə, bir də müəllimə borcumuz var! Və o borc ki, onu heç vaxt qaytara bilməyəcəyik.Bəlkə qaytaran var , mən bilmirəm! Əgər qaytaran varsa, nə gözəl!**

Tək bizdə deyil dünyanın hər yerində müəllimə çox böyük hörmət və qayğı var! Bunu çoxları yaxşı bilir. Avropa ölkələrində ən yüksək maaşı müəllimlər alırlar .Almaniyada da yüksək əməkhaqqı müəllimlərə verilir. Belə ki,hakimlər bir vaxtlar maaşlarının müəllmlərin maaşlarına çatdırılması üçün kansler Angela Merkelə müraciət edirlər

.O isə deyir ki, bu heç cürə mümkün deyil! Çünki onlar öyrədən , siz öyrənənsiniz!Belə bir müraciət vaxtılə Mustafa Kamal Atatürk də olub. Böyük siyasətçi və tarixi şəxsiyyət deyib ki, maaşları artırın, amma müəllimlərin maaşından az olsun! Bizim ölkəmizdə də müəllimlər ən yüksək maaş və pensiya almalıdır!

Düzdür, son illər onların əməkhaqları xeyli artırılıb.Amma su- kanal idarələrin rəisləri onlardan dəfələrlə çox maaş alır. Təqaüddən isə danışmağa dəyməz.Müəllimlər ən az təqaüd alan peşə sahiblərindəndir! Bax , bu barədə hökumət yaxşı - yaxşı düşünməli və tezliklə müəllimləri sevindirməlidir!!!

## İndi, yaxşı dondurma var?

**Yay mövsümündə insanların sərinləşdirici içkikərə , o cümlədən dondurmaya böyük ehtiyac olur. Xüsusilə də, uşaqlar böyüklərə nisbətən dondurmaya daha çox maraq göstərir.**



İndiki dondurmaların da keyfiyyətli bir qədər yaxşı deyil. Çünki bu məhsulu istehsal edən müəssisə və sexlərə sovet dövründə olduğu kimi, ciddi nəzarət yoxdur. Nəzarətedici orqanlar var, ey , sadəcə nəzarət yoxdur.Təbii ki, bu da sonda hərc-mərcliyə gətirib çıxarır.Belə ki, dondirmanın tərkibi qeyri- standart kombanetlərdən hazırlanır.

Onun hansı yağlardan və hansı sağlam məhsullardan istehsal edildiyi dəqiq bilinmir. İndi ölkədə 1 manatdan başlamıs 9 manata kimi dondurmalar istehsal olunur. Deyilənlərə görə ( bunlar istesalçıların fikirləridir! ) baha qiymətə satılan dondurmalar keyfiyyətli və dadlıdır.

Bəs , elə isə 1 manatlıq dondurmalar niyə keyfiyyət siz və dadsızdır ??? Üstəlik də, market və mağazalarda satılan əksər dondurmalar axşamlar soyuducular işləmədiyinə görə, əriyir və keyfiyyətsiz olur. Bu isə birmənalı olaraq istehlakçıları narazı salır. Havalar get-gedə daha da istiləşir və insanlar da bu isti yay günlərində dadlı və keyfiyyətli dondurmalar axtarırlar. Bax , belə dondurmaları baha da olsa , tapa biləcəklərmi???

## Yolun ortasında qalan avtomobil...



**Biz tez-tez belə hadisələrin şahidi oluruq. Bir də görürsən ki, nəqliyyat vasitələrinin intensiv hərəkət etdiyi magistral yollarda , eləcə də Bakı prospektilərdə bir avtomobil də texniki qüsur yaranın və bu nasazlığan görə maşın yolda qalıb.**

Bir çox sürücülər belə vəziyyətdə çıxış yolu tapa bilirlər . Onlar vaxt itirmədən qəza işıqların yandırır, avtomobilin arxasını açaraq orda olan təhlükəsizlik avadanlığından istifadə edir və xəbərdaredici nişanlar artıq uzaqdan görünür.

Eyni zamanda operativ olaraq kömək üçün evakuator xidmətinə müraciət edir. Təbii ki, həmin xidmətin əməkdaşları da vaxt itirmədən hadisə yerinə gələrək texniki cəhətdən sıradan çıxmıs avtomobili oradan götürüb aparır.

Bununla da , mövcud təhlükə aradan qaldırır və təhkükə sovuşur.Amma bəzən həmin nasaz avtomobil vaxtında təhlükəsizlik tədbiri görülmədiyin və sürücünün məsuliyyətsizliyindən ağır qəzalar baş verir. Belə ki, bir neçə gün bundan əvvəl Bakı- Quba avtomobil yolunda texniki cəhətdən sıradan çıxan və yolun hərəkət hissəsində qalan sürücünün məsuliyyətsiiyi üzündən ağır qəza baş verib.

Çünki nəqliyyat vasitəsini idarə edən sürücü heç bir təhlükəsizlik tədbiri görməyib. Çıxış yolu kimi o, maşının arxasında dayanıb əl hərəkətləri edir. Təbii ki, bunu da həmin istiqamətdə hərəkət edən əksər sürücülər görmürlər .Elə həmin an yüksək sürətlə hərəkət edən motosiklet gəlir və arxadan avtomobilə çırpılır.Nəticədə ağır qəza baş verir, 17 yaşlı qız xəstəxanaya çatdırılsa da , onun həyatını xilas etmək mümkün olmur, o, dünyasın dəyişir. Qəzada ölən qız beynəlxalq hüquq üzrə professor, məşhur vəkilin övladı imiş... Bax bir səhlənkar sürücünün günahi üzündən bir gənc qız həlak oldu. Ümumiyyətlə, bu hadisə digər sürücülərə bir dərs olmalı, avtomobillər yolda xarab olub qalarkən təcili surətdə onlar həmin yerdən götürülməlidir . Ki, ağır yol-nəqliyyat hadisəsi baş verməsin!!!

## Eldəniz Məmmədov iş tapa bilmir...



**Müğənni Eldəniz Məmmədovu çoxlarımız yaxşı tanıyırıq. Ən azından o, ATV kanalının bir vaxtlar keçirdiyi" Xalq ulduzu" müsabiqəsində birinci yerə çıxıb! Onun nə arxası və nə də elə maddi imkanı olub ki, özünü hardasa rekam etdirsin. Yəni bu yarışmaya kimi çoxları onu tanımırdı . Amma səsi , istedadı və zəhmətkeşliyi bir neçə gündə Eldənizi bütün xalqa tanıtdırdı və sevdirdi.**

Çünki onun bal səsi, yüksək mədəniyyəti , əxlaqı və tərbiyəsi var. Mən onu 25 ilə yaxındır ki, tanıyıram! Heç kimə bənzəməyən bulaq suyu kimi təmiz bir ziyalıdır! " Ziyalı" sözünü xüsusilə vurğulayıram. Ona görə ki, hər müğənni ziyalı deyil. O, Milli Konservatoriyanı bitirib.Və böyük sənətkar, Xalq artisti İslam Rzayevdən dərs alıb.Eldəniz Məmmədov həm də nadir müğənnilərdəndir ki, xalq və bəstəkar mahnılarını yüksək peşəkarlıqla ifa edir. Ən çətin bəstəkar mahnılarını da o, çox gözəl oxuyur.

Amma bu istedadlı sənətkara bir iş yeri tapılmır və deyirlər ki, sənin magist təhsilin yoxdu. Bu absurd bir şeydi. Səs, istedad , peşəkarlıq olan yerdə diploma ehtiyac yoxdur.Belə yanaşmalar sovet dövründə qalmış xoşa gəlməyən ənənələrdir.Neçə olur ki, orta səviyyəli mügənnilər musiqi məktəblərində , kolleclərdə, hətta Opera Teatrında iş tapa bilir, amma Eldəniz Məmmədova hardasa bir iş tapılmır.Olkəmizdə nə qədər mədəniyyət evləri, ayrı-ayrı nazirliklərin özfəaliyyət kollektivləri var! Bu qədər iş yerləri olduğu halda, bəs niyə Eldəniz kimi bal səsi olan müğənniyə iş tapılmır?

Heç şübhəsiz ki, bu məsələdə Mədəniyyət Nazirliyi Eldəniz Məmmədov kömək edə bilər. Onun kimi istedadlı sənətkar həm də xalq və bəstəkar mahnılarını gənclərə bir müəllim kimi də öyrədə bilər! Onu iş yeri yaratmaqla aidiyyəti qurumlar xalq musiqimizin ömrünü uzatmıs olar, Eldənizin müəllimi daha sənətkar İslam Rzayevin ruhunu sevindirərlər!!!

## Xəstəxanalarda qayda yaradılmalıdır...

**Ölkəmizdə tibbi sığorta sisteminin tətbiq edilməs çox yaxşı və müsbət haldır. Ən azından ona görə ki, bütün pasiyentlər ildə iki dəfə pulsuz olaraq müayinədən keçir , müalicə olunur və lazım olanda cərrahiyyə əməliyyatları da olurlar.**



Heç şübhəsiz ki, bunların hamısı təqdir olunası haldır. Heç kimə sirr deyil ki, əvvəllər insanlar maddı imkanları olmadığına görə və eləcə də müayinə , müalicə pullu olduğu üçün bu prosedurlardan keçə bilmirdilər. Amma indi həmin problemlər aradan qaldırılib. Bu məsələlər həllini tapsa da , başqa çətinliklər üzə çıxıb.

Yəni bütün xəstəxanalar, müalicə ocaqları eyni vaxtda sayı- hesabı bilinməyən xəstələri qəbul edir.Və orda o qədər insan olur ki, hər hansı bir müayinədən keçmək üçün 4-5 saat vaxt itirirsən . Həm bu növbələrdən xəstələr yorulur, həm də həkimlər! Bir çox halda gözləməkdən vəziyyətləri ağır olan pasiyentlərin səhhəti daha da ağırlaşır. Təbii ki, belə bir durumda xəstəxanlarda gərginlik yaşanır.

Ona görə də TƏBİB bu problemləri yoluna qoymalı, çıxış yolu tapmalı, insanların saatlarla vaxt itirməsinə , narahat anlar yaşamasına , əsəbləşməsinə şərait yaradan amilləri və ən nəhayət mövcud nöqsanları aradan qaldırmalıdır!!!

**Emil FAİQOĞLU**



# QAFQAZ İNCİSİNİN SORAĞINDA



**...Ölkə daxilində inkişaf və tərəqqi daha böyük sürətlə davam edir. Son vaxtlar regionlar haqqında məlumatların intensivliyi əvvəllərdəki kimi olmasa da, Dövlət Proqramı bütün istiqamətlərdə öz həllini tapmaqdadır.Rayon icra hakimiyyətləri də sakinlərin böyük dəstəyi ilə bu sahədə yeni-yeni uğurlar qazanırlar. Belə rayonlardan biri də gözəlliklər diyarı Zaqataladır.**



Bəs görülən işlər, sakinlərin yaşam tərzi, arzu və istəkləri? Rayon rəhbərliyinin istər mərkəzdə, istərsə də kəndlərdə keçirdiyi bütün görüşlər optimist notlarla çalarlanır. Sakinlər dövlətin , ölkə başçısı cənab İlham Əliyevin siyasətini dəstəkləyir və gələcəyə ümidlə baxırlar. Axı məhz bu düzgün istiqamətli siyasətin nəticəsidir ki, regionlarda aparılan quruculuq işləri daim inkişafda olmuş, çoxlu töhfələr vermişdir.



Cənab Prezident ölkədə qeyri-istehsal sahələrinin də inkişaf etdirilərək xalqın rifahına yönəldilməsini düşünür və potensialları yüksək səviyyədə dəyərləndirir. Bu istiqamətdə turizmin də inkişafını ən vacib məsələlərdən biri kimi təqdim edir, dünya praktikasından nümunələr göstərir. Əslində Zaqatala, elə bütövlükdə ölkənin şimal- qərb bölgəsi daxili və xarici turizmin inkişafı üçün çox münasib yerlərdir. Biz əgər indi konkret olaraq Zaqatala rayonu haqqında söhbət açırıqsa, mövzunu əhatəli şəkildə şərh etməliyik. Ən azından Zaqatala kəndli - şəhərli həm təbiət gözəllikləri, həm də sosial-mədəni inkişafı ilə turistləri daim cəlb etməkdədir.

Zaqatalanın tarixi abidələri və təbiət gözəllikləri ilə yanaşı, onun şəhər mədəniyyəti, qonaq (turist) qəbul edib xidmət göstərmək ənənəsi həmişə diqqət çəkib, onun bu özəlliklərini uzaqlara daşıyıb.Bu mənada təbii olaraq rayon rəhbərliyi bütün digər məsələlərlə yanaşı , turizmin inkişafına da xüsusi əhəmiyyət verir.Zaqatala Rayon İcra Hakimiyyətinin başçısı Mübariz Əhmədzadə ilə bu istiqamətdə söhbət etdiyimiz zaman deyir:

- Zaqatala həmişə qonaq-qaralı yerdir.Burada turizm üçün də hər bir şərait və bu şəraiti daha da genişləndirmək perspektivləri var. Məsələyə çox ciddi yanaşırıq. Çünki turizm qeyri -istehsal sahələrindən biri kimi yaxşı gəlir gətirə bilir. Təbii ki, bütün infrastrukturlar , xidmət mədəniyyəti və digər amillər yüksək səviyyədə qurulduqda. Regionda turizmin inkişafı rayonumuz , camaatımız üçün əlavə gəlir mənbəyidir. Bu səbəbdən də bütün imkanlardan maksimum istifadə etməyə çalışırıq...

Doğurdan da Zaqatala rayonunun turizm infrastrukturu ildən-ilə zənginləşir və müasir tələblərə cavab verir.

Bütün bunlar turizm bölgəsi üçün təbii haldır.Yəni , otel-mehmanxana, iaşə xidmətlərindən tutmuş , yollar, təbiətlə rahat təmas, internet və başqa amillər...

Rayon ərazisində iyirmidən çox turizm obyekti fəaliyyət göstərir.Obyektlərin hamısı müasir tələblərə cavab verir. Qiymətləri də əlverişlidir. Bu obyektlər gün ərzində 1000 nəfərdən çox turisti qəbul etmək imkanına malikdir. Obyektlərdə çalışan xidmət heyətinin hamısı gənclərdir.Onların vaxtaşırı təşkil olunmuş kurslarda ixtisas artırması daim rayon rəhbərliyinin diqqət mərkəzindədir.

Rayonun mərkəzində yerləşən qədim Qala düzü pillləkənləri öz ilkin üslubunu saxlamaqla təmir olunaraq istifayə verilmişdir. Tarix mədəniyyət qoruğunun və alban məbədinin əsaslı təmiri də mühüm faktdır.

Son illər rayona gələn turistlərin sayı nəzərə çarpacaq dərəcədə artmaqdadır.Otellərlə yanaşı xüsusi evlərdə və kəndlərdə də qalanların sayı çoxdur. Turistlər əsasən Yuxarı Çardaqlar kəndində yerləşən Pəri Qalasına , Car kəndində "Cingözqala" , Zaqatala qalasına , alban məbədinə, bəzi məscidlərə təbiət möcüzəsi olan çinar ağaclarına, parklara, "Şəlalə" yə daha çox maraq göstərirlər. Rayonda dövlət qeydiyyatına düşən 110 tarix və mədəniyyət abidəsi mövcuddur.

Turistlərin daha çox maraqlandıqları yerlərdən biri də Tarix Diyarşünaslıq Muzeyidir.Muzeyin çox zəngin fondu vardır ki, orada 1600-dən çox eskponat qorunur və nümayiş etdirilir.

Mən artıq Zaqatalanın istirahət və turizm xəritəsi əsasında müəyyən məlumatları diqqətə çatdırmaq istəyirəm. Axı bu rayona çoxdan yolu düşməyənlər, bu rayonu yaxşı tanımayanlar da var, heç görməyənlər də yəqin ki , çoxdur.

### Heydər parkı

1947-ci ildə salınmış bu parkın sahəsi 13 hektardır. Burada 30-dan çox ağac növü vardır. Sonradan parkda yenidənqurma işləri aparılmış və Heydər parkı adlandırılmışdır. Ulu Öndərin abidəsinin ucaldığı bu gözəl məkan əhalinin ən sevimli istirahət yeridir.

### Zərifə Əliyeva adına park

2008-ci ildə qurulmuş bu parkda akademik Zərifə Əliyevanın büstü qoyulmuş, müasir səhnə, işıqlandırma sistemləri,fəvvarələr quraşdırılmışdır.

### Dədə Qorqud meydanı

Təbiətin möcüzəsi hesab edilən 765 yaşlı və gövdəsinin diametri 7 metr olan çinar ağacı burada yerləşir. El arasında Qala düzü adlanan abidəyə doğru qalxan pilləkənlər də buradadır.

### Zaqatala Tarix Mədəniyyət Qoruğu

Qoruq 1830 -cu ildə inşa edilən Zaqatala qalasında yerləşdir. "Potyomkin " zirehli gəmisinin üsyançıları məhbus kimi bu qalada saxlanılıb. Qalanın divarlarının eni 1.5 metrdir.Qalanın divarlarında 100-dən çox mazğalı -tüfəng atmaq üçün yeri olub. Daxildə 20-dən çox yerli əhəmiyyətli tarixi abidələr də var.

### Car kəndi

Zaqatala şəhərinin şimalında, Böyük Qafqaz dağlarının ətəklərində yerləşir. Kəndin ərazisindən 2 dağ çayı ( Bəkməz və Zilban) axır. Üst tərəfi dağlardır. Tarixi abidələrdən Car məscidi ( XVII əsr) , XVI əsrə aid olub və müdafiəsi məqsədləri üçün tikilmiş , hündürlüyü 10-12 m olan Cigizqala vardır.Ərazidə "Gülüstan"turist bazası yerləşir.



### Qəbizdərə kəndi

Mazıx kəndinin şimalında,Böyük Qafqaz dağlarının cənub ətəyində , Katex çayının sağ sahilində yerləşir. Ərazidə 15 m hündürlükdən tökülən respublikanın ən bol sulu şəlaləsi vardır.

### Pipan və Silov dərələri

Yuxarı Tala kəndinin şimal şərqində, Böyük Qafqaz dağlarının cənub ətəklərində yerləşir. Tarixi abidələrindən Alban kilsəsi (IV -V əsrlər) daha məşhurdur.



### Yuxarı Çardaqlar

Yuxarı Çardaqlar kəndi rayon mərkəzindən 14 km məsafədə yerləşir. Kənddə XIII əsrə aid bürc, alban kilsə qalıqları, XIX əsrdə tikilmiş məscid vardır. Burada III-IV əsrlərə aid olan el arasında "Qız qalası" mağarası adlanan "Pəri qala" yerləşir.

Və nəhayət



### Zaqatala Dövlət Təbiət Qoruğu

Bölgəyə gələn turistlərin marağını cəlb edən Zaqatala Dövlət Təbiət Qoruğu 1929-cu ildə yaradılıb və Böyük Qafqaz dağlarının cənub yamacında Zaqatala-Balakən inzibati rayonlarının ərazisində yerləşir. Şimaldan Böyük Qafqaz dağ silsiləsinin baş suayrıcı üzrə Rusiya Federasiyasnın Dağıstan Respublikası, qərbdən Gürcüstan Respublikası, cənubdan isə Alazan-Həftəran vadisinə qədər uzanan dağətəyi və dağlıq zonası ilə əhatələnir.Ərazi bütövlükdə dəniz səviyyəsindən 400 metr hündürlükdən başlayaraq 3648 metrə qədər olan yüksəklikləri əhatə edir. Ən yüksək dağ Quton dağıdır.

Zaqatala Qoruğu Zaqafqaziyada yaranan ilk qoruqlardan biri olub, Şəki-Zaqatala zonasında elmi-tədqiqat, mədəni-maarif müəssisəsi kimi həmin zonanın təbii sərvətlərinin kompleks şəkildə öyrənilməsində və biomüxtəlifliyin qorunub saxlanılması istiqamətində böyük əhəmiyyət kəsb edir, eləcə də fauna və floranın elmi əsaslarla öyrənmək məqsədini daşıyır. Qoruğun ərazisi 25-30 km uzunluqda olmaqla , 15-20 km eninə sahəni əhatə edib , cənub qərbdən şimal qərbə qədər uzanmışdır.

**Beləliklə, Zaqatala rayonu şimal -qərb bölgəmizin turizm mərkəzlərindən biri olmaqla çoxsaylı tarixi və təbiət abidələri ilə hər kəsə zövq bəxş edən çox dəyərli sərvətimiz , qürurumuzdur.Mən jurnalist olaraq illərdir nə qədər yazsam da bu Qafqaz İncisinin gözəlliyini tam vəsf edə bilmirəm.Olsa-olsa bu yazılar bir sevgi və bir istiqamətdir. Əsas gəlib bu gözəlliyin ovsununa düşməkdir.**

*Məzahir* **ƏHMƏDOĞLU**



Əbülfət MƏDƏTOĞLU
madatoglua@mail.ru

# Bizim şairimiz İsmayıl İmanzadə

**Aşıq Alının dillər əzbəri olan bir qoşmasında deyilir ki:**

*Ölüm haqqdı, çıxmaq olmaz əmrdən...*

**Son vaxtlar yaman tez-tez xatırlayıram bu qoşmanı... İtkilər artır... sıra seyrəlir... çevrə qapanır... Mənim üçün həmin itirdiklərimdəndir İsmayıl İmanzadə... QARDAŞ! DOST!! DOĞMAM!!! - dediyim ŞAİR!!! Bu acı xəbər məni iliyimə qədər göynətdi. Heç nə deyə bilmədim... Üzdə susdum... İçdə xatirələri çözdüm... Bu ayrılıqla bağlı təzə nəsə yaza bilməyəcəyimi anladım...**

**Bir də mən onun hər yeni kitabı barəsində yazmışam... Və VİDA yazısı yazacağımı isə heç ağlıma da gətirməmişəm... Ona görə də yaradıcılığı barəsində bir il əvvəl yazdığım yazını təkrar təqdim edirəm...**

Şair İsmayıl İmanzadənin imzasını Azərbaycanda söz adamları kimi oxucular da yaxşı tanıyır. Onun bir-birindən maraqlı, könül oxşayan, ruhu ovudan misraları bir oxucu olaraq mənim qan yaddaşıma həmişə təsir edib və etməkdədir də. Bunu ona görə xüsusi vurğulayıram ki, İsmayıl İmanzadə poeziyasında əsas çalar, yəni əsas cizgi onun sadəliyi və fikir tutumudur. Yəni İsmayıl müəllimin şeirlərini oxuyanda sadə, səmimi, axıcılıqla yanaşı, həm də bir düşündürmə gücüylə adama hakim olur. Oxuduğum misralar təkcə göründüyü kimi yox, həm də alt qatı ilə birlikdə sənə öz təsirini göstərir. Bu da şair dostumun sözə verdiyi dəyərin, sözə ayırdığı ömrün bəhrəsidi.

İmzasını tanıdığım gündən İsmayıl İmanzadə yaradıcılığında məhz söylədiyim həmin o cizgiləri, çalarları izləmişəm və onun necə püxtələşdiyini də oxucu olaraq hiss etmişəm. Elə son kitablarında da həmin o vurğuladığım məqamlar məni bu kitab barəsində danışmağa, daha doğrusu fikirlərimi bölüşməyə həvəsləndirdi. İsmayıl İmanzadənin "Ömür muncuq düzümüdür" kitabı "Qanun" Nəşriyyatında işıq üzü görüb. Kitabın redaktoru Əli Rza Xələflidi. Kitabın anatasiyasında vurğulanır ki, "Uzun illərdən bəri çağdaş Azərbaycan ədəbiyyatına bəxş etdiyi şeir və poemaları ilə insanlara nəcib hisslər aşılayan müəllif yeni şeirlər kitabında da özünəməxsus dəsti-xəttinə sadiq qalmışdır". Bax, anatasiyadan təqdim etdiyim bu bir cümlədə artıq oxucu kiminlə həmsöhbət olduğunu anlayır. Bilir ki, oxuyacağı bu kitabın müəllifi özünə, ruhuna və həm də sözünə sadiq olan bir yazardı. Onun üçün söz həm də yaşamın ifadəsidi. Bax elə bu təqdim etdiyim, daha doğrusu ifadə etdiyim sözə söykənərək mən kitabdakı ilk şeiri təkrar oxuyaram. Müəllif yazır ki:

*Dua etdim, ulu Tanrım dadıma yetdi,*
*Ərən yurdum nər biləkli oğul böyütdü.*
*Yadda saxla, babalardan qalan öyüddü -*
*Vətən ana, torpaq namus, sevgi əmanət!*

*Dədəm Qorqud zəfərdədir şərəf-şan-dedi,*
*Şəhid ruhu yerdə qalmaz nahaq qan - dedi.*
*Xudafərin haray çəkdi, Savalan dedi -*
*Vətən ana, torpaq namus, sevgi əmanət!*

*Qarı düşmən, varlığımdır anam Qarabağ,*
*Gözünü aç, tariximə bir də yaxşı bax.*
*Eşitdinmi, öz ləhcəmdə söylədi hər dağ -*
*Vətən ana, torpaq namus, sevgi əmanət!*

*Kitab kimi varaqladım Kürlə Arazı,*
*Əsdadımın Qobustandan gəldi avazı.*
*Babək döyüş bayrağına qanıyla yazıb -*
*Vətən ana, torpaq namus, sevgi əmanət!*

*Vətən oğlu igid əsgər, sabahın xeyir,*
*Səhər mehi təbəssümlə qapını döyür.*
*Göyçə səndən nicat umur, Zəngəzur deyir -*
*Vətən ana, torpaq namus, sevgi əmanət!*

*Mən üç rəngli bayrağımla keçmişəm oddan,*
*Vətən sözü müqəddəsdir hər cürə addan.*
*Ata millət, ana millət, çıxarma yaddan -*
*Vətən ana, torpaq namus, sevgi əmanət!*

Şeiri oxuduqca təkcə tərənnümün şahidi olmursan. Yəni müəllif təkcə vətənimizi, yurdumuzu vəsf etmir,



həm də onu təqdim edir, onu tanıdır və bu təqdimat, bu tanıtma o qədər sadə və sevgi ilə edilir ki, yaddaşa yazılır, qana hopur. O da sənə müəyyən mənada kimliyini, haralı olduğunu xatırladır. Bir azərbaycanlı kimi, bir vətən övladı kimi böyüklüyünü görürsən. Necə deyərlər, özünə qayıdırsan. Bu özünəqayıdış da vətən sevgisini, vətən əsgəri olmaq istəyini daha da alovlandırır. Təbii ki, bütün bunlar ürəklə, istedadla yazılmış şeirin təsiri, müəllifin xidmətidir. Kitabdakı bütün şeirlər hardasa bir ürəyin pıçıltısı kimi səslənir.

Ona görə də bu pıçıltıların mövzusu fərqli olsa da, onlar arasındakı səmimiyyət və düşündürmək bağları o qədər möhkəmdir ki, hər şeirin ovqatını nümayiş etdirməklə bərabər hər şeirin də bir-birinin içində özünün eyni qələmə, eyni ruha bağlılığını da gizlətmir. Yəni bir az da sadə şəkildə ifadə etsəm, şeirlər həm də öz müəllifini tanıdırlar. Oxucu bilir ki, bir-biri ilə doğma olan bu bağlantı İsmayıl İmanzadəyə aiddir.

Ona görə də kitabdakı "Qələm başdaşım olsun" şeirini oxuyanda mənim gəldiyim qənaət bir daha təsdiqlənir:

***Çiçək açsın hər yanım,***
***Baxım durulsun qanım.***
***Teştim, təhnəm, xırmanım -***
***Sünbülüm, dənim olsun.***

***Nə selə dönüb axım,***
***Nə şimşək kimi çaxım.***
***Dumanlı-çənli dağım -***
***Şehli çəmənim olsun.***

***Dərə keçim yal aşım,***
***Düşmənlə hey savaşım.***
***Ölsəm, qələm başdaşım,***
***Kağız kəfənim olsun!***

Bir oxucu olaraq mən bu şeiri oxuyanda daxilən inandım ki, İsmayıl İmanzadə qələminə o qədər bağlıdı, o qədər sayqılıdı və onun halallığını o qədər dərindən bilib inanc göstərir ki, tərəddüd etmədən onu özünə başdaşı kimi qəbul edir. Zənnimcə, bu cəsarətli qərar, qətiyyətli fikir yalnız qələmə, daha doğrusu öz qələminə güvənən yazarın içindən gəlib keçəbilər!

Çünki başdaşı bir nişanədi, ünvanın göstəricisidi. Əgər müəllif həmin ünvanın qələmlə tanınmasına həm istəklidir, həm də bundan çəkinmir, deməli, söhbət sözə halal xidmət edən qələmdən gedir.

Mən kitabdakı şeirlərin demək olar ki, hamısı ilə həmsöhbət oldum və hər birini, xüsusilə "Şuşa etüdləri" (lirik poema) ilə təmasda bir daha özüm üçün qətiləşdirdim ki, İsmayıl İmanzadənin bu kitabında da müəllifin oxucuya deməyə kifayət qədər sözü var. Və o da kitaba çevirdiyi sözlərin hər birinin altından imzasını ürəklə, həm də böyük hərflərlə yazıbdır. Üstəlik o həm də gözü, könlü tox, inanclı, şükürlü adam olduğunu da etiraf edib:

*Bir vədələr boylandıqca bələkdən,*
*Pay umurdum neçə arzu-diləkdən.*
*Həyat məni keçiribdir ələkdən,*
*Pöhrəyəm, sünbüləm, dənəm, - min şükür!*

*Süddən çıxmış ağ qaşıq ki deyiləm,*
*Tikanlı kol, sarmaşıq ki deyiləm.*
*Zatı-kökü qarışıq ki deyiləm,*
*Xoş soraqla gələn günəm, - min şükur!*

*Yaddır mənə iftira da, yalan da,*
*Sızlamışam bircə gül də solanda.*
*Taleyimin umuduna qalanda,*
*Demədim haa duman-çənəm, - min şükür!*

*Dinc adamam, mənlik deyil qan-qada,*
*Gəc baxmadım nə doğmaya, nə yada.*
*Paxıllarım, bədxahlarım olsa da,*
*Amalımdan çətin dönəm, - min şükür!*

*Sərt üzü var həm qarğışın, həm ahın,*
*Kölgəsinə sığınmadım günahın.*
*"Közlərinə" mil çəkmişəm tamahın,*
*Haqqım var ki bərkdən dinəm, - min şükür!*

*Gah ehtiyac qorxudubdu gözümü,*
*Gah bir nankor çırpışdırıb közünü*
*Yurd həsrətim qatlasa da dizimi,*
*Kəsilməyən səsəm-ünəm, - min şükür!*

*Yanaşıdır dayaz-dərin, - bilirəm,*
*Hər kəlmənim - sözün yerin, - bilirəm.*
*Həm acıyam, həm də şirin, - bilirəm,*
*Yaxın gəlin, baxx, bu mənəm, - min şükür!*

**Bəli, bu şeirin ilk misrasından sonuna qədər biz İsmayıl İmanzadənin kimliyini də, həyata, insanlara münasibətini də və ən vacibi nəfsini, münasibətini qurub qorumaq bacarmağının da şahidi olduq. Bir oxucu olaraq bildik ki, bizim şairimiz kimdir. Məncə bu sualın cavabını artıq hər kəs - yəni şeiri sona kimi oxuyub bitirən hər bir oxucu artıq bilir. Bilməyənlərə isə mən xatırladıram:**

**- İsmayıl İmanzadə!**

Elxan Quliyev,
Əməkdar müəllim

# Azərbaycan-Türkmənistan münasibətləri dostluğa və strateji tərəfdaşlığa söykənir



**Azərbaycan və türkmən xalqları arasında əlaqələrin tarixi qədimdir. İki dövlət arasında diplomatik əlaqələr 1992-ci ildən yaradılıb. Bu gün isə Azərbaycan-Türkmənistan münasibətləri strateji məzmun daşıyır. Hər iki ölkə prezidentlərinin qarşılıqlı səfərləri və səfər çərçivəsində imzalanan sənədlər dostluq və qardaşlıq münasibətlərini daha da möhkəmləndirmişdir. Bu gün də iki ölkə arasında əməkdaşlıq yüksək səviyyədədir. Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədovun iyunun 22-də Azərbaycana səfəri zamanı bunun bir daha şahidi olduq. Həmin gün dövlət başçıları mətbuata bəyanatlarla çıxış ediblər.**

**Qarşılıqlı fəaliyyətin bütün sahələrini əhatə edən geniş gündəliyin olduğunu, bir çox məsələlər üzrə fikir mübadiləsinin aparıldığını, müzakirələrin nümayəndə heyətlərinin iştirakı ilə davam etdiriləcəyini vurğulayan Prezident İlham Əliyev Türkmənistan Prezidentinin Azərbaycana geniş nümayəndə heyəti ilə səfər etməsindən məmnun olduğunu dedi. Dövlətimizin başçısı Türkmənistan nümayəndə heyətinin üzvlərinin səfər çərçivəsində azərbaycanlı həmkarları ilə səmərəli müzakirələr aparacaqlarına əminliyini bildirdi.**

**Prezident İlham Əliyev ölkələrimiz arasında imzalanacaq sənədlərin əhəmiyyətinə də toxundu, bunu, münasibətlərimizin geniş gündəliyinin göstəricisi kimi qiymətləndirdi.**

**Füzuli şəhərinə məscid hədiyyə etdiyinə görə Türkmənistan Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədova və Türkmənistana minnətdarlığını bildirən dövlətimizin başçısı bununla bağlı qərarın ötən il Qurbanqulu Berdiməhəmmədovun Azərbaycana səfəri çərçivəsində qəbul edildiyini və onun təməlinin Türk Dövlətləri Təşkilatının Qəbələdə keçirilmiş Zirvə Görüşü çərçivəsində qoyulduğunu xatırlatdı. Prezident İlham Əliyev Türkmənistan tərəfindən bu məscidin hədiyyə edilməsini ölkələrimiz arasında səmimi qardaşlıq münasibətlərinin daha bir nümayişi olduğunu dedi.**

**Türkmənistanda Azərbaycanın Mədəniyyət Günləri çərçivəsində yaradıcı kollektivlərimizə göstərilən qonaqpərvərliyə görə də türkmən tərəfinə minnətdarlığını ifadə edən dövlətimizin başçısı ötən il ölkəmizdə Türkmənistan Mədəniyyəti Günlərinin keçirildiyini xatırladaraq, humanitar sahədə belə dinamik əməkdaşlığın təbii olduğunu vurğuladı. Xalqlarımızı ortaq tarixin birləşdirdiyini qeyd edən dövlət başçımız bunun, həmçinin qarşılıqlı fəaliyyətimizdə də mühüm amil olduğunu qeyd etdi.**

**Hazırda qarşıda qlobal gündəlikdə olan məsələlərin - nəqliyyat və enerji təhlükəsizliyinin dayandığını vurğulayan dövlətimizin başçısı Azərbaycanın və Türkmənistanın həm milli səviyyədə, həm də birgə təşəbbüslər vasitəsilə yalnız regionda deyil, həm də qlobal səviyyədə çox mühüm rol oynadıqlarını, bu rolun gələcəkdə daha da artacağını dedi. Bu xüsusda Azərbaycan Prezidenti qeyd etdi ki, geniş Avrasiya qitəsində geosiyasi proseslərin müsbət inkişafı bir çox hallarda bu sahələrdə sıx qarşılıqlı fəaliyyətimizdən asılı olacaqdır.**

**Hər iki dövlət başçısı ölkələr arasında siyasi, diplomatik, iqtisadi-ticari, mədəni-humanitar və digər sahələrdə sıx əlaqələrin qurulduğunu, yüksəksəviyyəli təmasların, qarşılıqlı səfərlərin ikitərəfli münasibətlərin uğurlu inkişafında mühüm rol oynadığını, həmçinin BMT, İqtisadi Əməkdaşlıq Təşkilatı, İslam Əməkdaşlıq Təşkilatı, Türk Dövlətləri Təşkilatı və MDB çərçivəsində əməkdaşlığın əhəmiyyətini vurğuladılar. Eyni zamanda, Xəzər dənizi ilə bağlı əməkdaşlığa da toxunaraq təhlükəsizlik, iqtisadiyyat, ekologiya və ətraf mühitin mühafizəsi sahələrində birgə fəaliyyətin hər iki ölkə üçün mühüm əhəmiyyət daşıdığını qeyd etdilər.**

**Nəqliyyat-tranzit sahəsinin də əməkdaşlığın strateji istiqamətlərindən biri kimi qiymətləndirən dövlət başçıları hər iki ölkənin əlverişli coğrafi mövqeyinin beynəlxalq nəqliyyat dəhlizlərinin inkişafı baxımından mühüm üstünlüklər yaratdığını bildirdilər. Əminliklə bir daha demək olar ki, səfər zamanı iki ölkə arasında imzalanmış sənədlər Azərbaycan-Türkmənistan münasibətlərinin yeni mərhələyə qədəm qoymasından xəbər verir.**

## "Meta"dan yeni addım - Zukerberq mərc tətbiqi hazırlayır

**"Meta" şirkəti yeni proqnozlaşdırma platforması üzərində işləyir.**

Adalet.az xarici KİV-ə istinadən xəbər verir ki, şirkətin baş direktoru Mark Zukerberq əməkdaşlarına "Polymarket"ə bənzər proqnoz və mərc imkanları təqdim edən yeni xidmət hazırlamağı tapşırıb.

Bildirilir ki, "Arena" adlandırılan layihə ayrıca mobil tətbiq kimi istifadəyə veriləcək. Platformada istifadəçilər idman yarışları, iqtisadi hadisələr və siyasi proseslərlə bağlı proqnozlar verə biləcəklər.

# ...Əvvəli yox sonu bitməz bir nəğmə!!

**Bu sözlərin müəllifi əsərlərinin müdafiyə zirehi doğma xalqı olan və müasir Azərbaycan poeziyasının tanınmış nümayəndələrindən biri Hidayətdir. Eyni zamanda o, diplomatiyamızın, nəsrimizin, dramaturgiyamızın və jurnalistikamızın da tanınmış nümayəndəsidir. Gözəl tərcüməçi, teatrşünas, jurnalist, səlnaməçi və ictimai-siyasi dövlət xadimidir.**

Onun yaradıcılığında poeziya ilə nəsr qarışıq halda, həm də çox uğurla yarım əsrdən çox uğurla bir yol keçmişdir. Hidayətin əsərləri, həyat və yaradıcılığı haqda (əldə edə bildiyim qədər) tanış olduğum əsərlər məndə çox rəngarəng fikirlər yaratdı. Bunlar öz yerində, lakin bir həqiqət məni daha çox heyrətləndirdi; insan nə qədər əzmkar olar ki, onun qəlbindən və qələmindən bu qədər gözəl və dəyərli əsərlər çıxsın? Bəlkə də şairin həyatında yaşayış məskənini dəyişməsi olmasaydı, didərginliyi və qəlbinin sızıltıları olmasaydı, Qərbi Azərbaycan dərdi, 20 yanvar və Xocalı faciələri, Dağlıq Qarabağ həsrəti olmasaydı inanmaq olardı ki, o daha çox əsərlər yazardı.

Ancaq bu narahat sənətkar ömürdə (bu narahatlığı şair üçün zaman və onun adamları yaratmışdı) bu qədər məhsuldar işləmək həm də istedadın nəticəsidir. O, yeri gələndə çıxışları ilə, yeri gələndə yazıları ilə özü də ürəyinin qanı ilə yazdığı yazılarla həmişə öndə getmişdir və ömrünün sonuna kimi belə oldu.

Ona görə də Hidayət Azərbaycanın ictimai fikrinin yüksəlişindəki xidmətlərinə görə əsərləri ilə də, şəxsiyyəti ilə də, dövlətçilik mövqeyində sabit və qərarlı durması ilə də tək və bənzərsizdir.

Onun hissləri də, fikirləri də həmişə orijinal olmuşdur və indi də belədir: bu haqda şairin əsərlərindən, həm bədii, həm də elmi əsərlərindən yüzlərlə misal gətirmək olar. Fikrimizcə bu misal da bəs edər:

***Biri köhnə yolları***
***Köhnə arabasıyla***
***Başa vurmaq istədi -***
***uğur - dedilər,***

***Biri sıldırım qayaları***
***Qəlpə - qəlpə qoparıb***
***Özünə bir yol açdı -***
***cığır dedilər.***

**(”Qiymət”)**

Və yaxud,

***İki dəfə ikin.. altı elədi***
***İki dəfə ikin dörd eləsəydi,***
***Allahın özü də olmazdı inan.***
***(2 x 2 = 6)***
***... Bəh - bəh- bəh!....***

Bu nümunələrin sayını çoxaltmaq fikrindən daşınıb şairin möcüzəli söz yaratmaq fikrinə nəzər salsaq daha yaxşı olar! Görün nə yazır?

***...Mən həmişə möcüzəyə inanmışam!***
***Özüm də bir xoş möcüzə yaratmaqçün***
***Taleyimin başına çox dolanmışam.***

Möcüzəli söz yaratmaq istəyi, həvəsi Hidayəti şerlərinə düşüncəli fikir və özünə məxsus dilini gətirdi və köhnə standartlardan çıxdı. Həmçinin bu fərqlənmə onun əsərlərinə yeni ruh, yeni məna, yeni oxucu sevgisi gətirdi. Ona görə də, mənim qənaətimə görə Hidayət ən çox oxunan və bəlkə də zamanında az dərk olunan şairlərimizdən biridir. Bu da uzunömürlü şerin öz xüsusiyyətindən irəli gələn bir ənənəvi amildir.

Gələcəyin şerləri indi çətin qavranılır, ... həmin bu məqamların orijinallığı əsas verir deyək ki, Hidayətin əsərləri bədii olmaqdan başqa həm də gələcəyimizin tarix dərsliyidir, Vətəndaşlıq dərsliyidir. ”İrəvana 7 məktub”, ”Burdan min atlı keçdi” toplusunda, ”Doxsanıncı il” kitabında ”Heydər Əliyev və Azərbaycanda milli siyasət” monoqraiyası, ”Heydər Əliyev və Azərbaycanda din siyasəti: gerçəkliklər və perspektivlər” və ”Şəxsiyyət haqqında söz demək məsuliyyəti” adlı məqalələr həmin tarix dərsi verəcək böyük kitabın rəmzi mənada ayrı-ayrı fəsillərini təşkil edir. Ona görə də ”İrəvana 7 məktub” kitabı gənclərimizin həmişəlik yaddaş kitabı olmalıdır. Çünki bu kitablardan gələn zəfər çağırışını unutmağa heç birimizin haqqı yoxdur !



Hidayətin yaradıcılıq yolu haqda ətraflı tədqiqat aparmaq üçün onun əsərlərini xronoloji cəhətdən bir neçə mərhələyə, həm də janrına görə bir neçə yerə və janra bölmək olar. Lakin məqsədimiz şairin yaradıcılıq yolunu bütövlükdə tədqiq etmək deyil, yalnız bu mənalı ömrün bəzi məqamlarından bəhs etməkdən ibarətdir. Çünki, onun əsərlərinin mövzusu və orada qoyulan məsələlərin aktuallığı; ən azı dramaturgiyası, şer yaradıcılığı, nəsri, publisistikası, jurnalistlik və teatr fəaliyyəti, ictimai-siyasi görüşləri, siyasi fəaliyyəti, Qarabağ və Qərbi Azərbaycanla bağlı olan tədqiqat və ideyaları, əsərlərindəki vətənpərvərlik və vətən həsrəti, düşmənə nifrət hissi tərbiyəsi, təlim tərbiyə məsələləri və bütün cəhətləri özündə əks etdirən Azərbaycançılıq və ən böyük Azərbaycanlı olan Heydər Əliyevin həyat və fəaliyyətinə həsr olmuş əsərləri, Respublikamızdan Qərbi Azərbaycanda yaşamış insanlar haqda olan dəyərli fikirləri, görkəmli elm, təhsil, musiqi, maarif və teatr xadimləri, əmək adamları haqda olan fikirləri və s. Hər biri ayrıca bir elmi tədqiqat işinin mövzusudur.

Hesab edirəm ki, mədəniyyət tariximiz üçün çox vacibdir ki, Hidayətin həyat və fəaliyyəti indi olduğundan daha yaxşı gələcəkdə də hərtərəfli və fundamental qaydada tədqiq olunmalı, neçə-neçə qiymətli əsərlər meydana çıxarılmalıdır.

Bütün yaradıcı insanlar kimi, Hidayətin də yaradıcılığında fərdilik və özünəməxsusluq var. Bu fərdilik ona görə qiymətlidir ki, o, milli düşüncəyə və milli təfəkkürə söykənir, dərdini şerlə bölüşür, öz özünə belə hesabat deyir:

***..İllərlə silmişəm alın tərimi***
***Nə rahat yatmışam nə dincəlmişəm.***
***Cavan qardaşımın,cavan qəbrini,***
***Bir dağ ətəyində qoyub gəlmişəm.***

Bu fikirlər təkcə şairinmi nisgilidir? Xeyr, bu yanğı bütün dədə- baba yurdlarından qovulmuş azərbaycanlıların səsidir, qaçqın və köçkünlərin səsidir. Mənim, sənin, sizin, bizim-bütövlükdə hamımızın harayıdır, Vətənə qayıdış harayıdır! Haq bağıran səsimizdir.

Hidayət həm də zamanın şairidir. O, öz təbiriylə desək, arzularının baş şəhəri olan Bakıya şöhrət dalıyca gəlməyib, əgər Migri- İrəvan-Bakı taleyinin yaxın yoludursa, əsərlərinin gələcəkdə keçəcəyi min illik şərəfli yolu müəllif dilə gətirmir. Bu da sadəlik, təvazökarlıq və müdrikliikdir. Onun əsərlərinin uzaq yoludur. Şairin məlum şəxsiyyətindən yaranan xarakterinin büruzə formasıdır.

Şair Hidayətin şəxsi keyfiyyətlərindən biri də sözünü istənilən şəraitdə birbaşa, üz-üzə, göz-gözə deməsidir. Yəqin elə buna görədir ki, onun yaradıcılığında çox ciddi və hər vaxt zamanın və ictimai fikrin fövqündə dayanan ideyalar və milli psixologiya silsilə təşkil edir və tarix də bu fikirlərin doğruluğunu təsdiq edir:

***...Çağlayan ümmanam,.***
***Büllurdan duruyam.***
***Şaxəli bir tarixəm,***
***Dibsiz bir quyuyam,***
***Uludan uluyam.***

”Bulanıq bir çay” olmayan, ”arabası sınıq-salxaq” olan yolçulara tay olmamaq istəyi şairin poeziyasına hələ XX əsrin 60-cı illərindən hakimdir. Ona görə də janrından asılı olmayaraq qələmindən çıxmış bütün əsərlərində şairin arzuları da, fikirləri də bütöv və səmimidir. O, öz yaşayışını da belə təsvir edir:

***Sevinclə kədərin qarışığında,***
***Umu-küsülərin barışığında***
***Qövsü-qüzehlərin yaraşığında***
***Zirvəyə qalxıram, dağ aşıram mən,***
***Belə yaşayıram,.. yaşayıram mən!.***

Hidayətin şer dili aydın, anlaşıqlı, axıcı, sadə, duzlu, ümumiyyətlə, Azərbaycan dilinin bütün lacivard gözəlliyini özündə əks etdirir. Demək olar ki, şair Azərbaycan şerinin bütün janrlarında yazmışdır və əsasən hamısı da yaxşı alınmış və istəyinə nail olmuşdur.

Lakin sənətkar hər şeydən yazmaq üçün bir insan ömrünün azlığından gileylənərək belə qeyd edir:

***Yağışda, yağmurda keçdi çox ay, gün,***
***Gözümü açdım ki, ötüb neçə il,***
***Bu qoca dünyanı anlamaq üçün***
***Görünür bir ömür kifayət deyil.***

Hidayətin yaradıcılığının çoxşaxəliliyi onun oxucularının da müxtəlif qruplarını yaratmışdır; uşaqlar, gənclər və yaşlı nəsil müxtəlif yaş qurupunda olan şer həvəskarları, tarixi məqamları izləyən oxucular, dövlətin mövqeyində dağ vüqarı ilə əbədi dayanan şəxsiyyət və ən vacibi əqidəsində əbədi və qəti dönməzlik olan ədəbi qəhrəmanlar...

Hidayətin çoxşaxəli yaradıcılığında milli pedaqoqika və psixologiyanın bütün komponentləri, xüsusilə milli özünüdərk, azərbaycançılıq, milli mənlik şüuru, milli təlim-tərbiyə və tərbiyənin ən gözəl əxlaqi keyfiyyətləri də əsas yer tutur.

Şair istər şerlərində və dramaturgiyasında, istərsə də nəsrində və publisistikasında qarşıya qoyulmur ki, kiməsə vətənpərvərlik hissi tərbiyə olunsun, lakin onun əsərlərindən hamı vətənin və ananın müqəddəs və əbədiliyini hər zaman duyur, hiss edir, qavrayır və bu sevgidən həzz alır:

***Bu ev baba ocağı,***
***Bu ev ata qucağı,***
***Alnımı qırışdırdı***
***Anamın qocalığı.***

Mənə görə Hidayətin əsərlərində həzz və iztirab qoşadır. O, bu məqamda şerlərində Füzuliyə, Nəsimiyə, Xətaiyə, Vaqifə, Səməd Vurğuna yaxınlaşır, tarixi-analitik publisistik yazılarında isə A.Bakıxanov, M.C.Adgözəbəyə, Ə.B.Cavanşirə, N.Nərimanov (bəzi tədqiqatçılar haqlı olaraq onun həyat və yaradıcılıq yolunun N.Nərimanovla oxşarlığını qeyd edirlər) H.Hüseynovun fikirləri ilə eyniyyət təşkil edir.

Hidayətin yaradıcılığı ilə ətraflı tanış olduqdan sonra məndə belə bir sual yarandı. Bu qədər məhsuldar işləmək də Allahın insana verdiyi xoşbəxtlik və fitri istedaddır. Hidayətə ulu tanrı bir neçə fitri qabiliyyətlər, şairlik, zəhmətsevərlik, sadəlik, müdriklik, səbirlilik və dözümlülük vermişdir. Buna əlavə olaraq yüksək səviyyədə rəhbərlik etmək qabiliyyəti, təşkilatçılıq bacarığı, hansı sahədə işləməsindən asılı olmayaraq, məsuliyyətli olmaq və dövlət orqanlarında öz xalqına vicdanla xidmət etmək!...

Elmi bəddi yaradıcılığı ilə Hidayətin xarakteri oxucular qarşısında iki cür açılır. Şair, yazıçı və dövlət xadimi. Onu yaxından tanıyanlar yaxşı bilir ki, şairliyinin incəliyi qədər də dövlət xidmətində qətiliyi var.

Hidayət dünya və Vətən tarixini, xüsusilə də müasiri olduğu XX və XXI yüzilliklərin tarixi hadisələrini bəzi tarixçilərdən çox yaxşı bilir və bu haqda çəkinmədən fikirlərini istənilən yaxın və uzaq xarici dövlətlərdə deməkdən və müsahibələrində söyləməkdən çəkinməmişdi. Belə məqamlarda onun xarakterinə xas olan əqidə dönməzliyi v qətiyyət önə keçir, fikirləri öz siyasi dürüstlüyü, müdrikliyi və doğruluğu ilə seçilir.

**Bunun canlı cavabı onun ”İrəvana 7 məktub”, ”Burdan min atlı keçdi”, ”Heydər Əliyev və Azərbaycanda milli siyasət” kitablarında və çoxlu sayda məqalə, çıxış və müsahibələrində öz geniş əksini tapmışdır. Birlikdə işlədiyimiz illərdə şairin iş rejiminə nəzər salsada görərdim ki, gün ərzində onun düşüncələri bir neçə dəfə dəyişərək, müxtəlif formalara düşür; dövlət işi, rəsmi yığıncaqlar, müsahibələr, bədii yaradıcılığı və gündəlik qayğılar, doğma kollektivi və s., bu anlarda o həm sərtliyi həm də sadəliyi yaşayırdı. Hər dəfə də onun tədbirliliyi, uzaqgörənliliyi, istedadı və digər bilik, bacarıq və vərdişləri özünü daha qabarıq şəkildə büruzə verirdi.**

**(ardı var)**

**Əlizadə NƏCƏFOV,**
**tarix elmləri namizədi**

**30.08.2007-ci il**

## *Elektron səhiyyədə inqilab*

**”Tibbi Rəqəmsal Əkiz Sisteminin tam tətbiqindən sonra vətəndaşların ilk hiss edəcəyi əsas dəyişiklik səhiyyə xidmətlərinin daha rahat, sürətli və əlaqələndirilmiş şəkildə təqdim olunması olacaq”.**

Adalet.az xəbər verir ki, bunu ”Sağlam radio”nun (93 FM) ”Sağlam səhər” efirində Rəqəmsal Səhiyyə Mərkəzinin mütəxəssisi Sevinc Məhərrəmova deyib.

Onun sözlərinə görə bu gün bir çox hallarda vətəndaşlar müxtəlif tibb müəssisələrində aparılmış müayinələrin nəticələrini, analiz cavablarını və digər tibbi sənədləri hər müraciət zamanı yenidən təqdim etməli olurlar:

”Tibbi Rəqəmsal Əkiz Sistemi isə müxtəlif səhiyyə informasiya sistemlərində formalaşan məlumatları vahid platformada birləşdirərək bu prosesləri əhəmiyyətli dərəcədə sadələşdirəcək.

Sistem daxilində məlumat mübadiləsi beynəlxalq təcrübədə geniş tətbiq olunan FHIR (Fast Healthcare Interoperability Resources) standartlarına uyğun şəkildə həyata keçiriləcək ki, bu da müxtəlif informasiya sistemləri arasında məlumatların təhlükəsiz, çevik və strukturlaşdırılmış formada paylaşılmasını təmin edəcək. Nəticədə həkimlər pasiyentin tibbi tarixçəsinə daha operativ çıxış əldə edəcək, bu da daha əsaslandırılmış klinik qərarların qəbuluna şərait yaradacaq.

Məlumatların vahid mühitdə əlçatan olması təkrar analiz və müayinələrin sayının azalmasına, vaxt itkisinin minimuma enməsinə və xidmətlərin daha səmərəli təşkilinə imkan verəcək”.

Mütəxəssis qeyd edib ki, sistemin mühüm komponentlərindən biri olan e-Randevu xidməti də vətəndaşların səhiyyə xidmətlərinə çıxışını daha da asanlaşdıracaq:

**”Bu xidmət vasitəsilə vətəndaşlar yalnız həkim qəbuluna elektron qeydiyyatdan keçmək deyil, eyni zamanda həkimlərin onlayn konsultasiyalarına qoşulmaq imkanı əldə edəcəklər. Beləliklə, tibbi məsləhət almaq, müalicə prosesini planlaşdırmaq və bəzi hallarda məsafədən tibbi xidmətlərdən yararlanmaq daha rahat və əlçatan olacaq. Gələcəkdə vətəndaşlar öz sağlamlıq məlumatlarını vahid platformada izləyə, tibbi tarixçələrinə daha rahat çıxış əldə edə və profilaktik tədbirlər barədə vaxtında məlumat ala biləcəklər. Beləliklə, Tibbi Rəqəmsal Əkiz Sistemi səhiyyə xidmətlərinin daha müasir, əlçatan və vətəndaş mərkəzli şəkildə təqdim olunmasına töhfə verəcək”.**



İlqar KAMİL

## Salam olsun İŞIĞA!

Aşuranı yaradan, şəkilləndirən və YAŞADAN səbəblər var, sonuncu haqda ən az danışılıb. Əslində isə, ən vacib məqam elə odur. Sual: Aşura niyə yaşayır, niyə unudulub tarixə qovuşmur, niyə ildən ilə korşalmır, əksinə, daha da canlanır? Və ən əsası, Aşura niyə məhz belə yaşayır - isti, canlı, qanlı, hərarətli...!

Bu haqda çox danışmaq olar, lakin məncə, ən birincisi İlahi iradədir - Allah özü istəyib ki, o yaşasın. Allah özü istəyib ki, o məhz belə yaşasın!

Hərdən mənə elə gəlir ki, burda bizlik heç nə yoxdur, İlahi iradə tarixin bir dönəmində ən uyğun şəxsiyyətlərin vasitəsiylə ÖZÜNÜN BİLDİYİ hədəflər üçün möhtəşəm bir əsər yaradıb, və istəyib ki, məhz bu əsəri əbədiyyətəcən yaşasın! Hər il də dünyanın müxtəlif yerlərindən milyonlarla bəndələrini çıxarır meydana və öz SEVİMLİ ƏSƏRİNİ öz hədəfləri üçün yenidən suvarır, yenidən aktuallaşdırır:

bu AĞAC qurumamalıdır!

Bu bir İlahi iradədir, biz də ustufca onun icra edənləri.

Bu gün Aşuradır.

İlahi iradə yenidən meydan oxuyur bütün qaranlıqlara!

Bu gün il boyu yüksək tonda danışan bütün qüdrətlər susur və dinləyir:

Söz İlahi iradənindir!

Salam olsun ədalətin səsinə!

Salam olsun ləyaqətin nidasına!

Salam olsun Haqqın batili lərzəyə gətirən sədasına!

Salam olsun İŞIĞA!

## *Bakını bürüyən uçan qarışqalar xəstəlik yayır?*

**Paytaxt ərazisində son günlər qanadlı qarışqaların sayında nəzərəçarpacaq artım müşahidə edilir.**

Adalet.az xəbər verir ki, sosial şəbəkələrdə paylaşılan videolarda çoxlu sayda həşəratın xüsusilə işıq mənbələrinin ətrafında toplandığı görünür.

Məsələ ilə bağlı ekoloq Ənvər Əliyevin sözlərinə görə, bu hal əsasən hava şəraitində baş verən kəskin temperatur dəyişiklikləri ilə əlaqədardır.

Mütəxəssis qeyd edib ki, qanadlı qarışqalar küləyin təsiri ilə böyük məsafələr qət edərək müxtəlif ərazilərə yayıla bilirlər.

Uçan qarışqalar evlərə daxil olduqda, yeməklərin üstünə toxunanda məhsulları çirkləndirə və bəzi insanlarda allergik təsir yarada bilər. Bu kiçik canlılar başqa fəsadlara da yol aça bilər. Bizim özümüzün xəbəri olmadan həmin həşəratlar xəstəliyi yaya bilərlər. Bəzi parazitlər isə onların yumurtaları ilə qidalanırlar.

Mütəxəssislər bu həşaratdan qorunmaq üçün vətəndaşlara evlərdə və həyətlərdə təmizliyə diqqət yetirməyi, qida məhsullarını açıq saxlamamağı, pəncərə və qapılarda qoruyucu torlardan istifadə etməyi tövsiyə edirlər.

Məsələyə münasibət bildirən biologiya üzrə fəlsəfə doktoru Gülər Hüseynzadə qeyd edib ki, yaşayış məntəqələrində qanadlı qarışqaların görünməsi onların mövsümi çoxalma mərhələsi ilə bağlıdır. Onun sözlərinə görə, yazın sonu və yayın əvvəlində qanadlı fərdlər cütləşmək məqsədilə yuvalarını tərk edirlər və bu hal insanlar üçün təhlükə yaratmır.

Mütəxəssis bildirib ki, həşəratların sayının çox olduğu hallarda efir yağları və ya xüsusi insektisid vasitələrdən istifadə etməklə onları uzaqlaşdırmaq mümkündür.

## *"Titanik"dən tapılan əşyaların satışına icazə verilmədi*

**ABŞ hökuməti "RMS Titanic Inc." şirkətinin batmış "Titanik" laynerindən çıxarılan 100-dən çox əşyanı hərracda satışa çıxarmaq planlarına qarşı çıxıb.**

Adalet.az xəbər verir ki, bu barədə "Associated Press" nəşri məhkəmə materiallarına istinadən məlumat yayıb.

Bildirilib ki, lotların siyahısına sərnişinlərin şəxsi əşyaları, məişət əşyaları, interyer elementləri və pul əsginasları daxildir. Nəşrin məlumatına görə, artefaktların satışı əvvəllər əldə edilən razılaşmalara ziddir. Belə ki, həmin razılaşmalara əsasən, bu əşyalar yalnız muzey ekspozisiyaları üçün istifadə oluna bilər.

ABŞ-nin Milli Okean və Atmosfer Araşdırmaları İdarəsi (NOAA) isə öz növbəsində tapıntıların kommersiya məqsədilə satışının şirkətin hüquqi öhdəliklərini pozduğunu açıqlayıb.

Qeyd edək ki, uzun illər ərzində 1912-ci ildə batan gəminin tədqiqi hüquqlarına sahib olan "RMS Titanic Inc." şirkəti büdcəsini doldurmaq və ekspedisiya xərclərini ödəmək üçün dəfələrlə kolleksiyanın bir hissəsini satmağa cəhd göstərib. Lakin bu təşəbbüslər hər dəfə məhkəmə orqanları və mədəni irsin qorunması təşkilatları tərəfindən əngəllənib.

**Cahangir MƏMMƏDLİ,**
**Filologiya elmləri doktoru, professor**



# Faiq Qismətoğlu yazır...

Mən Azərbaycan jurnalistikasında, bütövlükdə media sistemində öz yazı üslubu, publisistik yaradıcılığı ilə ictimai rəydə ayrıca yeri olan Faiq Hüseynov - Faiq Qismətoğlu haqqında yazıma bu başlığı nahaqdan seçmədim. Bu başlıq Faiqin uzun müddətdən bəri Vatsap ünvanının göstəricisi kimi çoxumuza tanışdır. Və yaradıcılığa başladığı zamandan özünə imza seçdiyi "Faiqoğlu" sözünün də qəribə taleyi var. Bu qəribəlik birbaşa Tanrı sevgisilə bağlıdır: Ulu Tanrı Faiqi 1956-cı il iyulun 1-də hamin o cavan Qismətə qismət payı vermişdir. Qismətdən Qismətə belə bir oğul payının Tanrı vergisi özünü çox tez doğrultmuşdu: Füzuli rayonunun Böyük Bəhmənli kəndində doğulan bu Tanrı qisməti 1973-cü ildə həmin kəndin orta məktəbini bitirmiş, 1974-cü ildə Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) Jurnalistika fakültəsinə daxil olmuşdur. Mən Faiqin bioqrafiyasının bu cümləsindən sonrakı faktlarını bir müəllim - şahid formatında qeydləri bu bioqrafiyaya baxmadan özüm davam etdirmək istərdim.

Əvvəlcə onu deyim ki, hər hansı bir ali məktəbin fakültəsində təhsil alan yüzlərlə tələbənin heç də hamısı müəllimin yadında qalmır. Yalnız o tələbə birbaşa müəllimin yaddaşına yazılır ki, həmin tələbə özünün təhsilə marağı, Universitetin, fakültənin ictimai işlərindəki fəallığı ilə diqqət çəkir. Yaradıcı fakültələrin tələbələri isə həm də öz ixtisasına elə tələbəlik illərindən maraq göstərmələri ilə yadda qalırlar. Şəxsən bir müəllim kimi tələbəni öz yaddaşıma köçürmək prosesi onun yaradıcılığa sevgisi ilə formalaşır. Mənim belə tələbələrim çox olub və onların içərisində Faiq də ayrıca yer tutur. Təhsil aldığı Jurnalistika fakültəsinin hələ birinci kursundan özünü jurnalist kimi göstərən Faiq Hüseynov fakültəni bitirəndən dərhal sonra Bakı Radio zavodunda nəşr olunan "İmpuls" qəzetində müxbirliyə başladı. 1990-cı il iyulun 25-dən "Ədalət" qəzetində şöbə müdiri vəzifəsində çalışmaqdadır. O da yaxşı yadımdadır ki, ədəbi-bədii, publisistik yaradıcılığı ilə hələ lap cavan vaxtlarından Azərbaycan ədəbi-ictimai fikrində böyük hörmət qazanmış Aqil Abbas həmişə özünün bitirdiyi Filologiya və Jurnalistika fakültələri ilə qırılmaz əlaqələr yaratmışdı. Məhz elə yəqin buna görəydi ki, bir gün məndən "İmpuls" qəzetinin müxbiri Faiq Hüseynovun yaradıcılıq xarakterini, fakültənin necə qiymətləndirdiyini soruşdu. Mən Faiqin elə o vaxtlardan yetkin bir jurnalist olduğunu mənə inanan Aqil Abbasa söylədim. Və cəmi bir neçə gün sonra Aqil Abbasın yaratdığı və bu gün də fəaliyyət göstərən "Ədalət" qəzetində Faiqin - Faiq Qismətoğlunun məhsuldar yazılarını izləməyə başladım.

Mən bu yerdə bir daha Qismətə qismətin Tanrı sevgisinə qayıtmaq istərdim: Tanrı Faiqə elə bir iş yeri, elə bir qəzet qismət elədi ki, bunun elə təkcə ünvanı Tanrı sevgisinin əyani ifadəsi oldu: "Ədalət". Aqil Abbasın ədalətinin canlı ifadəsi olan "Ədalət" qəzeti öz yaradıcı kollektivinə daha bir ədalətli jurnalist qəbul elədi...

Jurnalaitikamızda fəaliyyət göstərən hər kəs yəqin ki, Faiq Qismətoğlunun "Ədalət" qəzetindəki yaradıcılığına bələddir. Şəxsən mən də həm bir oxucu kimi, həm də Faiq yaradıcılığının pərəstişkarlarından biri kimi bu imzanı daim izləyirəm. Həm də ona görə ki, "Ədalət" qəzeti özünün tipoloji xarakteri ilə mənə doğma bir mətbuat orqanıdır. Faiqin bu qəzetdə indiyədək ən azı 6-7



min yazısı dərc olunub. Bu yazılar təkcə günün ən aktual mövzularını əks etdirməklə deyil, həm də bu mövzulara Faiqin orijinal üslubu onları oxunaqlı edir.

Əlbəttə, Faiq "Ədalət" də şöbə müdiridir. Onun bu vəzifəsi təkcə öz yazılarını deyil, həm də qəzetin digər əməkdaşlarının da yazılarına məsuliyyət daşıması ilə diqqət çəkir. Faiq öz yaradıcılığına mükəmməl fərdi üslub və probleme yanaşma ustalığı ilə maraq doğurur. O, müraciət etdiyi hər bir mövzunun hansı janrda daha dolğun ifadəsinə xüsusi diqqət yetirir. Bu mənada Faiq daha çox publisistikaya güvənir. Onun probleme publisistik yanaşması oxucuda xüsusi maraq doğurur. Jurnalistin publisistik yazıları sırasında "Beyin axını", "Gülməli və ağlamalı", "Sənə yol göstərərəm", "Kəndinə oxşayan adam" kimi əsərləri problemin publisistik ümumiləşdirilməsi ilə birbaşa maarifçiliyə xidmət edir.

Faiq Qismətoğlunun "Qardaş", "Nazirdən, Komitə sədrindən akademik olmaz", "Usta Zeynal və ...", "Bir ömrün tablosu", "Bizi niyə aldadırlar?", "Məktəb zavod deyil, cənablar!", "Saralmış yarpaqlar", "Onlar sanki bir mələkdi", "Dünyanın ən yaxşı adamı", "Səssiz ölüm" kimi yazıları elə sərlövhələrindən müəllifin - publisistin müşahidə bacarığını, tematika zənginliyini sübut edir.

Mən hələ Faiqin tələbəlik illərindən onun yüksək mütailə həvəsini hiss etmişdim. Klassik və müasir bədii ədəbiyyata marağı onu bədii yaradıcılığa da sövq etmişdir. Bu həvəs onu "Düyün" kimi maraqlı bir povest, "Sədr atı" və s. kimi hekayələr toplusu olan "Düyanın o üzü" kitabının ərsəyə gəlməsinə səbəb olmuşdur. Elə bədii ədəbiyyata güclü həvəsindən gələn bir faktdır ki, Faiq özünün həm publisistikasında, həm də vatsap ünvanında poeziyamızın Məmməd Araz, Ramiz Rövşən, Seyran Səxavət kimi ustadlarından gətirdiyi poetik sətirlərə söykənərək günün aktual problemlərini gündəmə gətirməkdədir.

Faiq yaradıcılığı məktəbə, müəllim obrazına, təhsilə çox bağlıdır. Onun belə bir fikri var: "Biz bütün uğurlarımız üçün göydə Allaha, yerdə müəllimlərə borcluyuq". Faiqin bu düşüncəsi onun müəllim əməyi ilə bağlı bütün yazılarının leytmotividir. O da təsadüfi deyil ki, lap bu yaxınlarda Azərbaycanın orta məktəblərində özünü göstərən məzun buraxılışı Faiqi bərk kövrətmişdi... Elə bu hissləri ilə bağlı bir esseni də beləcə adlandırmışdı: "Elə kövrəldim ki..." Faiq bu kövrək essesində orta məktəb məzunlarına xitabən özünün yarım əsr bundan əvvəl Böyük Bəhmənli kənd orta məktəbindəki məzun gününü xatırladır və müasir gəncləri məktəb həyatını sevməyə, qədəm qoyduqları yeni həyatda özlərini qurmağa çağırır. Essenin əsas istiqaməti yenə də şagird-müəllim münasibətlərinə yönəlir və müəllim müqəddəsliyinin şagirdlərə nümunə olduğuna xüsusi diqqət yetirilir.

Faiqin bu essesini oxuyub mən özüm də orta məktəbi bitirdiyim günü xatırlayıb kövrəldim. Beləcə, Faiq qələmə aldığı bütün yazılarında hər kəsi düşünməyə, Vətənin, xalqın, Azərbaycanımızın qədrini bilməyə və bu xoşbəxt çağımızın ədəbi olmasına xidmət etməyə çağırır və Faiqin bu çağırışa haqqı var. Çünki özü bu günlərdə tamam olan 70 illik ömrünü məhs bu ideallarla yaşamışdır.

Faiq harda olursa-olsun kollektivdə seçilən və bəyənilən iş yoldaşıdır. "Ədalət" qəzetinin yaradıcı kollektivi onu ən əziz adamları kimi qəbul edirlər. Faiq 46 il bundan əvvəl bizim Jurnalistika fakültəsini bitirib. Amma onun tələbəlik illərindən yarım əsr keçməsinə baxmayaraq özünü həmişə bu fakültənin tələbəsi hesab edir.

Faiq atası Qismətin ocağında və Bakı Dövlət Universitetində Vətənə sevgi ilə böyümüş və tərbiyə almışdır. Təsadüfi deyil ki, o, Birinci və İkinci Qarabağ döyüşlərində ən fəal jurnalist kimi iştirak etmiş, Vətən müharibəsinin cəbhə xəttindən neçə-neçə canlı reportajlarını "Ədalət"in səhifələrinə yerləşdirmişdir.

Uşaqlıq və gənclik illərini Füzulidə yaşamış Faiq bu doğma torpağın düşmən tərəfindən işğalı zamanı da, Böyük Zəfərimizdən sonra burda başlanan bu günkü quruculuq çağında da hər bir Füzulili kimi, həm də bir jurnalist kimi doğma torpağın sakinlərinin yanında olmuşdur. Faiqin publisistik yazılarının ən çoxu bu doğma torpağa həsr olunub. Elə bu yazılara görə publisist "Dan ulduzu", "Qızıl qələm" mükafatlarına, "Əməkdar jurnalist" adına layiq görülmüşdür. Mən də Faiqi həm bir müəllim kimi, həm də jurnalist həmkarım kimi 70 illik yubileyini təbrik edir, ona yeni-yeni yaradıcılıq illəri arzulayıram.

# DUYĞULARIN, HƏSRƏTİN VƏ QADIN QƏLBİNİN ŞAİRİ



*Burhan AĞAYEV,*
*Metodist və Ali kateqoriyalı müəllim*

(əvvəli ötən sayımızda)

**O, zahirən hərəkətdədir, daxilən isə eyni ağrının nöqtəsində donub qalmışdır. ”Hər gecə hönkürən bir qadın ölür, Səhərlər dip-diri açır gözünü” misraları qadının daxili dözümünü və eyni zamanda çəkdiyi əzabın sonsuzluğunu ifadə edir. O, hər gün öz dərdləri ilə çarpışır, lakin sabahısı gün həyata yenidən, heç nə olmamış kimi davam etmək məcburiyyətindədir. ”Ömrünü min dərdə, qayğıya bölən” bu qadın tipik fədakar qadın obrazıdır. Şeirdə payız elementləri, arzulara qar yağması qadının ümidlərinin solmasından xəbər verir. Bu ağır real dünyadan qaçış nöqtəsi isə ”on yaşının nağılları”dır. O, durnalarla uşaqlığına qayıdır, çünki indiki zaman ona yalnız ağrı və soyuqluq (”Hər isti kəlmədən üşüyən qadın”) bəxş edir. Nəticə olaraq, şeirin son bəndi şeirin ümumi fəlsəfəsini mükəmməl şəkildə xülasə edir. Qadın hər şeyə rəğmən ”bir tikə ümidə şükr edir”. Onun yolu tənha və uzun olsa da, daxilindəki nağıl və ümid tükənmir. Müəllif bu obraz vasitəsilə bəşəri bir qadın dözümünü, tənhalığını və eyni zamanda ruhun əyilməzliyini poeziyanın dili ilə bədii şəkildə əbədiləşdirmişdir.**

Onun yaradıcılığının əsas xüsusiyyətlərindən biri də dil sadəliyidir. Aləmzər Sadıqqızı mürəkkəb poetik konstruksiyalara və süni bədii ifadələrə meyl göstərmir. O, xalq danışıq dilinə yaxın, axıcı və anlaşıqlı üslubdan istifadə edir. Bu sadəlik isə şeirlərin təsir gücünü azaltmır, əksinə, onları daha da səmimi və təsirli edir. Oxucu şeiri oxuyarkən müəlliflə öz arasında görünməz bir mənəvi körpü qurur. İnsan hər itki ilə bir az əksilir, hər ayrılıqla içindəki bir ocağın sönüşünə şahidlik edir. Lakin elə itkilər var ki, onlar insanı sadəcə tənhalığa məhkum etmir, həm də ətrafındakı bütün canlı və cansız aləmi o itkinin diliylə danışmağa vadar edir. Aləmzər Sadıqqızının ”Bir yerdə ölək” şeiri məhz belə bir daxili fəryadın, zamana və məkana sığmayan böyük bir sevgi və kədərin poetik təzahürüdür. Bu şeir, sadəcə bir ayrılıq nəğməsi deyil, həm də gedişiylə dünyanı bomboş qoyan bir can sirdaşının, ömür-gün yoldaşının ardınca çəkilən ruhsal bir hesabatdır. Müəllif qadın qəlbinin, vəfalı bir ömür yoldaşının bədii söz qüdrəti ilə oxucunu xatirələrin yandırıb-yaxdığı bir evə qonaq edir və orada zamanın necə dayandığını, hər əşyanın necə bir həsrət daşıyıcısına çevrildiyini hiss etdirir.

***Hər tərəfdə xatirən var,***
***Evim -esiyim alışır***
***Hər şey mənimlə susur,***
***Hər nə var mənlə danışır...***
***Ötür günlər, aylar sənsiz,***
***Göydə Ayım darıxır...***
***Adına bişən yemək də ,***
***Qazanda payın darıxır...***
***Necə çıxıb getmişənsə,***
***Unutmusan qayıtmağı...***
***Bircə saatlığa dön gəl,***
***Öyrət mənə unutmağı...***
***Sənsiz yağan yağışları ,***
***Əsən küləkləri neynim...***
***Sənsiz tutulan hava tək,***
***Mənim də açılmır eynim...***
***Bu gün sənin ölən, günün***
***Ruhunla gəl, deyib-gülək...***
***Mən indi ölürəm sənsiz***
***Qayıt gəl...bir yerdə ölək.***

Aləmzər Sadıqqızının qələmindən çıxan bu poetik nümunə, lirik qəhrəmanın daxili dünyasını, onun psixoloji sarsıntılarını və keçirdiyi mənəvi böhranı bədii şəkildə ortaya qoyur. Şeir həm strukturu, həm də daşıdığı emosional yük baxımından dərin bir daxili monoloqdur. Şeirin ilk bəndlərindən etibarən müəllif ətraf mühiti lirik qəhrəmanın daxili aləminin bir parçasına çevirir. ”Ev-eşiyin alışması”, ”Ayın darıxması” və xüsusilə Azərbaycan məişətinə, ailə mədəniyyətinə xas olan çox incə bir detal, ”Adına bişən yemək də, qazanda payın darıxır” ifadəsi poeziyada az rast gəlinən, lakin səmimiyyəti ilə insanı sarsıdan, bir qadın həssaslığını göstərən möhtəşəm bir tapıntıdır. Qazandakı payın darıxması, itkinin sadəcə mənəvi deyil, fiziki olaraq da hər an hiss edildiyini göstərir. Yuxarıda ayrıca qeyd olunan dördüncü bənddə isə şairə təbiət hadisələri ilə insanın daxili ovqatını sintez edir. Yağış və külək təkbaşına heç bir məna kəsb etmir, onlar yalnız sevilən insanla birgə olanda gözəldir. ”Havanın tutulması” ilə lirik qəhrəmanın ”eyninin açılmaması” arasındakı paralel, insan ruhunun təbiətlə bərabər rəng almasını, sevgilisiz bu dünyanın rəngini itirdiyini simvolizə edir. ”Bircə saatlığa dön gəl, öyrət mənə unutmağı...” misrası isə şeirin fəlsəfi düyün nöqtəsidir. Qayıtması istənilən insandan onu unutmağın yolunu öyrətməsini xahiş etmək, əslində unutmağın qeyri-mümkünlüyünü və bu sevginin əbədiliyini bəyan etməkdir. Şeirin son bəndi bir çağırış, bir əhdin yenilənməsidir. Müəllif ayrılığın ildönümündə (”Bu gün sənin ölən günün”) fiziki ayrılığı qəbul edir, lakin ruhların dialoquna inanır. Son misralardakı ”Mən indi ölürəm sənsiz, qayıt gəl... bir yerdə ölək” nidası, ölümün belə bu sevgini ayıra bilməyəcəyinə, əsl hüzurun və qovuşmağın ancaq o dünyada, bir yerdə ölməklə mümkün olacağına olan mistik və ülvi inamı ifadə edir. Aləmzər Sadıqqızının bu şeiri həm sadə, xalq dilinə yaxın ifadə tərzi, həm də daxili ritmi və qafiyə düzümünün mükəmməlliyi ilə oxucunun qəlbinə birbaşa toxunmağı bacarır.

Şairənin poeziyasında mənəvi dəyərlərə bağlılıq da mühüm yer tutur. O, insanlığı, mərhəməti, vicdanı, dostluğu və sədaqəti yüksək dəyərlər kimi təqdim edir. Müasir dövrdə mənəvi aşınmaların artdığı bir zamanda Aləmzər Sadıqqızının şeirləri oxucunu düşünməyə, öz daxilinə boylanmağa və həyatın əsl dəyərlərini yenidən dərk etməyə çağırır.

Aləmzər Sadıqqızı yalnız hisslərin deyil, həm də həyat həqiqətlərinin şairəsidir. Onun misralarında insan ömrünün faniliyi, zamanın sürətli axını və taleyin gözlənilməz dönəmləri əks olunur. Şairə həyatın çətinliklərini gizlətmir, əksinə, onları olduğu kimi göstərir və insanı mənəvi gücə, dözümlülüyə səsləyir. ”Gəlmişəm” şeirində ”Dərdli payızımsan, ya baharımsan?” və ”Mənəm, yanağından axıb gəlmişəm” misralarına baxaq.

”Gəlmişəm” şeiri sevginin, həsrətin və mənəvi bağlılığın poetik ifadəsidir. Şairənin ”Dərdli payızımsan, ya baharımsan?” misrasında sevgili obrazı həm kədərin, həm də sevincin mənbəyi kimi təqdim olunur. Payız ayrılığı, nisgili və solğunluğu simvolizə etdiyi halda, bahar yenilənməni, ümid və xoşbəxtliyi ifadə edir. Bu sual sevgilinin şair taleyində hansı yer tutduğunu deyil, əslində onun bütün duyğularının mərkəzində dayandığını göstərir.

”Mənəm, yanağından axıb gəlmişəm” misrası isə son dərəcə təsirli və obrazlıdır. Burada şairə özünü sevgilinin yanağından süzülən göz yaşına bənzədir. Bu bənzətmə sevginin nə qədər saf, kövrək və ağrılı olduğunu nümayiş etdirir. Şairə sanki sevgilinin qəmində, sevincində və duyğularında yaşayan bir varlığa çevrilmişdir.

Ümumilikdə, ”Gəlmişəm” şeirində bu misralar sevginin həm ağrı, həm də səadət gətirən sirli mahiyyətini açır, aşiq qəlbinin səmimiyyətini və fədakarlığını oxucuya dərin poetik çalarlarla çatdırır.

Müasir Azərbaycan poeziyasında Aləmzər Sadıqqızının özünəməxsus yeri vardır. O, böyük iddialarla deyil,



səmimi duyğularla oxucuların qəlbinə yol tapmışdır. Onun şeirləri yüksək səslə deyil, ürəyin səsi ilə danışır. Məhz buna görə də müxtəlif yaş qruplarından olan oxucular onun yaradıcılığına maraq göstərirlər.

Bu gün Aləmzər Sadıqqızının adı Azərbaycan ədəbi mühitində hörmətlə çəkilən qadın şairələr sırasında yer alır. Onun yaradıcılığı insan qəlbinin incə duyğularını, qadın ruhunun dərinliklərini və həyatın mənəvi həqiqətlərini əks etdirən qiymətli poetik irsdir. Şairənin misralarında sevgi də var, həsrət də var, ümid də var, həyatın ağrıları da. Lakin bütün bunların fövqündə insanı yaşamağa, sevməyə və mənəvi saflığı qorumağa çağıran bir işıq var.

Şairənin ”Bağışla...” şeiri başdan-başa etiraf, peşmanlıq və kövrək duyğular üzərində qurulmuş səmimi bir poetik nümunədir. Şeirin ən təsirli misralarından biri olan ”Döydü tale məni, döydü qəm məni” ifadəsi lirik qəhrəmanın ömür yolu boyunca üzləşdiyi ağrıların, sınaqların və mənəvi sarsıntıların ümumiləşdirilmiş bədii ifadəsidir.

Bu misrada ”tale” və ”qəm” canlı bir qüvvə kimi təqdim olunur. Şairə taleyin sərt zərbələri qarşısında əzildiyini, qəm-kədərin onu yorduğunu bildirir. Burada ”döydü” sözü sadəcə məcazi məna daşımır, həm də həyatın insan ruhunda açdığı dərin yaraları hiss etdirir. Misranın təsir gücü ondadır ki, oxucu burada yalnız bir insanın deyil, həyatın müxtəlif sınaqlarından keçmiş hər kəsin ağrısını görə bilir.

Şeirin ümumi ruhunda bu misra müəllifin incitmək istəmədiyi bir qəlbə üz tutaraq öz yaralarını göstərməsi, keçdiyi çətin yolları anlatması kimi səslənir. Sanki şairə demək istəyir ki, etdiyi səhvlərin, yaşadığı kövrəkliyin arxasında onu illərlə sarsıdan tale və qəm dayanır.

Beləliklə, ”Bağışla...” şeirində ”Döydü tale məni, döydü qəm məni” misrası insan taleyinin sərt üzünü, həsrətin və kədərin ruhda açdığı izləri böyük səmimiyyət və təsirli poetik dillə ifadə edən yaddaqalan bədii nümunə kimi diqqəti cəlb edir.

Aləmzər Sadıqqızının poeziyası göstərir ki, həqiqi şeir yalnız söz sənəti deyil, həm də qəlbin danışığıdır. Onun yaradıcılığı bu gün də oxucuların duyğularına toxunur, onları düşündürür və mənəvi zənginliyə səsləyir. Bu isə əsl şair üçün ən böyük uğurdur. Bəzən insanın içində elə yaralar olur ki, onları nə zaman sağaldır, nə də təsəlli. O yaralar qəlbin ən dərin qatlarında kök salaraq ömrün bütün fəsillərinə yayılır. Aləmzər Sadıqqızının ”Ölümlə oynayıram...” şeiri də məhz belə bir ruh halının poetik etirafıdır. Bu şeirdə sevginin gətirdiyi ağrı, itirilmiş arzuların nisgili və taleyin sərt üzü ilə üz-üzə qalan bir qadın qəlbinin fəryadı səslənir. Şairə həyatını fəsillərin dili ilə danışır, yaşanmayan baharların, görülməyən yayların acısını misralara köçürür. Xüsusilə şeirdəki üçüncü bənddin ilk iki misrası ömrün yarımçıq qalmış arzularını və zaman qarşısında aciz qalan insanın daxili sarsıntılarını son dərəcə təsirli şəkildə əks etdirir.

***”Nə bahar yaşadı, nə yayı gördü...***
***Ömrün payızına ağlayan gözüm.”***

Bu misralarda şairə öz taleyinin ümumiləşdirilmiş mənzərəsini yaradır. Ədəbiyyatda bahar adətən ümidin, sevincin, gəncliyin və xoşbəxtliyin rəmzi kimi təqdim olunur. Yay isə həyatın ən gözəl, ən dolğun çağlarını simvolizə edir. Lakin lirik qəhrəman etiraf edir ki, onun gözü nə baharın sevincini yaşayıb, nə də yayın hərarətini görüb. Bu ifadə insan ömründə yaşanmalı olan xoş günlərin tale tərəfindən əlindən alınmasını göstərir.

İkinci misrada işlənən. ”Ömrün payızına ağlayan gözüm” ifadəsi isə dərin poetik yük daşıyır. Payız burada yalnız bir fəsil deyil, ömrün solğunlaşan, saralan və xəzanlaşan dövrünün rəmzidir. Şairənin gözü öz taleyinin bu xəzan çağına baxıb ağlayır. Bu göz yaşları yalnız kədərin deyil, həm də həyata keçməyən arzuların, yaşanmayan sevgilərin və gecikmiş ümidlərin göz yaşlarıdır.

Misraların təsir gücü ondadır ki, şairə dərdini sadəcə söyləmir, onu təbiətin dili ilə canlandırır. Bahar, yay və payız qarşılaşdırması insan ömrünün mənəvi xəritəsinə çevrilir. Oxucu hiss edir ki, burada ağlayan təkcə bir cüt göz deyil, ömrünün ən gözəl çağlarını həsrətlə yola salmış bir ürəkdir. Bu səbəbdən həmin misralar şeirin ən kövrək və ən düşündürücü poetik məqamlarından biri kimi yadda qalır.

**Aləmzər Sadıqqızının yaradıcılığı bir daha sübut edir ki, həqiqi poeziya zamanın sərhədlərinə sığmır. Səmimi duyğular, saf hisslər və insan qəlbinin dərinliklərindən gələn sözlər hər dövrdə öz oxucusunu tapır. Onun şeirlərində yaşayan sevgi, həsrət, mərhəmət və mənəvi saflıq gələcək nəsillər üçün də dəyərli bir mənəvi xəzinə olaraq qalacaqdır. Şairənin misraları oxucunu yalnız duyğulandırmır, həm də düşündürür, insanın öz daxilinə nəzər salmasına kömək edir. Məhz buna görə Aləmzər Sadıqqızının poeziyası müasir Azərbaycan ədəbiyyatında özünəməxsus yer tutur və onun qələmi hələ uzun illər oxucuların qəlbində işıq saçmağa davam edəcəkdir. Sözə, duyğuya və insan ruhuna xidmət edən belə sənətkarların varlığı ədəbiyyatımızın ən böyük mənəvi zənginliklərindən biridir.**

## *Qaradağda tarixi karvansaraya ziyan vurulub*

**Qaradağ rayonu ərazisində yerləşən, ölkə əhəmiyyətli memarlıq abidəsi olan 108 inventar nömrəli karvansaraya qanunsuz müdaxilə edilib. Hadisə barədə məlumat daxil olduqdan dərhal sonra Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin Bakı Regional İdarəsinin əməkdaşları tərəfindən əraziyə baxış keçirilib.**

Bu barədə Adalet.az-a Dövlət Xidmətindən məlumat verilib.

Araşdırma zamanı müəyyən edilib ki, abidənin üzərindəki tarixi yazıların və tamğaların səthini qum-sement məhlulu ilə örtərək abidəyə ziyan vurulub.

Dövlət Xidməti tərəfindən həyata keçirilən operativ tədbirlər nəticəsində müdaxilənin izləri aradan qaldırılıb, tarixi elementlərin üzərini örtən material təmizlənərək abidənin ilkin vəziyyətinin bərpası təmin edilib.

Faktla bağlı İnzibati Xətalar Məcəlləsinin 231.3-cü maddəsinə əsasən mədəni və təbii irsin, o cümlədən ”Tarix və mədəniyyət abidələrinin qorunması haqqında” Azərbaycan Respublikası Qanununa uyğun olaraq tarix və mədəniyyət abidələrinin qorunması və istifadəsi üzrə tələblərin pozulmasına görə hadisəni törətmiş şəxslərin məsuliyyətə cəlb olunması ilə bağlı müvafiq tədbirlər görülür.

”Tarix və mədəniyyət abidələrinin qorunması haqqında” Azərbaycan Respublikası Qanununun əsasən, abidələrin korlanması və ya məhv edilməsi, Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidməti ilə razılaşdırılmadan başqa yerə köçürülməsi, eləcə də onların toxunulmazlığını pozan və onlar üçün təhlükə yaradacaq tikinti-quraşdırma, bərpa, rekonstruksiya, konservasiya işlərinin və ya abadlaşdırma tədbirlərinin aparılması qadağandır.

Qədim karvan yolları üzərində yerləşən Qaradağ rayonu ərazisində bir neçə karvansara mövcuddur. Onlardan biri də Səngəçal karvansarası kimi tanınan sözügedən tarixi tikilidir.

XV əsrdə inşa edilən abidə tarixən karvan yollarından istifadə edən tacirlərin və səyyahların dayanacaq məkanı kimi fəaliyyət göstərib. Son dövrlərə qədər isə iaşə obyekti kimi istifadə olunub.

**Dövlət Xidməti tarix və mədəniyyət abidələrinin mühafizəsi sahəsində qanunvericiliyin tələblərinə ciddi əməl olunmasının vacibliyini bir daha xatırladır və vətəndaşları, eləcə də müxtəlif fəaliyyət sahələrinin nümayəndələrini mədəni irs nümunələrinə həssas yanaşmağa, onların qorunması işində məsuliyyətli mövqe nümayiş etdirməyə çağırır.**

## *Bakcell-in dəstəyi ilə keçirilən “SummerStack Bootcamp” başladı*

**Bakcell və Peerstack Academy-nin tərəfdaşlığı ilə həyata keçirilən ”SummerStack Bootcamp” proqramının açılış tədbiri keçirilib. Tədbir çərçivəsində iştirakçılar tədris proqramı, mentorluq mexanizmi və inkişaf imkanları ilə tanış olublar.**

Adalet.az xəbər verir ki, tədbirdə Bakcell-in İctimaiyyətlə əlaqələr və korporativ kommunikasiyalar üzrə direktoru Aysel Süleymanova çıxış edərək gənclərin inkişafına və rəqəmsal bacarıqların artırılmasına yönəlmiş təşəbbüslərin əhəmiyyətini vurğulayıb. O bildirib ki, ”SummerStack Bootcamp” proqramı iştirakçılara proqramlaşdırma sahəsində



möhkəm bilik bazası formalaşdırmaqla yanaşı, onları real layihələr və praktiki yanaşmalar vasitəsilə peşəkar inkişaf yoluna hazırlayır.

Qeyd edək ki, üç ay davam edəcək proqram iştirakçılara müasir proqramlaşdırma alətləri olan ”Java” və ”Python” ilə işləmək, texniki biliklərini dərinləşdirmək və layihə əsaslı öyrənmə mühitində təcrübə qazanmaq imkanı yaradacaq.

Bakcell innovasiya, rəqəmsal transformasiya və təhsil sahəsində inkişafı dəstəkləyən təşəbbüslərə töhfə verməklə ölkədə insan kapitalının gücləndirilməsinə və gələcəyin peşələri üçün ixtisaslı kadrların hazırlanmasına dəstək göstərməyə davam edir.

Peerstack Academy-nin tələbəsi olmaq istəyənlər qeydiyyat üçün linkə daxil ola bilərlər.

**Bakcell haqqında**

Bakcell Azərbaycanın ilk və ən böyük özəl telekommunikasiya şirkətidir. Hazırda şirkət üç milyondan çox müştərini yüksəkkeyfiyyətli və sürətli telekommunikasiya xidmətləri ilə təmin edir. Ölkə iqtisadiyyatının qeyri-neft sektorunun ən böyük investorlarından biri olan Bakcell süni intellekt əsaslı innovativ həllərlə Azərbaycanın dayanıqlı inkişafına töhfə verir.

**Bakcell müxtəlif ölkələrdə və sahələrdə fəaliyyət göstərən NEQSOL Holding beynəlxalq şirkətlər qrupunun tərkibində olan Azerconnect Group-a daxildir.**

## *Ölümcülər istilər başlayır*

**Avropa son illərin ən güclü isti hava dalğalarından biri ilə üz-üzə qalıb. Fransa, İspaniya, İtaliya, Almaniya, İsveçrə, Lüksemburq və bir sıra digər ölkələrdə qırmızı xəbərdarlıq elan edilib, bəzi bölgələrdə havanın temperaturunun 40-44 dərəcəyədək yüksələcəyi proqnozlaşdırılır.**

Adalet.az xəbər verir ki, Fransa Meteorologiya Agentliyi ölkə ərazisinin yarıdan çoxunda ən yüksək - qırmızı təhlükə səviyyəsinin tətbiq edildiyini açıqlayıb. Bordo şəhərində termometrlər artıq 42 dərəcəni göstərib, Parisdə isə yaxın günlərdə temperaturun 41 dərəcəyə çatacağı gözlənilir.

İsti hava səbəbindən Fransada 845 məktəb tamamilə bağlanıb, daha 1800 məktəbdə isə dərslər vaxtından əvvəl başa çatdırılıb. Buna baxmayaraq, bir milyondan çox lisey şagirdi buraxılış imtahanlarını verməyə davam edir.

İstilik artıq insan tələfatına da səbəb olub. Fransanın Karpentras şəhərində avtomobildə qalan iki və dörd yaşlı iki uşaq həyatını itirib. Jirond bölgəsində isə yaşı 80-95 arasında olan üç nəfərin həddindən artıq istilərin təsirindən öldüyü bildirilib. Hökumət həftəsonu 13 nəfərin suda boğularaq ölməsindən sonra vətəndaşları nəzarətsiz göl və çaylarda sərinlənməməyə çağırıb. İspaniyada Dövlət Meteorologiya Agentliyi bəzi ərazilərdə temperaturun 44 dərəcəyə çatacağını açıqlayıb. Bask bölgəsində qırmızı xəbərdarlıq elan olunub, San-Sebastyanda isə havanın 40 dərəcəyədək isinməsi gözlənilir. İtaliyada Milan, Turin, Venesiya, Bolonya, Florensiya və Roma da daxil olmaqla, 12 şəhərdə qırmızı xəbərdarlıq qüvvədədir. Almaniyada temperaturun 38 dərəcəyə yüksəlməsi fonunda həftəsonu 5 nəfər üzərkən ölüb.

Böyük Britaniyanın Meteorologiya Xidməti İngiltərə və Uelsin bəzi bölgələri üçün nadir hallarda tətbiq olunan qırmızı istilik xəbərdarlığı yayıb. Ölkənin bəzi ərazilərində temperaturun 38 dərəcəyə çatacağı proqnozlaşdırılır.

Yunanıstanda isə isti hava və güclü küləklər meşə yanğınlarını sürətləndirib. Akraifnio yaxınlığında baş verən yanğın səbəbindən əsas magistral yollardan biri müvəqqəti bağlanıb. Belçikada rekord istilər gözlənildiyindən dəmir yolu şirkəti bəzi pik saat reyslərini ləğv edib. Meteoroloqlar bildirirlər ki, isti hava axını Böyük səhradan gələn kütlələrin Avropa üzərində qalması nəticəsində yaranıb və bu, son illərin ən uzunmüddətli istilik dalğalarından birinə çevrilə bilər. Alimlər isə təkrarlanan və daha intensiv isti dalğalarının qlobal iqlim dəyişikliyinin əsas göstəricilərindən biri olduğunu vurğulayırlar. Bildirilir ki, Fransada 1947-ci ildən bəri qeydə alınan 51 isti hava dalğasının 34-ü 2000-ci ildən, 26-sı isə 2011-ci ildən sonra baş verib.

# NARKOMANİYA - UÇRUMA APARAN YOL

**Narkotik vasitələrin qanunsuz dövriyyəsi və narkomanlıq dünyanın əksər ölkələrini narahat edən ən ciddi, qlobal, sosial bəlalardan biridir. Narkomaniya cəmiyyətin mənəvi və intellektual potensialının aşınmasına, genefondun tənəzzülünə və digər mənfi hallara gətirib çıxarır.**

Narkomanlıq, yəni narkotik maddələrə qarşı asılılıq, müasir dövrün ən təhlükəli və yayılan sosial xəstəliklərindən biridir. Bu problem təkcə ayrı-ayrı fərdlərə deyil, həm də cəmiyyətin sağlamlığına və inkişafına böyük təsir edir. Narkomanlıq həm psixoloji, həm də fiziki asılılıq yaradır və bir çox sosial, iqtisadi və hüquqi problemlərə səbəb olur. Narkotik maddələrdən asılı olan şəxslər yalnız öz həyatını deyil, eyni zamanda ətrafdakıların həyatını da təhlükəyə atırlar.

Bu problem müasir dövrün ən ciddi problemlərindən biri olmaqla bir çox sosial bəlaların yaranmasına səbəb olur.

Narkomaniyanın genişlənərək cəmiyyətin qarşısında duran vacib problemlərdən birinə çevrilməsi, gənclər arasında narkoman və toksikomanların sayının artması,



narkotiklərə aludə olanların orta yaş həddinin aşağı düşməsi və narkomaniya ilə əlaqədar cinayətlərin sayının sürətlə çoxalması ciddi narahatlıq doğurur.

Ölkəmizdə narkomaniya ilə mübarizə sahəsində beynəlxalq standartlara uyğun normativ hüquqi baza, müvafiq təşkilati strukturlar yaradılmış, narkomaniya ilə bağlı mübarizə işinə və onun qarşısının alınması problemlərinə yeni yanaşma, münasibət formalaşmışdır.

Ulu öndər Heydər Əliyevin 1993-cü il iyunun 15-də siyasi hakimiyyətə qayıdışından sonra insan və vətəndaş hüquq və azadlıqlarının təmin edilməsi, əhalinin sağlamlığının qorunması, rifah halının yaxşılaşdırılması prioritet vəzifə kimi qarşıya qoyulmaqla, narkomaniyaya qarşı mübarizənin vacibliyi ön plana çəkilmişdir. Ümummilli lider Heydər Əliyevin 1996-cı il 26 avqust tarixli ”Narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı tədbirlər haqqında” Fərmanı bu sosial bəlaya qarşı mübarizənin gücləndirilməsi üçün geniş imkanlar açmış, 2000-ci ilə qədər olan dövr üçün narkomaniyanın yayılmasına, narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə üzrə ümummilli proqram hazırlanaraq narkotiklərin qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizə sahəsində hədəflər müəyyənləşdirilmişdir.

Bu sahədə dövlət siyasətinin həyata keçirilməsini təmin etmək, dövlət orqanlarının və ictimai birliklərin fəaliyyətini əlaqələndirməkdən ötrü Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komitəsi yaradılmışdır. 1999-cu il iyunun 18-də isə Milli Məclis tərəfindən ”Narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qanunsuz dövriyyəsi ilə mübarizə haqqında ” Qanun qəbul olunmuşdur.

Eləcə də, Ümummilli liderin 2000-ci il 15 iyul tarixli Fərmanı ilə ”Narkotik vasitələrin, psixotrop maddələrin, onların rekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığın yayılmasına qarşı mübarizə üzrə Milli Proqram” (2000-2006-cı illər) təsdiq edilmişdir.

Qeyd olunan sosial bəla ilə mübarizəni daha da gücləndirmək məqsədilə qanunvericilik bazası beynəlxalq standartlara uyğun təkmilləşdirilmiş, Azərbaycan Prezidenti tərəfindən narkotik vasitələrin , psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsi və narkomanlığın yayılması ilə mübarizə sahəsində münasibətləri tənzimləyən çoxlu sayda Fərman və Sərəncamlar, Qanunlar imzalandı, ayrı-ayrı dövlət orqanlarının birgə aktları qəbul edildi.

Eyni zamanda fəaliyyət istiqamətini genişləndirmək məqsədilə 2000-ci ildən respublikanın bütün şəhər, rayon icra hakimiyyətlərində narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə üzrə komissiyalar yaradıldı. Narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə sahəsində ardıcıl, sistemli şəkildə maarifləndirmə işləri aparıldı, qətiyyətli tədbirlər həyata keçirildi.

Ümummilli liderin siyasi kursunu uğurla davam etdirən dövlətimizin başçısı cənab İlham Əliyevin həyata keçirdiyi siyasətin mərkəzində insan amili dayanır. Möhtərəm Prezidentimiz gəncliyin inkişafına, potensial imkanlarının genişləndirilməsinə davamlı şəkildə qayğı göstərir. Gənclərin müstəqil həyata hazırlanması, sağlam həyat tərzinin təmin edilməsi, ağır fəsadlar törədən vərdişlərdən uzaqlaşdırılması istiqamətində kompleks tədbirlər görülür.

Dövlətimizin başçısının barışmaz və prinsipial mövqeyi narkotik vasitələrin qanunsuz dövriyyəsi və narkomanlğa qarşı mübarizə üzrə dövlət siyasətində aydın ifadə olunub.

Narkotik vasitələrin qanunsuz dövriyyəsinin aşkara çıxarılması, narkotik vasitələrin qeyri-tibbi qəbulunun profilaktikası, narkomanlıq xəstəliyindən əziyyət çəkən şəxslərin müalicəsi və reabilitasiyası istiqamətində dövlət orqanları tərəfindən ardıcıl, məqsədyönlü tədbirlər həyata keçirilir.

Bu gün hüquq-mühafizə orqanları ilə yanaşı digər dövlət qurumları, ictimai, qeyri-hökumət təşkilatları bu sahədə üzərinə düşən vəzifələri layiqincə yerinə yetirir, qarşıya qoyulan məsələlərə tam nail olmağa çalışırlar.

İmişli rayon prokurorluğunun kollektivi müvafiq dövlət orqanları ilə səmərəli, işgüzar əlaqələr qurmaqla qanunçuluğun və hüquq qaydalarının möhkəmləndirilməsinə, insan hüquq və azadlıqlarınln qorunmasına, cinayətkarlığa, digər qanunazid əməllərə, eləcə də narkomaniya kimi ümumbəşəri bəlaya qarşı mübarizə işinə layiqli töhfələr verir.

Son dövrdə rayonda narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizə işi xeyli gücləndirilmiş, rayonun ərazisində narkotik vasitələrin və psixotrop maddələrin, eləcə də qanunla qadağan olunmuş digər maddələrin əldə edilməsi, saxlanması, daşınması, satışı və sair qanunsuz əməllərin qarşısının alınması məqsədilə hüquq-mühafizə orqanları tərəfindən tədbirlər hıayata keçirməklə, cinayət törətmiş şəxslərdən külli miqdarda narkotik vasitələr götürülmüşdür.

Müşahidələr göstərir ki, yeniyetmə və gənclərin narkomaniyaya qurşanması onların təhsildən yayınmasına, ictimai həyatdan uzaqlaşmasına, cinayətkarlığa yuvarlanmasına səbəb olur. Bəzən həyətdə, küçədə, ictimai yerdə hətta bir narkoman olması ətrafdakılara qeyri-adekvat təsir göstərir. Gənc nəslin antinarkomaniya ruhunda tərbiyə olunması



təkcə müvafiq qurumların işi deyil, bu məsuliyyətin mühüm bir hissəsi bütövlükdə cəmiyyətin, hər bir vətəndaşın üzərinə düşür. İlk növbədə ictimai qınaq mexanizminin daim işlək vəziyyətdə olması üçün ciddi səylər göstərilməlidir.

Yetkin yaşına çatmayanların və gənclərin narkotikdən və digər zərərli vərdişlərdən uzaq olması üçün təbliğat və maarifləmə tədbirləri daha da genişləndirilməlidir.

Hamı bilməlidir ki, narkomaniya ailələrin dağılmasına, çarəsiz xəstəliklərə, amansız cinayətlərə və digər ağır fəsadlara aparan yolun başlanğıcıdır. Narkotiklər varlığın qənimi, ölüm, həyatın sonu deməkdir. Eyni zamanda təkcə bir fərd üçün deyil, bütün cəmiyyət üçün böyük təhlükədir.

Maarifləndirici tədbir kimi buklet hazırlanıb məktəblərdə paylanıb. Maarifləndirmə və reabilitasiya kimi tədbirlər bu bəlanın qarşısını almaq üçün əsas amillərdəndir.

Narkomanlıqla mübarizə davamlı və koordinasiyalı tədbirlər tələb edir. Yalnız dövlət orqanlarının, hüquq-mühafizə orqanlarının və tibb mütəxəssislərinin deyil, eyni zamanda cəmiyyətin hər bir fərdinin bu mübarizəyə qatılması vacibdir.

**İnsanların sağlamlığını və həyatını ciddi təhlükə altına alan, əxlaq və mənəvi dəyərləri sarsıdan, cəmiyyətin harmoniyasını pozan, güclü sosial bəlaya çevrilmiş narkomaniya və narkotik vasitələrin qanunsuz dövriyyəsinə münasibətdə hər birimiz barışmaz mövqe tutmalı, ümumbəşəri ”ağ ölüm”ə qarşı qətiyyətli mübarizə aparmalıyıq.**

**Ceyhun ALIYEV**
**İmişli rayon prokurorunun köməkçisi**



**Vaqif YUSİFLİ**
**Filologiya elmləri doktoru**

# NİZAMİ MURADOĞLU

## ("Heç kim unudulmur" silsiləsindən)

**Nizami Muradoğlunu (Məmmədov) mən ilk dəfə Naxçıvanda gördüm O, Ordubad rayonunun komsomol komitəsinin birinci katibiydi. Qısaca görüşümüz oldu. Öyrəndim ki, o da şeir yazır. Amma kitabı hələ çıxmayıb. Sonra elə oldu ki, onun ilk şeirlər kitabına rəy yazdım. ("Qayıda bilmirəm - 1989"). Nizami Ordubad icra başçısı vəzifəsində çalışanda da görüşümüz oldu. Bir müddət sonra o, Bakıya köçdü. Biz akademiyada, tədbirlərdə tez-tez rastlaşırdıq. Nizami ilə aramızda yaxşı münasibət yarandı və biz dost olduq.**

*Haqqa yol gedirəm, yolum uzaqdı,*
*Qarşımda Arazdı, arxamda dağdı.*
*İkiyə bölünən ana torpaqdı,*
*Bizmi günahkarıq, ya sənmi, Vətən?*

*Haqqa yol gedirəm, yolum gen düşür,*
*Təbrizdən, Kərkükdən, Göyçədən düşür.*
*Gedə bilmədiyim Vətəndən düşür,*
*Gedə bilmədiyim Vətənmi,-Vətən?*

*Haqqa yol gedirəm, yolum yamandı,*
*Arazım qılıncdı, Xəzərim qandı,*
*Deyirlər dövran da ayrı dövrandı,*
*Deyənlər yanılır, ya mənmi, Vətən?*

*Haqqa yol gedirəm, yolum duman, çən,*
*Zəngəzur mahalım, Qarabağ Vətən.*
*Döyüş təbilləri vurulmur nədən?*
*Cəngi çaldırmağa vədənmi, Vətən?*

*Döyüş bayraqların qaldırıb göyə,*
*Uğrunda baş qoyub, baş əritməyə,*
*Qurğuşun yeməyə, daş əritməyə*
*Sinəmiz hazırdı, möhkəmdi, Vətən!*

"Vətən" adlı bu şeir mən deyərdim, onun ən yaxşı şeirlərindən biridir. Ədəbiyyata, müqəddəs poeziya məkanına yetmişinci illərin sonlarında gəlib. Səssiz olub gəlişi, heç bir harayla, qışqırıqla ya bir ustad şairin "Uğurlu yolu" ilə gəlməyib. Sadəcə, ürəyində yatıb qalan, amma get-gedə sinəsində qövr edən hissləri şeirə çevirib, tədricən hamının diqqətini cəlb etməyə başlayıb. Böyük şairimiz Məmməd Araza şeirlərini oxuyub və onun şifahi xeyir-duasını dinləyəndən sonra içində bir inam oyanıb.

Nizami Muradoğlu məşhur Əylis kəndində dünyaya göz açıb. Naxçıvan Dövlət Universitetində tarix-ədəbiyyat fakültəsində təhsil alıb, ordu sıralarında xidmət edib. Elə ilk şeirlərini də o illərdə yazıb, amma üzə çıxarmağa, çap eləməyə tələsməyib.

Çünki şeirə, sənətə ötəri bir həvəs kimi baxmayıb. Uzun müddət komsomol və partiya işində çalışıb. 26 il vəzifədə olub-məmur həyatı yaşayıb. Amma məmur kostyumunun altında məmur sinəsi döyünməyib, çünki qəlbən məmur deyildi, şair idi.

İcra başçısı olanda Ordubadın bir rayon kimi gözəlləşməsinə, mədəni quruculuq işlərinə, insanların firavan yaşamsına çalışıb. O illərdə də şeirdən əl çəkməyib. Daha doğrusu, şeir ondan əl çəkməyib. Çünki şair ürəyi həmişə dərdin, ağrının məkanı olub.

*Məmməd Araz, adın qoşa Arazla,*
*Dərin oldun heç üzmədin dayazda.*
*Ha gileylən, ha sızılda, ha sızla,*
*Dərlərinə olmaz dərman, onu bil.*

*Bu dünyanın dərdi yaman böyükdü,*
*Bu dərdlərə Araz dərdi də yükdü.*
*Cəlil, Cavid, Müşfiq, Hadi də köçdü,*
*Əcəl verməz, vermaz aman, onu bil.*

*Bu dərdləri, ajıları sən duyub,*
*Çox da Araz, Araz deyib ağlama.*
*Araz mənim torpağımı doğrayıb,*
*Məmməd Araz, ürəyimi doğrama.*

Məmməd Araza olan sevgi əbəs deyildi. Naxçıvanda doğulan şairlərin çoxu bu ustaddan poeziya fənnini öyrənmişlər.

Onun kimi Vətəni sevmək dərsi mənimsəmişlər.



Nizami Muradoğlunun Məmməd Arazla görüşləri çox olub. Və bu sevgi, ustada dərin hörmət və ehtiram Bakıya köçəndən sonra də əksilməyib. O, "Məmməd Araz yaradıcılığında folklor" mövzusunda namizədlik dissertiasiyası müdafiə edib.

Əlbəttə, DƏRD deyəndə ağlamaq, sızıldamaq düşünülmür. Bu, hər bir şairi düşündürən müqəddəs dərdlər idi. Nizami Muradoğlu da həmin dərdlərin poeziyasını yaratmağa can atırdı. "Ordubadda nəhəng bir çinarın ətrafına beton tökdülər, su içə bilmədi. Başını kəsdilər, günəşə boylanmadı. Qollarını kəsdilər, quru gövdəsi qaldı"-dərdin böyüyü, kiçiyi olmur. Düşünürük ki, tkiyə bölünmüş Vətənimizin dərdindən böyük dərd ola bilməz, Hadinin, Cavidin, Müşfiqin ajı taleyindən ağır nisgil ola bilməz, amma bir çinarın fajiəsi də dərddir.

***Ağzı şüşə baltaların,***
***Ovxarından baş kəsilir.***
***Bu dünyada nə kəsilir,***
***yaş kəsilir.***
***Başı kəsilən çinarım.***

***Əsrlərin həmyaşıdı,***
***Dünya namərd yoldaşıdı.***
***Nəğməm sənə başdaşıdı,***
***Ölümsüz ölən çinarım.***

Nizami Muradoğlunun "Bu dünyanın məzarları ağlamaz" adlı bir şeiri də var.

Bu şeir dahi Hüseyn Cavidin oğlu Ərtoğlul Cavidin məzarı önündə düşünsələrdən yaranıb.

*Sınıb sinə daşı mərmərdən deyil,*
*Üstündə yazısı heç zərdən deyil.*
*Bu məzar ağlayır, qəhərdən deyil,*
*Bu məzar ağlayır,*
*Niyə ağlayır?*

*Bu dünyanın məzarları ağlamaz,*
*Bu dünyanın məzarları ağladar.*
*Ağlamayan məzarların içində,*
*Bu dünyada ağlayan bir məzar var.*

Böyük bir dərdin ifadəsindən yaranan bu şeir sonralar Nizami Muradoğlunun Ərtoğrul Cavidə həsr elədiyi dramatik poemasının yaranması üçün bir vəsilə olacaq. Həmin poemada ədəbiyyatımızda ilk dəfə olaraq Ərtoğrul Cavidin həyat yolu və nakam ömrü bədii lövhələrə çevriləcək.

Nizami Muradoğlu həm də təbiəti sevən və duyan şair idi. Sevgi sözü ona görə öndə gəlir ki, təbiəti sevmədən, özünü bir qaya, bir ağac, bir çeşmə sanmadan ondan şeirlər yazmaq olmaz. Hüseyn Arifi, Musa Yaqubu, Hüseyn Kürdoğlunu, Məmməd Aslanı xatırlayın. Nizaminin şeirlərindəki təbiət notları Naxçıvanın sal daşlarından, Babəkləşmiş dağlarından, Heyran xanımın şeirlərinə oxşar həzin çeşmələrdən və əlbəttə, doğulduğu Əylisdən, Ordubaddan gəlir. "Bir bulağın laylası"nı dinləyək:

***Laylam ilə gəl uyu,***
***Nəfəsini qoy duyum.***
***Şırıl-şırıl***
***Yat ey çınqıl***
***balam çınqıl,***
***gülüm çınqıl.***

Nizami Muradoğlu lirik şair idi və bu lirika onun poemalarının da mahiyyətini müəyyənləşdirir. "Ay çinar ağacı" poeması nəğmələrdən ibarətdir.

Poema müharibədən qayıtmayan bütün əmilərin xatirəsinə həsr edilib. O çinar ağaclarını əmilər müharibəyə gedəndə əkmişdilər. "Onun yadigarı bir çinar qalıb, Həm mənim xatirəm, həm mənim qəmim Elə sənin kimi ujalardı o, Ay çinar ağacı, əmim kimisən".

O da sevgi şeirləri yazır və onun sevgi şeirləri ötəri hisslərin yox, yaşanılan hisslərin ifadəs idi. Çalışır ki, ilk sevgisini unutmasın. İlk sevgisini unudandan şair olmaz

***Bir uşaqlıq sevginin***
***Qıfılı məndə qaldı.***
***İndi isə işə bax,***
***Adın özgə dilində,***
***Saçın özgə əlində,***
***Həsrətin məndə qaldı.***

Nizami Muradoğlu adi insanlardan da şeir yazırdı, bulaqdan da, daşdan da, qəlbinə təsir edən bir hadisədən də, böyük Vətənin böyük dərdlərindən də. evsizlərin, yurdsuzların, Qarabağ faciəsinin, itirilmiş torpaqlarımızın ağrısından da. Demirəm ki, hamısında uğur qazanır, yox, onun yaxşı şeirləri ilə müqayisədə, nisbətən geriləyənləri də vardı.

Amma çalışırdı ki, poetik səmimiyyətdən uzaq düşməsin. Şeiri ŞEİR kimi yazsın. Qoşmanın şəklini çəkməsin, özünü yaratsın. Hecada da, sərbəstdə də vəznin nəbzini tutsun, amma bu "klassik" qanunun əsiri olmasın.

**Mən Nizamini belə bir şair kimi tanıyırdım .**

**Amma əcəl imkan vermədi. Nizami 24 oktyabr 2021-ci ildə 66 yaşında Bakı şəhərində koronovirus xəstəliyinin qurbanı oldu.**

**Allah rəhmət eləsin!**

## Əməkdar artistdən təsirli çağırış: "Xadimə də olaram..."



**Əməkdar artist Mehriban Xanlarova Akademik Milli Dram Teatrında işlə təmin olunmaq üçün sosial şəbəkədə prezident İlham Əliyevə və I vitse-prezident Mehriban xanım Əliyevaya video-müraciət ünvanlayıb.**

Mövzu ilə bağlı Adalet.az-a danışan əməkdar artist Mehriban Xanlarova qeyd edib ki, ona alterantiv olaraq heç bir dövlət teatrında iş təklif olunmayıb:

"İlk olaraq onu deyim ki, mən latınca yaza bilmirəm. Teatrda mənim qarşıma hazır ərizə qoydular ki, bunu imzala. Yəni öz xahişimlə məni işdən çıxarıblar. Lakin işdən çıxarılandan 15 gün sonra, yenidən işə qaytarılmağım üçün teatr rəhbərliyinə və Mədəniyyət nazirliyinə müraciət etsəm də, "yox" cavabı aldım. İşə bərpa olunmadım.

Mən illərdir bu səhnədə zəhmət çəkmişəm, səhnənin tozun udmuşam. Mən doğma teatrıma qayıtmaq istəyirəm. Bu mənim haqqımdır.

Deyirlər ki, hal-hazırda teatrda aktrisa kimi "ştat yoxdur". Razıyam ki, məni ora xadimə olaraq işə götürsünlər. Məni qərəzli şəkilə işə bərpa etmirlər. Guya mənə yüksək vəzifə verilib, amma qəbul etməmişəm. Sizcə bu, nə dərəcədə inandırıcıdır? Kimə vəzifə veriləndə imtina edər? Əlbətə, heç kəs imtina etməz.

Mən işləməsəm, ailəm acından divarları yeyəcək. Niyə mənim səsim Mədəniyyət nazirliyinə çatmır? Yaxud da çatır, sadəcə eşidilmir Bilmirəm, çox çaresizəm. Məcbur vəziyyətdə qalıb, möhtərəm prezident İlham Əliyev cənablarına müraciət etmişəm. İnanıram ki, Ali Baş Komandan səsimi eşidəcək. Ona çox güvənirəm. Yalnız prezident İlham Əliyev bu haqsızlığa sona qoya bilər.

Mən artıq vəsiyyət etmişəm. Öləndə məni Akademik Milli Dram Teatrının pilləkanlarından götürsünlər. Bilirəm ki, tabutumu teatrın səhnəsinə buraxmayacaqlar, ona görə pilləkanlardan məni dəfnə aparsınlar.

**Mən bir otaqlı evdə yaşayıram, ancaq heç vaxt bundan narazılıq etməmişəm. Ailəmi halal qazancımla dolandırmışam. Mənim 92 yaşlı anamın səsini də eşidən yoxdur. Artıq anam da mənimlə birgə fəryad edir. Heç olmasa anamın fəryadına cavab verilməsini istəyirəm".**

Əntiqə KƏRİMZADƏ

## Ekspert: "Çimərliyi yarış meydançasına çevirmək olmaz"

**Bildiyimiz kimi, artıq yay fəslidir. İnsanlar istirahət üçün çimərliklərə üz tuturlar. Bəzən bu istirahət faciəyə çevrilir.**

Dənizdə batma və boğulma hallarının olmaması üçün insanlar hansı qaydalara əməl etməlidir? Əlbəttə, hər bir kiçik ehtiyatsızlıq böyük faciələrə yol açır.

Mövzu ilə bağlı Adalet.az-a danışan təhlükəsizlik üzrə ekspert Elmar Nurəliyev boğulma hallarının səbəbi kimi çimərlik qaydalarına əməl olunmamasını qeyd edib:

"Təəssüf ki, hər il boğulma halları qaçılmaz olur.. İnsanların ehtiyatsız davranması nəticəsində onların istirahəti bəzən faciəyə çevrilir. Bədbəxt hadisələr baş verməsin deyə çimərliyə planlı şəkildə getmək lazımdır. Təhlükəsizlik qaydalarına ciddi əməl etmək lazımdır. İlk olaraq mütləq "5 qızıl qayda"ya əməl olunmalıdır. Həmin "qızıl qayda"lar bunlardır:

Əlverişsiz hava şəraitində çimərliyə getməmək. Üzmə sərhədlərini keçməmək. Nəzarətsiz, xilasetmə xidməti olmayan çimərliyə getməmək. Spirtli içkinin təsiri altında suya girməmək. Uşaqları nəzarətsiz buraxmamaq.

Çimərliyə gedən gün mütləq havanın şəraitini qiymətləndirmək lazımdır. Əlverişsiz hava şəraiti dedikdə isə havanın küləkli olması və günün qaranlıq saatı nəzərdə tutulur.

Üzmə sərhədlərini keçmək də insanın həyatını təhlükəyə atır. Çimərliyi yarış meydançasına çevirmək olmaz. Daş, qaya və dəmir konstruksiyaların üzərinə çıxıb, suya baş vurmaq kimi lüzumsuz hallara yol verilməməlidir.

Ən ciddi məsələlərdən biri isə spirtli içkinin təsiri altında suya girməkdir. Deyərdim ki, ən təhlükəli haldır. Dəniz səhvi bağışlamır.

Xəzərin bütün ərazisi çimmək üçün nəzərdə tutulmayıb axı. Çimərlik mövsümü başlamamışdan əvvəl aidiyyatı üzrə müvafiq qurumlar tərəfindən çimərlik ərazilərinə baxış keçirilir. Çimərlik sahələri müəyyənləşdirilir. Çimərlik üçün uyğun bilinən ərazilərdə çimmək daha məqsədəuyğundur.

Bu, həm təhlükəsizlik baxımından, həm də sağlamlıq baxımından daha vacibdir. İcazə verilən çimərliklərdə mütləq xilasetmə xidməti fəaliyyət göstərir.

Nəzarətsiz çimərliklərə, xilasetmə xidməti olmayan çimərliklərə getmək olmaz. Ən ciddi yanaşılmalı məsələlərdən biri isə uşaqları nəzarətsiz buraxmamaqdır. Çimərlikdə uşaqları uzun zaman nəzarətsiz buraxmaq bir ailənin faciəsi ilə nəticələnə bilər.

Bütün dünyada hər il 400.000-ə yaxın insan suda boğulur. Bu göstəricinin 95%-i nəzarətsiz çimərliklərin payına düşür.

Harda xilasetmə xidməti varsa, nəzarət olunan çimərlikdirsə ora getmək lazımdır. Bu qayda həm dənizə, həm göllərə, həm çaylara, həm su arxlarına, həm su kanallarına, həm də su anbarlarına aiddir.

Əgər hər hansı bir su hövzəsi çimmək üçün nəzərdə tutulmayıbsa, orda çimmək olmaz. Çünki suyun dibində hansı prosseslərin getdiyini insanlar bilmirlər.

**Dənizə gedənlər bəzən özləri ilə kiçik həcmli gəmilər, qayıq və digər üzmə vasitələri aparırlar. Həmin vasitələri icazəsiz çimərliyə aparmaq olmaz. Bu kimi hallar yolverilməzdir.**

Əntiqə KƏRİMZADƏ



# BAYAT



№ 88 (948)

# Sonrakı halına indidən ağla



Sücaət KƏLBƏCƏRLİ

## GECƏLƏR

Gedənləri anda verib yolundan,
Saxlayıram, yatmıram ki, gecələr.
Düz altmış min göz-göz olan yaranı,
Bağlayıram, yatmıram ki, gecələr.

Yurd-yuvamız viran olub talanıb,
Bulaqların nəğməsi də bulanıb.
Addım-addım o dağları dolanıb,
Yoxlayıram, yatmıram ki, gecələr.

Çox yanmışam olmamışam belə mən,
Dərd çəkməyə yaranmışam elə mən.
Gah dönürəm aşıb-daşan selə mən,
Çağlayıram, yatmıram ki, gecələr.

Taleyimiz dərdimizi qudurdub,
Vətən dərdi Sucaəti oturdub.
Balaları gülə-gülə yatırdıb,
Ağlayıram, yatmıram ki gecələr..

## KƏLBƏCƏR

Mənim ürəyimdi, mənim canımdı,
Düşmən süngüsünə keçən Kəlbəcər.
İndi ondan-bundan qiymət gözləyir,
Aqili nadandan seçən Kəlbəcər.

Tər-tər qəmli-qəmli axar sızıldar,
Dağlar gözlərini sıxar sızıldar.
Dağılmış evlərə baxar sızıldar,
Əsir düşüb, zəhər içən Kəlbəcər

Sücaət, neyləyək baxt belə baxtdı,
Darıxma, hər şeyi həll edən vaxtdı.
Bir gün gülə-gülə qayıdacaqdı,
Ağlaya-ağlaya köçən Kəlbəcər!

## MƏN OLAYDIM

Sınmayaydı qanadlarım
Quş, yerinə mən olaydım
Uçardım düz Dəlidağa
Kaş yerinə mən olaydım

Ömür talan, həyat yalan
Dərdə düşsün dərdə salan
O dağlarda məğrur qalan
Daş yerinə mən olaydım

Sücaəti unutma sən
Həsrətindi məni didən
Yanağından axıb gedən
Yaş yerinə mən olaydım

## HARDAN ALIM

O dağları bəzəməyə,
Ləli-zəri, hardan alım?!
Soldu getdi çiçəklərim,
Təzə-təri hardan alım?!

Olmuşuq lal, olmuşuq kar,
Susub nəğmə, kiriyib tar.
O nəğməkar, o bəstəkar,
Xan tərtəri hardan alım?!

Axır düşdük pərən-pərən...
Ömür harda bitər görən?!...
O adma ləzzət verən,
Xeyri-şəri hardan alım?!

Tikanlıqda gül gəzirsən,
Sızğalardan sel gəzirsən,
Qədirbilən el gəzirsən,
Kəlbəcəri hardan alım?!

Sücaətəm, döndüm aha,
Ümid qalıb bir Allaha.
Dəli könül sorma daha,
O günləri hardan alım?!

## MƏN YAXŞI BİLİRƏM...

Mən yaxşı bilirəm qaçqınlıq nədir,
Mən yaxşı bilirəm "köç" nə deməkdir.
Doğma qardaşın da himayəsinə,
Sığınıb yaşamaq "heç nə" deməkdir.

Saxla qürurunu, get özün yaşa!
Çox da bel bağlama dosta, qardaşa.
Mən yaxşı bilirəm dildə "Düz başa -
Buyur" nə deməkdir, "keç" nə deməkdir.

İnsan göz dikibdi insan ətinə,
Dövran acıyarmı Sücaətinə?!
Mən yaxşı bilirəm: "Düşsən çətinə-
Utanma,yanıma qaç" - nə deməkdir.

## GÖRƏN

Yenə əvvəlki tək bahar gələndə,
Bənövşə yollara çıxırmı görən?
Yenə sürünürmü duman dağlara,
Yenə ildırımlar çaxırmı görən?

Darıxma, tələsmə canım, yavaş keç,
Yüz rəng var, hansını seçirsənsə seç,
Yenə göyqurşağı nazlanırmı heç,
Yenə gözlərini sıxırmı görən?

Könlümdə həsrətdən qurulub saray,
Belə də ayrılıq olar, ay haray,
Millinin üstündən bədirlənmiş ay,
Bizim aynəbəndə baxırmı görən?

Soyuyan ocaqlar, sönən ocaqlar,
Bir buz parçasına dönən ocaqlar,
İndi yuxularda yanan ocaqlar,
Hamını yandırıb, yaxırmı görən?

Vətənin dərdini, çölün dərdini,
Çiçəyin dərdini, gülün dərdini,
Bu qaçqın, didərgin elin dərdini,
Satqınlar gözünə soxurmu görən?

Orda qaldı eyş-işrət də, nəşə də,
Qəlbim kimi ciliklənməz şüşə də,
Şapıların üstündəki meşədə,
Sücaət bulağı axırmı görən?

## MƏNİ

Ağlım təzə-təzə kəsirdi hələ
Sən vara,dövlətə satanda məni.
Məhəbbət yandırıb kül eləmişdi
On səkkiz yaşıma çatanda məni.

Saçımda dolanan dən idin onda,
Gözümdə dumandın,çən idin onda.
Özündən xəbərsiz sən idin onda,
Axtaran da məni, atan da məni.

Yollarım od olub, ayağım yalın,
Əlində qalmışam dərdin,məlalın.
Əridib şam kimi şirin xəyalın,
Soyuq zindanlarda yatanda məni.

Onun məhəbbəti dilində idi,
Həqiqət gözümün selində idi.
Əlin o alçağın əlində idi,
Həsrətin odlara çatanda məni.

Birimiz ağlarıq,birmiz də şən
Dağdan ağır dərddi Sücayət çəkən.
Həmişə yadıma sən düşəcəksən,
Hər ürək ağrısı tutanda məni.

## ANAMIN

Deyin, dustaqları buraxacaqlar,
qoy qəm bozartmasın üzün anamın.
Deyin, qırılacaq zülmün zənciri,
birtəhər başını yozun anamın.

Zəhər gizlənibmiş aşımın altda,
Bir dərya var imiş qaşımın altda
Yastıq daşa dönür başımın altda,
Burda hardan alım dizin anamın?

Taleyi şil-şikəst, fikri sağ oldum,
Sevinci bir zərrə, dərdi dağ oldum.
Gah əsir, gah xəstə, gah dustaq oldum,
Qoymadım quruya gözün anamın.

Talanmış ömürdü, gündü, neyləyim,
Baxtımın çırağı söndü neyləyim.
Sevinci fəğana döndü, neyləyim,
Söhbəti nəğmədən həzin anamın.

Sücaət, etdilər talan ömrümü,
Kor olsun daşlara çalan ömrümü.
Talanan talanıb, qalan ömrümü
Ömrünün üstünə yazın anamın.

## AĞLA

Doğulanda Allah bizə deyir ki,
Sonrakı halına indidən ağla.
Bu şirin həyatın sonu zəhərdir
Qovğana qalına indidən ağla.

Sən üşüdüm dumana nə, çənə nə,
Sən od tutdun, od ələyən günə nə..?
Qıfıllı dilinə, dağlı sinənə
Qandallı qoluna indidən ağla.

Baxma tanışın da dostun da çoxdur,
Kimin nə vecinə kim səni yıxdı..?
Büdrəsən baxarsan bircəsi yoxdur
Sağına soluna indidən ağla.

Ünvanın itəcək, izin itəcək,
Ocağın itəcək, odun itəcək,
Yaxının itəcək, yadın itəcək,
Obana, elinə indidən ağla.

Dünya da gözəldir demirəm əl çək,
Ancaq əməllərin qalacaq bir tək.
Odlardan keçəcək, daşdan keçəcək
Yoluna izinə indidən ağla.

## DAĞLAR

Mən gedirəm qürbət elə,
Sağ-salamat qal, a dağlar.
Halallıq ver, qoy qalmasın
Ürəyimdə xal, a dağlar.

Hanı məndə dözüm sənsiz,
Sönəcəkdir közüm sənsiz.
Qan tökəcək gözüm sənsiz
Olacağam lal, a dağlar.

Dostum - yarım keçir gendən,
Dərdim artır günü-gündən.
Məni qəmdən, qəmi məndən,
Al, a dağlar, al, a dağlar.

Günəş gəzib yorulanda,
Sazın simi qırılanda,
Göydə qartal vurulanda,
Məni yada sal, a dağlar.

Qayaları ələ döndər,
Cığırları telə döndər,
Sücaəti külə döndər,
Bir "Kərəmi" çal, a dağlar.

## KİMİ

Kaş rəssam olaydım, elə rəssam ki,
Çəkəydim bəxtimi olduğu kimi.
Yazmaqla nə olsun, onda görəydim,
Arzumu-eşqimi olduğu kimi.

Eşqimin tufanın, boranın, yazın,
Solmuş çiçəklərin, yox olmuş izin.
Çəkəydim gözlərin sevdiyim qızın,
Süzülüb xəyala daldığı kimi.

Sücaət, mənalı yaşa, yarat, an,
Vəfasıza ağrı gizlət, yara dan.
Salmasın heç kəsi bir də yaradan,
Məni nəzərindən saldığı kimi.

## KAŞ OLMAYAYDI

Ölümə nə var ki, bir dəfəlikdi,
Sevib ayrı düşmək kaş olmayaydı.
Nəğmələr quş kimi qanadlananda,
Gözlərdən süzülən yaş olmayaydı.

Mənim qəlbim kimi inləməz kaman,
İlk eşqi itirmək yamandı, yaman.
Könüllər odlara qalanan zaman,
Ürəklər bərkiyib daş olmayaydı.

Mən səni sevirəm, sən varı pulu,
Gör hardan düşübdü eşqimin yolu.
Nə mənim ürəyim bir belə dolu,
Nə sənin ürəyin boş olmayaydı.

Silinməz sinəmdən bu düyün, bu dağ,
Gəzdi gəncliyimi qəm budaq-budaq.
Həsrətdən, möhnətdən titrəyən dodaq,
Kədərdən çatılan qaş olmayaydı.

Yar deyib ağlayır könlümün sazı,
Bir gündə yüz dəfə yanıram azı.
Sücaət heç kəsin baharı, yazı,
Dönüb birdən-birə qış olmayaydı.

## SAXLAYIRAM

Xoşum gəlmir tez alışıb-sönəndən,
Qəlbimdə yüz illik köz saxlayıram.
Bəlkə bundan ağır günlərə düşdüm,
Sinəmdə ehtiyat söz saxlayıram.

Uzaqdan tətiyi sıxmağa nə var,
Arxadan cümülüb yıxmağa nə var.
Kiçik döyüşlərdən çıxmağa nə var,
Çətin sınaqlara diz saxlayıram.

İnsanlar bir-birin qədrini bilsə,
Qəm nə qələt eylər qoşunla gəlsə?
Tökərəm, nadana qoşulub gülsə,
Elnən ağlamağa göz saxlayıram.

Sücaət, ürəyim əsim-əsimdi,
Həqiqətin səsi-mənim səsimdi.
Etibar bəsimdi, ilqar bəsimdi,
Mən varı-dövləti az saxlayıram.

№ 23 (2495) 26 iyun 2026-cı il



# BEYNƏLXALQ TƏŞKİLATLAR VƏ GÜCLÜ DÖVLƏTLƏR AZƏRBAYCANLA ƏLAQƏ YARATMAĞA BÖYÜK MARAQ GÖSTƏRİR



**Bu gün dünyada heç bir dövlətin daimi dostu yoxdur. Çünki hər bir ölkənin və dövlətin daimi maraqları və istəkləri var. Xüsusən də dünyanı idarə edən super güc dövlətlər həmişə başqa ölkələrə dostdan çox maraq baxımından yanaşıb.**

Çox uzağa getməyək, elə ABŞ-ı götürək. ABŞ dünyanın super gücüdür və hər şeyi də dünyaya və ölkələrə diqtə edir. Dünyanın ən varlı və zəngin ölkələrindən olan ərəb ölkələrini həmişə öz maraqlarına uyğun idarə edir. Maraq dostluqdan əvvəldir, başqa sözlə demiş olsaq, bu gün dünyanı maraq idarə edir. Əgər bir ölkənin zəngin sərvəti, faydalı qazıntısı, nefti, qazı varsa, ilk növbədə super güclər onlara daha böyük maraq göstərir.

Heç kimə sirr deyil ki, Azərbaycan son 30 ildə Cənubi Qafqazın ən güclü ölkəsinə çevrilib, həm siyasi baxımdan, həm də iqtisadi baxımdan. Çünki ölkəmiz müstəqillik dövrünə qədəm qoyandan və Ulu Öndər Heydər Əliyev ikinci dəfə hakimiyyətə qayıtdıqdan sonra müstəqil olaraq xarici və daxili siyasət həyata keçirib. Və bu siyasət isə heç şübhəsiz, zaman-zaman öz bəhrəsini verməyə başlayıb. Hər bir ölkə istəyir ki, harasa sərmayə qoyanda, investisiya yatıranda həmin ölkədə sabitlik olsun. Sözün açığı, sabitlik olmayan ölkəyə heç bir dövlət milyonlarla dollar vəsait xərcləmək istəmir. Hər bir ölkə istəyir ki, qısa zaman kəsiyində qoyduğu sərmayəni maya dəyərindən əlavə qazancını da əldə etsin. Üstəlik də Azərbaycan strateji cəhətdən elə bir coğrafi mövqedə yerləşib ki, bu ölkədən Avropaya və ordan da digər yerlərə çıxmaq çox asandır.

Bax, bu mənada ölkəmizə həmişə həm beynəlxalq təşkilatlar, həm də güclü dövlətlər böyük maraq göstərib. O maraq da ondan ibarət olub ki, həmin dövlətlər Azərbaycandakı mövcud siyasi və iqtisadi durumu dəyərləndirib və buna da uyğun addımlar atıb. Ulu Öndər Heydər Əliyevin beynəlxalq təşkilatlardakı çıxışı, eləcə də dünyanın inkişaf etmiş ən güclü dövlətlərinə səfəri həmin ölkələrdə Azərbaycana qarşı çox böyük inam və etibar yaratdı. Azərbaycan beynəlxalq səviyyəli layihələrə şərait yaratdı və həmin layihəyə də uyğun iqtisadi müqavilələr bağlandı. Bu müqavilələrin bağlanması heç şübhəsiz, ölkəmizin dünyada, Avropada, eləcə də super güclərin yanında nüfuzunu daha da artırdı.

Dünyanın məşhur neft-qaz şirkətlərinin Azərbaycana axını, onların bizim iqtisadiyyata sərmayə qoyması, hətta ölkəmizdən xoşu gəlməyən dövlətlərin də bizə marağını artırdı. Avropanın, dünyanın ən nəhəng dövlətləri Azərbaycan iqtisadiyyatına çəkinmədən milyardlarla dollar yatırım etdi. Bu yatırım çox yox, beşaltı ildən sonra öz bəhrəsini verdi və həmin sərmayə qoyan ölkələrə milyardlarla dollar qazanc gətirdi.

Azərbaycanın siyasi və iqtisadi cəhətdən sürətli inkişafı, onun müxtəlif ölkələrlə sıx əlaqələri dövlətimizin nüfuzunu beynəlxalq təşkilatlarda daha da gücləndirdi. Birləşmiş Millətlər Təşkilatında, eləcə də Avropada ölkəmizə münasibət tamamilə dəyişdi. Onlar gördülər ki, Azərbaycan müstəqil xarici və daxili siyasət yeridir, demokratik prinsiplərə əməl edir, hüquqi dövlət yaradılması yolunda çox böyük uğurlara imza atır. Təbii ki, belə bir ölkə ilə iqtisadi əlaqələr qurmaq, investisiya yatırmaq nəinki dünyanın inkişaf etmiş ölkələrinin, hətta inkişaf etməkdə olan ölkələrin böyük marağındaydı. Bu sadəcə maraq deyil, həm də həmin maraqları ölkəmizin rəhbərliyi yüksək səviyyədə təmin edirdi. Amma bir şərtlə - öncə Azərbaycanın dövlətçilik prinsipi, müstəqilliyi və bundan sonra ölkəmizin maraqları.

Aydındır ki, bu şərtlərlə dövlətimizə və ölkəmizə sərmayə qoyan dövlətlərin sayı günbəgün artmağa başladı. Azərbaycan dünyaya sürətlə inteqrasiya etməkdə israrlı oldu. Bir vaxtlar xarici ölkələrdən asılı olan ölkəmiz müəyyən zaman kəsiyindən sonra özü onların iqtisadiyyatına sərmayə qoymağa başladı.

Bu gün Azərbaycan nəinki Avropa ölkələrində, hətta digər dövlətlərdə iqtisadiyyatın inkişafı üçün yatırımlar edir və bu iqtisadi əlaqələr zaman-zaman daha da güclənir. Bütün bunlar dünyanın gözü önündə baş verir. BMT, eləcə də digər mötəbər qurumlar Azərbaycanda yaradılmış şəffaf, sağlam mühitlə bağlı öz müsbət fikirlərini və düşüncələrini dünyaya çatdırır. Məhz bunun nəticəsidir ki, Azərbaycan son illərdə Birləşmiş Millətlər Təşkilatının, eləcə də digər mötəbər qurumların dünya səviyyəli tədbirlərinə ev sahiblik edib. Hansı ki dünyanın və Avropanın inkişaf etmiş ölkələri bu tədbirlərdən ya imtina edib, ya da zəif keçirib.

Ona görə də tədbirlərin zəif keçirildiyi ölkələrdən mötəbər təşkilatların rəhbərləri narazılıq ediblər. Amma onlar Bakıya, Azərbaycana gələndən sonra tam başqa bir mənzərənin şahidi olublar. Onlar şahidi olublar ki, uzun müddət bizi istəməyən düşmən qüvvələr qarayaxma kampaniyası aparıb və ölkəmizi gözdən salmaq istəyiblər. Amma faktlar və hadisələr isə Azəobaycanın necə demokratik, sivil, hüquqi ölkə olduğunu göstərib.

**Azərbaycan çətin vəziyyətdə olan bütün ölkələrə ən ağır anda öz köməkliyini göstərib. Zəlzələdən əziyyət çəkmiş və eləcə də müharibədən böyük maddi ziyanlar görmüş qonşu İrana ilk köməyi elə Azərbaycan edib. Bununla yanaşı, qardaş Türkiyəyə, Ukraynaya, Gürcüstana və son vaxtlar isə Ermənistana kömək əlini uzadan Azərbaycan olub. Azərbaycan dövləti hansı sözü, hansı vədi verirsə birmənalı olaraq onu yerinə yetirir. Ermənistanla uzun müddətdir ki, dinc yanaşı yaşayır. Azərbaycan bu müddətdə öz sülh addımlarını atmaqda davam edir. Ermənistana yüz tonlarla yanacaq və eləcə də Rusiyadan gəlib ölkəmizə tranzit yolla Ermənistana gedən taxıl, gübrə və digər məhsulların keçirilməsinə şərait yaradıb. Bunun hamısının başında dünya şöhrətli və uzaqgörən müdrik siyasətçi Cənab prezident İlham Əliyev durur. Ona görə də dünya ölkələri İlham Əliyevlə və Azərbaycanla dostluq etməyə daha böyük maraq göstərirlər.**

**Emil FAİQOĞLU**

AZƏRBAYCAN RESPUBLİKASININ MEDİANIN İNKİŞAFI AGENTLİYİNİN MALİYYƏ YARDIMI İLƏ



Əntiqə KƏRİMZADƏ

# Uşaqların "Xoruz babası"

**Tale bəzən elə kinoya çevrilir. İnsan bütün acıları teatr səhnəsində deyil, elə məhz həyat adlı səhnədə oynayır. Yaratdığı obrazlarla hamının sevimlisi olmuş, ömrünün sonuna kimi ailəsinin həsrəti ilə yaşayan Azərbaycan kinosunun ən yaddaqalan baba obrazını yaradan xalq artisti Hüseynağa Sadıqovun payına isə hər iki səhnə düşmüdü. Həm teatr səhnəsində rol alırdı, həm də acılar ilə həyat adlı səhnədə qovrulurdu...**

**O, 1914-cü ilin 21 Martında dünyaya göz açıb. Ailəsi əslən Cənubi Azərbaycandan idi. Aktyorun 6 yaşı olanda anası onu teatra aparanda Hüseynağa tamaşadan çox təsirlənir. Orta məktəbi bitirdikdən sonra teatr texnikumuna daxil olur. 1930-cu ildə Gənc Tamaşaçılar Teatrının aktyor truppasına daxil olur.**



**Elə həmin il ailəsi Cənubi Azərbaycana qayıtmalı olur. Hüseynağa Sadıqov isə işini sevdiyi üçün Bakıda qalır. Ailəsinin yenidən qayıdacağını düşünərək daima onların yolunu gözləyir.**

**Hüseynağa Sadıqov İkinci Dünya Müharibəsinin iştirakçısı olub. O, döyüşlərə könüllü gedir və Reyxstaqa kimi döyüşür. İki dəfə yaralansa da, sağalaraq döyüşlərə davam edib.**

**Müharibə bitdikdən sonra Sovet Ordusu İran ərazisindən keçərək geri qayıdırmış. Təbrizdən keçəndə əsgərlərin sırasında addımlayan Hüseynağa kənardan atasının ona baxdığını görür, amma atası ilə gedib görüşə bilmir..**

**Qızı Tamilla Sadıqova müsahibələrinin birində deyirdi: "Atam bu epizodu heç vaxt unuda bilmədi.."**

**Müharibədən sonra teatrdakı işinə qayıdır. 1962-ci ildə ilk dəfə kinoya dəvət alır. "Telefonçu qız" filmində təhlükəsizlik mühəndisi rolunu canlandırır.**

**1964-cü ildə "Sehirli Xalat" filmində yaltaq vəzir roluna çəkilir. O, 1966-cı ildə "Mosfilm"in lentə aldığı "Əlddinin sehirli çırağı" filminə dəvət alır və baş vəzir obrazını canlandırır. Çəkilişlər zamanı rejissor Boris Rıtsarev və məşhur aktyor Georgi Millyar daima Hüseynağa Sadıqovla məsləhətləşir, onun fikirlərini alırdılar. Yuri Nikulin, Sergey Filippov kimi aktyorlarla dostluq edir, onlar aktyorun Bakıdakı evinə qonaq gəlirdilər.**

**Hüseynağa Sadıqov "Yeddi oğul istərəm", "Şərikli çörək", "Ad günü", "Alma almaya bənzər" və "Babamızın babasının babası" kimi filmlərdə yaddaqalan obrazlar yaradıb. "Babamızın babasının babası" filmində yaşının çox olmasına baxmayaraq, at çapma səhnələrində dublyordan istifadə olunmur.**

**Daima onu mülayim və müsbət obrazlarda görsək də, "Yenilməz batalyon" filmində əzazil və qəddar bir obraz canlandırır.**

**Hüseynağa Sadıqov həm də televiziya tamaşalarında rol alırdı. "Piri Babanın Nağılları" verilişi ilə uşaqların sevimlisinə çevrilir. Böyükdən-kiçiyə hamı ona "Xoruz baba" deyə müraciət edirdi.**

**Aktyor infarkt keçirib xəstə yatan zaman aktyora xəbər verirlər ki, uşaqlar gəlib. Onu görmək istəyirlər. Hüseynağa Sadıqov özünü yaxşı hiss etməsə də, uşaqlarla görüşür.**

**O, 1950-ci ildə Süreyya adlı xanımla ailə qurub. Bu evlilikdən Tamilla adlı qızı dünyaya gəlir.**

**Qızı deyirdi ki, atam təbiətcə çox sakit adam idi. Heç vaxt yüksək səslə danışmazdı. Amma çox sərt baxışları var idi. Mənə elə gəlirdi ki, o baxışları ilə hər şeyi oxuyur..**

**Taksi sürücüləri ondan pul almadığı üçün aktyor hər yerə piyada gedirmiş. Avtobus və trolleybusa isə insanların diqqətini çəkməmək üçün minmirdi. Bazara gedəndə ondan pul almaq istəmirdilər. Qızı bildirir ki, atam pulsuz bir çöp də götürməzdi..**

**Hüseynağa Sadıqov 1956-cı ildə Əməkdar Artist, 1979-cu ildə isə Xalq Artisti adına layiq görülür. Ömrünün son günlərində aktyor diqqətdən kənarda qalır. Bir zamanlar daima evinə gəlib-gedən şəxslər artıq zəng belə etmir. Hüseynağa Sadıqov 23 Fevral 1983-cü ildə 69 yaşında Bakıda vəfat edir.**

# Əfsanələrə ilham verən qədim şəhər Troya

**Homerin "İliada" və "Odisseya" əsərlərindən tutmuş saysız-hesabsız filmlərə və dünyanın aparıcı mədəniyyət ocaqlarına qədər Troya haqqında hekayələr əsrlər boyu müxtəlif qitələrdə maraq doğurmağa davam edir. Türkiyənin Şimali Egey bölgəsində yerləşən və UNESCO-nun Ümumdünya İrs Siyahısına daxil edilən bu qədim şəhər təkcə tarixin canlı şahidi deyil, həm də ədəbiyyat, incəsənət, kino və elmi araşdırmalar üçün ilham mənbəyi kimi öz əhəmiyyətini qoruyur. Bu gün Troya irsi dünyanın müxtəlif ölkələrində keçirilən beynəlxalq mədəni tədbirlər vasitəsilə yeni auditoriyalara təqdim olunur.**

İyunun 11-də Romadakı Kolizeydə açılan Troya artefaktları sərgisi son illərin ən nüfuzlu beynəlxalq mədəni layihələrindən biri hesab edilir. Qədim şəhərin zəngin irsini dünyanın ən tanınmış mədəni məkanlarından birinə daşıyan sərgidə Türkiyənin 19 muzeyindən, o cümlədən Çanaqqaladakı Troya Muzeyindən seçilmiş 221 eksponat nümayiş olunur. Onlardan 50-si İtaliyada ilk dəfə sərgilənir. Bundan əlavə, İtaliya muzeylərinin kolleksiyalarından 80 eksponat da sərgiyə daxil edilib. Beynəlxalq ictimaiyyətin böyük marağına səbəb olan bu tədbir Troya arxeoloji irsinin zənginliyini nümayiş etdirməklə yanaşı, qədim şəhərin ümumbəşəri mədəni sərvət statusunu bir daha təsdiqləyir.

Bu möhtəşəm sərgi ilə yanaşı, müxtəlif ölkələrdə keçirilən mədəni və elmi tədbirlər də Troya irsini daha geniş auditoriyaya çatdırmağa davam edir. Nyu-Yorkdakı Türk Evində təşkil olunan konfrans və foto sərgisindən sonra növbəti tədbirlər Niderlandda baş tutacaq. İyunun 28-də Amsterdamdakı Yunus Əmrə İnstitutunda Troya mövzusunda xüsusi foto sərgisi açılacaq. Ardınca, iyunun 29-da Troya qazıntılarının rəhbəri professor Rüstəm Aslan Leyden Universitetində konfransla çıxış edəcək.

Troya ilə bağlı beynəlxalq tədbirlərin coğrafiyası getdikcə genişlənir. Dünyanın müxtəlif ölkələrində keçirilən sərgi və konfranslar qədim şəhər haqqında məlumatlılığı artırsa da, Troya həvəskarları üçün bunlar yalnız kiçik bir tanışlıq imkanı yaradır. Bu unikal irsi bütün zənginliyi ilə hiss etmək istəyən səyahətsevərlər isə Türkiyəyə, Çanaqqala şəhər mərkəzindən cəmi 30 kilometr məsafədə yerləşən qədim Troya şəhərinə dəvət olunurlar.

### *Təbiət, tarix və əfsanələrin qovuşduğu səyahət*

Egey bölgəsinin şimal qapısı hesab olunan Çanaqqala, Dardanel boğazının girişində yerləşən və ziyarətçilərinə fərqli təcrübələr vəd edən sahilyanı şəhərlərdən biridir. Günəşli çimərliklər, su idmanı növləri, mənzərəli düşərgə məkanları, velosiped marşrutları və butik şərab yolları Çanaqqalanı Türkiyənin ən cəlbedici istiqamətlərindən birinə çevirir.

Şəhərə gələn qonaqlar Birinci Dünya müharibəsinin ən mühüm səhifələrindən biri sayılan Çanaqqala döyüşlərinin izləri ilə tanış ola, Gelibolu cəbhəsinin tarixi məkanlarını ziyarət edə, hətta sualtı dünyasına baş vuraraq müharibə dövrünə aid batmış gəmiləri kəşf edə bilərlər. Kazdağlarının yaşıllıqlarla örtülü təbiəti, Assosun büllur kimi şəffaf suları, həmçinin Bozcaada və Gökçeadanın özünəməxsus ada atmosferi bölgəyə xüsusi rəng qatır.

Lakin Çanaqqalanın ən dəyərli xəzinəsi, şübhəsiz ki, Troya şəhəridir. Şəhər mərkəzində ucaldılan nəhəng taxta at Troya əfsanəsinin simvoluna çevrilərək ziyarətçilərə bu sirli qədim məkan haqqında ilk təəssüratı bəxş edir. Əsrlər keçsə də, Troya öz sehrini itirməyib və dünyanın dörd bir yanından gələn səyahətsevərləri valeh etməyə davam edir.

### *Troya: Sivilizasiyaların izlərini yaşadan qədim şəhər*

Çanaqqala şəhərindən qısa məsafədə yerləşən Troya tarix və mədəniyyət həvəskarlarını minilliklərə yayılan zəngin keçmişi ilə tanış olmağa dəvət edir. Tevfikiyə kəndində yerləşən bu qədim yaşayış məskəni daha çox Homerin məşhur "İliada" dastanına ilham vermiş şəhər kimi tanınır. Troya müharibəsi şəhərin adını əfsanəyə çevirsə də, bu torpaqlar həmin hadisələrdən çox əvvəl müxtəlif mədəniyyətlərə ev sahibliyi edib.



UNESCO-nun Ümumdünya İrs Siyahısına daxil edilən Troya bu gün erkən Tunc dövründən Şərqi Roma imperiyası dövrünədək uzanan, təxminən 5 min illik fasiləsiz yaşayış tarixini özündə əks etdirir. Arxeoloji qazıntılar nəticəsində müəyyən edilmiş on fərqli mədəni təbəqə şəhərin əsrlər boyu davam edən inkişafının canlı sübutu hesab olunur.

Qədim şəhərin girişində ziyarətçiləri nəhəng Troya atı qarşılayır. Tarixi səyahətə buradan başlayan qonaqlar Troya ərazisində yaxşı qorunub saxlanılmış daş divarları və küçələri gəzərək, əfsanələrdə adı çəkilən qəhrəmanların izlərini hiss etmək imkanı əldə edirlər.

Troya eyni zamanda Roma imperiyasının yaranması ilə bağlı rəvayətlərdə mühüm yer tutur. Vergilinin "Eneida" əsərində əbədiləşdirilən əfsanəyə görə, şəhərin süqutundan sonra Troya şahzadəsi Eney yeni bir Troya qurmaq məqsədilə uzun səyahətə çıxır. Bu gün "Eney marşrutu" kimi tanınan və Avropa Şurası tərəfindən Mədəni Marşrut statusu verilən yolun sonunda o, Latium sahillərinə çatır. Rəvayətə əsasən, onun nəslindən gələnlər eramızdan əvvəl 753-cü ildə Romanın əsasını qoyurlar.

Əfsanələrin fövqündə isə dəyişməz bir həqiqət dayanır: Troya minilliklər boyu fasiləsiz məskunlaşmanın davam etdiyi, dünya mədəniyyətinə təsir göstərən qədim Anadolu şəhərlərindən biri olub. Qərb ədəbiyyatının formalaşmasına ilham verən bu mühüm mədəni mərkəzin qalıqları arasında gəzmək, Tunc dövrünə aid istehkamları, Roma dövründən qalan Odeon və Bulevterion tikililərini görmək tarix həvəskarları üçün əvəzsiz təcrübədir.

### *Qədim şəhərdən kənara uzanan təcrübə: Troya Muzeyi*

Troya ilə tanışlıq yalnız qədim şəhərlə məhdudlaşmır. Ərazinin girişində yerləşən və memarlıq üslubu ilə diqqət çəkən, beynəlxalq mükafatlara layiq görülmüş Troya Muzeyi ziyarətçilərə tarixi səyahətlərini daha da zənginləşdirmək imkanı təqdim edir.

Sadə, lakin təsirli memarlıq konsepsiyası ilə seçilən muzeydə Troya ərazisində aparılan qazıntılar zamanı aşkar edilmiş qiymətli arxeoloji tapıntılar nümayiş olunur. Üç mərtəbədən ibarət ekspozisiyada qədim şəhərin minilliklərə söykənən tarixi müasir təqdimat üsulları ilə ziyarətçilərə çatdırılır və Troya irsi yeni nəsillərlə yenidən qovuşur.

### *Troya səfərini planlaşdıranlar üçün faydalı məlumatlar. Troya şəhərinə necə getmək olar?*

İstanbul Hava Limanından Çanaqqalaya hər gün müntəzəm aviareyslər həyata keçirilir. Bundan əlavə, İstanbuldan avtomobillə yola çıxaraq bir neçə saat ərzində Troya qədim şəhərinə çatmaq mümkündür. Yolboyu Egey mənzərələri isə səfəri daha da yaddaqalan edir.

Çanaqqala müxtəlif büdcələrə uyğun geniş yerləşdirmə imkanları təqdim edir. Şəhərdə beynəlxalq hotel şəbəkələri ilə yanaşı, butik hotellər də fəaliyyət göstərir. Daha fərqli və yerli atmosferi hiss etmək istəyənlər üçün Troya ərazisinə ən yaxın yaşayış məntəqəsi olan Tevfikiyə kəndi ideal seçimdir. Burada fəaliyyət göstərən ailəvi qonaq evləri ziyarətçilərə bölgənin qonaqpərvərliyini yaxından yaşamaq imkanı yaradır.

### *Bölgədə nələri kəşf etmək olar?*

Troya qədim şəhəri eyni zamanda Troya Şərab Marşrutunun mühüm dayanacaqlarından biridir. Gelibolundan başlayaraq Eceabat və Troya üzərindən Bozcaada adasına qədər uzanan bu marşrut səyahətsevərlərə bölgənin zəngin üzümçülük və şərabçılıq ənənələrini yaxından tanımaq imkanı verir.

Mənzərəli marşrut boyunca yerli istehsalçılar və unikal dadlar ziyarətçiləri gözləyir.

### *Çanaqqalada hansı dadları sınamaq lazımdır?*

**Çanaqqala zəngin mətbəxi ilə də seçilir. Bölgənin məşhur Ezine pendiri, yerli zeytun yağından istifadə edilərək hazırlanan tərəvəz yeməkləri və təzə dəniz məhsulları qonaqlara unudulmaz qastronomik təcrübə bəxş edir. Xüsusilə Dardanel boğazı və Saros körfəzindən ovlanan sardina balığı bölgənin ən məşhur ləzzətləri sırasında yer alır. Bu dadlar Çanaqqalanın məşhur şərabları ilə birlikdə bölgənin kulinariya mədəniyyətini daha da zənginləşdirir.**

Təsisçi və baş məsləhətçi: Aqil ABBAS
Baş redaktor: İradə TUNCAY

Qəzet "Ədalət" qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və "Son dakika" MMC Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.
Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.
kod: 200112 h\h
Müxbir hesab: 0137010001994
S.W.I.F.T. Bik: AIIBAZ 2x hesab N: 38070019411100451111 VÖEN: 1300456161
İndeks:0107 Qeydiyyat nömrəsi 100

Ünvan: Bakı şəhəri, Neftçilər 67, mənzil 21 A
Telefon: (012) 491-23-53
adaletqezeti@rambler.ru
adaletqezeti@mail.ru, adaletqezeti@box.az

Tiraj: 1500
Sifariş: 283
Çapa imzalanmışdır: 25.06.2026